**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

**Publik Hüquqi Şəxsi**

# Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Publik Hüquqi Şəxsi İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında HESABAT

**Hesabat Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ-in Elmi Şurasının (29.03.2023-cü il) tarixli iclasının qərarı ilə (Protokol № 11) təsdiq edilmişdir.**

**Tarix ______________**

**İmza ______________**

**M.Y**

**2023**

## Mündəricat


**I Giriş** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar . . . . . . . . . . . . . . . . . . . . 3

2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki . . . . . . . . . . . . . . . . . . 4

3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6

**II Təhsil müəssisəsinin özünütəhlili** . . . . . . . . . . . . . . . . . . . . . . 18

4. Özünütəhlil qiymətləndirilməsinin icmalı . . . . . . . . . . . . . . . . . . . . . . 18

5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri . . . . . . . . . . . . . . . . . . . . 91

6. Təşkilat komissiyasının gəldiyi nəticələr və qeydlər . . . . . . . . . . . . . . . . 93

**III Özünütəhlil Hesabatına əlavə olunan sənədlər** . . . . . . . . . . . . . . . . 99

## I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Publik Hüquqi Şəxsi |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 07 iyul 2017-ci il tarixli, 5 il müddətinə |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | XXX |
| Təhsil müəssisəsinin rəhbəri | Mustafa Babanlı |
| Fakültələrin sayı | 7 |
| Kafedraların sayı | 24 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 30 |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas: 32;<br>İxtisaslaşma: 62 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 48 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı<br>Bakalavriat: 14245<br>Magistratura: 2607<br>Doktorantura: 292, o cümlədən, elmlər doktorluğu proqramı üzrə: 53 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 611 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 170 (əvəzçiliklə) və 261 (saathesabı ilə) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@asoiu.edu.az +994124934557 |
| Müəssisənin hüquqi ünvanı | AZ1010, Bakı şəhəri, Azadlıq prospekti, 20 |
| Müəssisənin faktiki ünvanı | AZ1010, Bakı şəhəri, Azadlıq prospekti, 20 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1 | Qasım Məmmədov | Sədr, Strateji inkişaf, Təlim və tədris istiqamətləri üzrə işçi qrupların rəhbəri | q.mammadov@asoiu.edu.az |
| 2 | Lətifə Məmmədova | Sədr müavini | l.mammadova@asoiu.edu.az |
| 3 | Nərminə Əliyeva | Katib | narmina.aliyeva@asoiu.edu.az |
| 4 | Lətafət Qardaşova | Elmi tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri | l.qardashova@asoiu.edu.az |
| 5 | Səyami Hüseynov | İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri | sayami@asoiu.edu.az |
| 6 | Rafiq Camalov | Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri | r.jamalov@asoiu.edu.az |
| 7 | Ata Babayev | İdarəetmə sistemi istiqaməti üzrə işçi qrupun rəhbəri | a.babayev@asoiu.edu.az |
| 8 | Rasim Abdullayev | İşçi qrup üzvü | rasim.abdullayev@asoiu.edu.az |
| 9 | Sakit Səmədov | İşçi qrup üzvü | sakit.samadov@asoiu.edu.az |
| 10 | Salman Salmanov | İşçi qrup üzvü | s.salmanov@asoiu.edu.az |
| 11 | Bəhruz Nəzərov | İşçi qrup üzvü | b.nazarov@asoiu.edu.az |
| 12 | Naməd Paşayev | İşçi qrup üzvü | nemat.pashayev@asoiu.edu.az |
| 13 | Elman İskəndərov | İşçi qrup üzvü | elman.iskandarov@asoiu.edu.az |
| 14 | Sevinc Məmmədxanova | İşçi qrup üzvü | sevinc.mammadxanova@asoiu.edu.az |
| 15 | Əli Hikmət Əhmədov | İşçi qrup üzvü | alihikmat.ahmadov@asoiu.edu.az |
| 16 | Aydın Əliyev | İşçi qrup üzvü | aydin.aliyev@asoiu.edu.az |
| 17 | Fərid Ağayev | İşçi qrup üzvü | farid.agayev@asoiu.edu.az |
| 18 | İlham Rüstəmov | İşçi qrup üzvü | i.rustamov@asoiu.edu.az |
| 19 | Nailə Həsənova | İşçi qrup üzvü | n.hasanova@asoiu.edu.az |
| 20 | Arzu İbrahimova | İşçi qrup üzvü | arzu.ibrahimova@asoiu.edu.az |

| | | | |
|---|---|---|---|
| 21 | Elviz İsmayılov | İşçi qrup üzvü | elviz.ismailov@asoiu.edu.az |
| 22 | İlduzə Hüseynova | İşçi qrup üzvü | huseynova.ilduze@asoiu.edu.az |
| 23 | Yeganə İbrahimova | İşçi qrup üzvü | yegane.ibrahimova@asoiu.edu.az |
| 24 | Səlahət Mahmudova | İşçi qrup üzvü | selahet.mahmudova@asoiu.edu.az |
| 25 | Rəşad Şixiyev | Keyfiyyət təminatı istiqaməti üzrə işçi qrupun rəhbəri | rashad.shikhiyev@ asoiu.edu.az |
| 26 | Fərrux Hüeynov | İşçi qrup üzvü | farrux.huseynov@asoiu.edu.az |
| 27 | Namiq Gəncəyev | İşçi qrup üzvü | namiq.gancayev@asoiu.edu.az |
| 28 | Cavanşir Abdullayev | İşçi qrup üzvü | cavanshir.abdullayev@ asoiu.edu.az |

**Təşkilat komissiyasının fəaliyyət qrafiki**

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1 | Qasım Məmmədov | Ümumi rəhbərlik. Strateji inkişaf, təlim və tədris istiqamətləri üzrə işçi qrupların rəhbəri. |
| 2 | Lətifə Məmmədova | Hesabatın hazırlanmasında koordinasiya işləri. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması. Təhsil proqramları. |
| 3 | Nərminə Əliyeva | Müvafiq sənədlərin toplanması üzrə koordinator. İdarəetmə orqanları. İnsan resurslarının idarə edilməsi. |
| 4 | Lətafət Qardaşova | Elmi tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri. Elmi-tədqiqat strategiyası. Tədqiqat resursları. Beynəlmilləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu. |
| 5 | Səyami Hüseynov | İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri. |
| 6 | Rafiq Camalov | Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri. Strateji inkişaf proqramının icrası və monitorinqi. Beynəlmiləlləşmə siyasəti. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar. Beynəlmiləlləşmə performansı. |
| 7 | Ata Babayev | İdarəetmə sistemi istiqaməti üzrə işçi qrupun rəhbəri. |
| 8 | Rasim Abdullayev | Təlim və tədris resursları. İnformasiya idarəetmə sistemi. |
| 9 | Sakit Səmədov | Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi. |
| 10 | Salman Salmanov | Təlim və tədris resursları. Tədris infrastrukturu. |
| 11 | Bəhruz Nəzərov | İctimaiyyətlə əlaqələr. |

| | | |
|---|---|---|
| 12 | Namәd Paşayev | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 13 | Elman İskәndәrov | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 14 | Sevinc Mәmmәdxanova | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 15 | Әli Hikmәt Әhmәdov | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 16 | Aydın Әliyev | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 17 | Fәrid Ağayev | Tәdrisin tәşkili. Tәdris metodları vә üsulları. Tәhsilalanların bilik vә bacarıqlarının qiymәtlәndirilmәsi vә tәhsil sәnәdlәrinin verilmәsi. Tәhsil proqramlarının monitorinqi vә yenilәnmәsi. |
| 18 | İlham Rüstәmov | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 19 | Nailә Hәsәnova | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 20 | Arzu İbrahimova | Tәdrisin tәşkili. Tәlәbәyönümlü tәdris. |
| 21 | Elviz İsmayılov | Elmi-tәdqiqat fәaliyyәti. Elmi-tәdqiqat fәaliyyәtindә vә tәhsildә akademik dürüstlük mexanizminin mövcud olması vә tәtbiqi vәziyyәti. Elmi-tәdqiqat infrastrukturu. |
| 22 | İlduzә Hüseynova | Professor-müәllim heyәti. |
| 23 | Yeganә İbrahimova | Maliyyә resurslarının idarә edilmәsi. Tәdris infrastrukturu. |
| 24 | Sәlahәt Mahmudova | Tәlim vә tәdris resursları. Tәdris infrastrukturu. |
| 25 | Rәşad Şixiyev | Keyfiyyәt tәminatı istiqamәti üzrә işçi qrupun rәhbәri. Keyfiyyәt tәminatı mәdәniyyәti. |
| 26 | Fәrrux Hüeynov | Keyfiyyәt tәminatı siyasәti. Daxili keyfiyyәt tәminatı mexanizmlәri. İnsan resurslarının idarә edilmәsi. |
| 27 | Namiq Gәncәyev | Tәdris infrastrukturu. |
| 28 | Cavanşir Abdullayev | Tәdris infrastrukturu. |

## 3. Tәhsil müәssisәsinin öncәki akkreditasiya qiymәtlәndirilmәsi zamanı verilmiş tövsiyәlәrin icra vәziyyәtinә dair

Azәrbaycan Dövlәt Neft vә Sәnaye Universitetindә Akkreditasiya Komissiyasının akkreditasiya nәticәlәrinә әsasәn ali tәhsil müәssisәsinә verdiyi tövsiyәlәr:

- Әyani doktorantların sayının çox az olması (9 nәfәr) narahatlıq doğurur. Bu istiqamәtdә iş aparılmalıdır.

- Universitetdә tәhsil alan doktorant vә dissertantların lazımi şәraitdә tәdqiqat işi aparmaları vә dissertasiyalarını vaxtında müdafiә etmәlәrinә diqqәt artırılmalı, bu sahә daim

diqqət mərkəzində olmalıdır.

- Eyni müəllimin hər il 5 nəfərə yeni buraxılış işi mövzusu verməsi çətindir. Buna görə buraxılış işinin ÜOMG-nin yuxarı olduğu tələbələrə verilməsi, qalan tələbələrin isə dövlət imtahanı verməsi daha məqsədəuyğun olardı.

- Kadrların cavanlaşdırılmasına böyük ehtiyac duyulur.

- Kredit borcu olan tələbələrin alt qruplardan fənn götürmələri haqqında əmr sentyabrın 15-ə qədər formalaşdırılmalıdır. Bu əmrdə tələbənin semestr ərzində götürdüyü kreditlərin sayı, alt qrupdan götürdüyü kreditin miqdarı və neçə kreditin ödənilməsi olduğunun göstərilməsi məsləhətdir.

- Tədris prosesinin normal gedişini təmin etmək üçün informasiya-kommunikasiya texnologiyaları (İKT) vasitələrindən səmərəli istifadə etmək, auditoriya və laboratoriyaları kompüter texnikası ilə təmin etmək, ixtisas fənlərinin tədrisini müasir tələblər səviyyəsinə yüksəltmək, tədris prosesinin yeni formalarının tətbiqini təmin etmək, İKT vasitələri və kompüter otaqlarının daha müasir texniki avadanlıqlarla təmin edilməsi istiqamətində işlər gücləndirilməlidir.

- Bəzi kafedralarda 100-dən çox fənn tədris olunur. Bu fənlərin vacib olub-olmamasına yenidən baxılsa yaxşı olar.

- Laboratoriyalarda aparılan elmi-tədqiqat işləri vasitəsilə universitetə əlavə vəsaitin cəlb edilməsi istiqamətində işlər gücləndirilməlidir.

- ADNSU-da 10%-ə qədər tələbə kurs işi yerinə yetirə bilir. Əksər tələbələr buraxılış işlərini müvəffəqiyyətlə yerinə yetirirlər. Bu uyğunsuzluğun səbəbi analiz edilməlidir.

- Son illər ADNSU-nu fərqlənmə diplomu ilə bitirən tələbələrin sayı 1%-ə yaxın olur. Bu məsələ təhlil olunmalı və səbəbləri araşdırılmalıdır.

- Professor-müəllim heyətinin 50%-dən yuxarısının orta yaş həddi 61-dən yuxarıdır. Kadrların yetişdirilməsi sahəsində ciddi tədbirlər görülməlidir.

- Professor-müəllim heyətinin xaricdə ixtisaslarını artırmaları istiqamətində iş görülməlidir.

- Universitetdə ingilis bölməsinə qəbul planlaşdırılır. Bu bölmələrə ingilis dilini bilən abitiruyentlərin qəbulu mexanizmi işlənilməlidir.

- Komissiya hesab edir ki, ADNSU-da müəllimlərin fəaliyyətinin stimullaşdırılması, təhsilalanların təlim nəticələrinin qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi, onların yekun attestasiyasının aparılması, dərsliklə təminat, elektron universitetin yaradılması, təhsilalanların istehsalat təcrübələrinin səmərəli təşkili, elmi-tədqiqat işlərinin mövzuları və istiqamətləri müəyyənləşdirilərkən, prioritet hesab edilən məsələlərin nəzərə alınmasının

təmin edilməsi istiqamətində görüləsi işlər çoxdur.

Akkreditasiya komissiyası Universitetin inkişafına xidmət edə biləcək aşağıdaki perspektiv vəzifələrin yaxın gələcəkdə həyata keçirilməsini tövsiyə edir:

**Elm sahəsində:**

- Əsas strateji məqsəd - ADNSU-nun beynəlxalq standartlara cavab verə biləcək tədris-elm-innovasiya-istehsalat mərkəzinə çevirmək olmalıdır.

- Universitetin kafedralarında və elmi-tədqiqat laboratoriyalarında yerinə yetirilən elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, onların əlaqələndirilməsi, elmi-tədqiqat işlərinin universitetdə tədris edilən fənlər üzrə dərsliklərin, dərs vəsaitləri və digər elmi-metodik ədəbiyyatın hazırlanmasına düşünülmüş şəkildə istiqamətlənməsi;

- Universitetin elmi potensialından səmərəli şəkildə istifadə etməklə, kollektivin dövlət sifarişli, eləcə də beynəlxalq proqram və layihələrdə fəal iştirakinın təmin edilməsi;

- Elmi-tədqiqat prosesinin keyfiyyətinə yeni nəzarət sisteminin yaradılması; Elmi-araşdırmaların sifarişli formasına keçidin başa çatdırılması;

- Universitetdə fəaliyyət göstərən kafedraların və elmi-tədqiqat laboratoriyalarının elmi araşdırmalar sahəsində birgə fəaliyyətinin təmin edilməsi;

- Seçkili vəzifələrin tutulmasında qiymətləndirmənin bal sisteminin tətbiq edilməsi;

- Professor-müəllim heyəti üçün elmi məqalələrin impakt faktorlu beynəlxalq jurnallarda nəşrinə əlverişli şəraitin təmin edilməsi və bu məqsədlə ADNSU-nun nüfuzlu beynəlxalq elmi jurnalının təsis edilməsi;

- Transfer texnologiyaları əsasında beynəlxalq layihələrdə iştirakın və təhsilalanların start-Up layihələrinə fəal qoşulmalarının stumullaşdırılması.

**Təhsil sahəsində:**

- ADNSU-da elektron universitet sisteminin tam tətbiqinin təmin edilməsi;

- Ən yeni təhsil texnologiyalarına əsaslanan təhsil modelinin yaradılması;

- Beynəlxalq təhsil xidmətləri bazarında daha fəal iştirak edilməsi;

- Boloniya prosesinə uyğun olan tədris planları, proqramları və təhsil resurslarının təkmilləşdirilməsi;

- Təhsilalanların biliyinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi;

- Buraxılış kurs tələbələri və magistrantları arasında keçirilmiş imtahanların nəticələrinə görə aşağı səviyyədə mənimsənilmiş fənlər üzrə kafedraların fəaliyyətinə nəzarətin gücləndirilməsi, mövcud vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi, təhsilalanlarla fərdi işlərin və məsləhət saatlarının səmərəliliyinin yüksəldilməsi;

- Universitetdə kadr hazırlığı keçirilən bütün ixtisaslar üzrə fənn proqramlarının qısa bir

müddətdə təkmilləşdirilərək nəşr edilməsi;

- Müasir tələblərə cavab verən dərsliklər, dərs vəsaitləri və tədris materiallarının nəşr işinin sürətləndirilməsi;

- Tədris prosesində tədris məsləhətçilərinin (tyutor) xidmətindən səmərəli istifadə olunmasının təmini;

- Tədris prosesinin lazımi çap materialları və onların elektron versiyaları ilə təminatının yaxşılaşdırılması;

- Təhsilalanların fənn və müəllim seçimində müstəqilliyini təmin etmək üçün tədbirlərin gücləndirilməsi;

- Tədrisi ingilis dilində təşkil edilən ixtisasların sayının artırılması və tələbə-müəllim mobilliyinin təmin edilməsi.

**Tərbiyə işləri sahəsində:**

- Təhsilalanların vətənə və xalqa, Azərbaycan dövlətçiliyinə və xalqımızın müstəqillik ideyalarına sadiq vətəndaş kimi yetişdirilməsi, hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi sahəsində professor-müəllim heyətinin fəaliyyətinin gücləndirilməsi;

- Ölkənin ictimai həyatında gənc nəslin fəal iştirakının təmin edilməsi, tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması və onların özünüdərketmə orqanlarına cəlb edilməsi məqsədilə, Tələbə Gənclər Təşkilatı və Həmkarlar İttifaqı Təşkilatının fəaliyyətinin gücləndirilməsi;

**Sosial məişət sahəsində:**

- Tədrisin, elmi-tədqiqat işlərinin səmərəli təşkili üçün professor-müəllim və texniki heyətin sosial müdafiəsinə yönəlmiş tədbirlərin forma və məzmun baxımından təkmilləşdirilməsi, müxtəlif stimullaşdırıcı amillərin tətbiq edilməsi;

- Yataqxanada yaşayan təhsilalanların məişət problemlərinin həlli istiqamətində ciddi tədbirlərin görülməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə təmir və abadlıq işlərinin təşkili.

- Komissiya professor-müəllim heyətinin attestasiyası, tədris prosesinə və onun keyfiyyətinə nəzarət mexanizminin təşkili, əmək intizamının möhkəmləndirilməsi və iş rejiminə ciddi riayət olunması ilə bağlı tədbirlərin mütəmadi olaraq həyata keçirilməsinin vacibliyini xüsusilə qeyd edir.

- ADNSU neft və sənaye sahələri üzrə ixtisaslı kadrlarının hazırlanmasının elə sistemini formalaşdırmalıdır ki, bu sistem yüksək peşəkarlıq səviyyəsini, nəzəri və praktiki biliklərin əldə edilməsini, vərdişlər və özünü inkişaf təcrübəsinə nail olunmanı təmin etməklə yanaşı, tədris prosesinin təşkilati, psixoloji, peşəkarlıq, elmi və texniki komponentlərini sintez edə

bilsin.

- Universitetdə interaktiv təlim metodlarından istifadə genişlənməli, onların metodiki, informasiya təminatı məsələləri həll olunmalıdır.

- Təhsilalanların son təhsil illərində il boyu təcrübə keçmələrinə şəraitin yaradılması və tətil günlərində isə tam ştatlı işçi kimi işləmələri konsepsiyası üzərində müxtəlif təşkilatlarla işgüzar əlaqələrin qurulması istiqamətində işlər sürətlənməlidir.

- Universitetdə kadr hazırlığı sistemində distant təhsildən istifadə ilə bağlı başlanılmış layihələndirmə işləri davam etdirilməli və bu məsələyə diqqət daha da artırılmalıdır,

**Yekun Hesabatda Komissiyanın verdiyi tövsiyələrin ümumi icrası və çatışmazlıqların aradan qaldırılması vəziyyəti:**

- Hazırda ADNSU-nun doktorantura təhsil səviyyəsində 326 nəfər, o cümlədən elmlər doktorluğu proqramı üzrə 53 nəfər təhsil alır. Əyani doktorantların sayı 93 nəfərdir və onlardan 86 nəfəri təqaüd alır. Göründüyü kimi ötən illər ərzində əyani doktorantların sayı 9,6 dəfə artmışdır.

- Doktorant və dissertantların vaxtında müdafiə etmələri daim diqqət mərkəzində saxlanılır, tədqiqat işlərinin aparılmasına lazımi şərait yaradılır, ehtiyac olduğu halda onlar bu məqsədlə müxtəlif Elmi-Tədqiqat İnstitutlarına göndərlir, ikili rəhbərlik yanaşması tətbiq edilir.

- Elmi Şuranın 04.06.2019-cu il tarixli qərarına əsasən (Protokol №10) ÜOMG≥80 olan bakalavrlar DAK qarşısında buraxılış işi müdafiə etməli, ÜOMG<80 olan bakalavrlar isə DAK qarşısında dövlət imtahanı verməlidirlər. Buraxılış işinin mövzuları III kursun əvvəlində (V semestr) bütün tələbələrə verilsə də, yekun ÜOMG VII semestrin imtahan sessiyasının sonunda müəyyən edilir və bu göstəriciyə uyğun olaraq bakalavrların yekun attestasiyası aparılır.

- ADNSU-nun 2021 – 2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyasının "Elmi-pedaqoji kadr heyətinin müasirləşdirilməsi" bölməsinə uyğun olaraq, istedadlı məzun-magistrantların universitetdə tədris və idarəetmə strukturlarına cəlb olunmasının stimullaşdırılması, karyera inkişafının təmin edilməsi istiqamətində mütəmadi iş aparılır.

- Maliyyə çətinliyi səbəbindən alt qrupdan götürülən kreditlərin ödənişinin gecikdirilməsi və bəzi üzürlü səbəblərə görə müraciətin gec edilməsindən kredit borcu olan tələbələrin alt qruplardan fənn götürmələri haqqında əmr sentyabrın 15-ə qədər yekunlaşmır. Verilən bütün əmrlərdə tələbənin semestr ərzində götürdüyü kreditlərin sayı, alt qrupdan götürdüyü kreditin miqdarı, neçə kreditin ödənilməli olduğu, həmçinin kursa və ixtisasa uyğun illik təhsil

haqqı göstərilir.

- Universitetin bütün auditoriyaları proyektor və yüksək sürətli internet şəbəkəsinə qoşulmuş kompüterlərlə təchiz edilmişdir. 141 auditoriyada müəllimin veb-distant tədris aparmasına imkan verən iş masası quraşdırılmışdır. Bu masanın konstruksiyası universitetin özünə məxsusdur və ilk dəfə 2018-ci ildə keçirilmiş Təhsil Sərgisində nümayiş etdirilmişdi.

- "Neft-qaz mühəndisliyi", "Cihaz mühəndisliyi", "Kompüter mühəndisliyi" və "Elektronika və avtomatika" kafedralarında tədris olunan fənlərin adlarının Azərbaycan və ingilis dillərində ayrı-ayrı yazılması 100-dən artıq fənnin tədris olunması görüntüsünü yaradır.

- Elmi-tədqiqat işlərinin dövlət tərəfindən maliyyələşdirilməməsi səbəbindən onların səmərəliliyi qənaətbəxş səviyyədə deyildi. Bu səbəbdən Geoloji-kəşfiyyat, Kimya-texnologiya, və Energetika fakültələrinin elmi-tədqiqat laboratoriyaları Elmi Şuranın qərarına əsasən 2021-ci ildə universitetin nəzdində fəaliyyət göstərən və struktur dəyişikliyi aparılmış "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunun nəzdinə keçirilmişdir. Neft-mexanika fakültəsinin "Nanomateriallar və nanotexnologiyalar" elmi-tədqiqat laboratoriyası, həmçinin İnformasiya texnologiyaları və idarəetmə fakültəsi ilə İqtisadiyyat və menecment fakültəsinin birgə "Sənayedə və iqdisadiyyatda intellektual idarəetmə və qərar qəbuletmə sistemləri" elmi-tədqiqat laboratoriyası hələlik saxlanılmış və gələcəkdə onların hər birinin Elmi-Tədqiqat İnstitutu səviyyəsinə qaldırılması nəzərdə tutulmuşdur. Aparılan elmi-tədqiqat işləri vasitəsilə universitetə əlavə vəsaitin cəlb edilməsində əsas çətinlik istehsalat müəssisələrinin bu işlərin tətbiqində maraqlı olmamasıdır.

- 2018/2019-cu tədris ilindən etibarən tələbələr tərəfindən fənn üzrə toplanan imtahanqabağı ballarda kurs layihəsinə (kurs işinə) görə qazanılacaq balın 50%-ni toplamayan tələbənin həmin fənnin imtahanına buraxılmaması barədə Elmi Şura tərəfindən qəbul edilmiş qərardan sonra bütün tələbələr tərəfindən kurs layihəsi (kurs işi) yerinə yetirilir.

- Universitet rəhbərliyi tərəfindən fərqlənmə diplomu ilə bitirən tələbələrin sayının ildən-ilə artması məqsəd kimi qarşıya qoyulmamışdır. Təhsil göstəriciləri normativ tələblərə uyğun olan tələbə fərqlənmə diplomu almalıdır. Misal üçün, 2022-ci təqvim ilində bakalavriat səviyyəsində məzun olanların sayı 3115 nəfər, onlardan fərqlənmə diplomu alanların sayı isə 141 nəfər olmuşdur (4,5%).

- Bu irada yuxarıda cavab verilsə də qeyd etmək istəyirik ki, texniki və texnoloji ixtisaslar üzrə təhsillərini yüksək göstəricilərlə başa vuran magistr məzunların böyük əksəriyyəti milli

və transmilli şirkətlərdə işləməyə üstünlük verirlər. Bu da maaşların daha yüksək olması ilə izah olunur. Buna baxmayaraq, universitetdə son illər gənc kadrların işə cəlb edilməsi istiqamətində aparılan işlərin nəticəsi olaraq, hazırda orta yaş həddi 61-dən yuxarı olan professor-müəllim heyətinin payı 40,2% təşkil edir.

- Professor-müəllim heyətinin xaricdə ixtisaslarını artırmaları məsələsi universitetin 2021 – 2030-cu illəri əhatə edən strateji inkişaf planına daxildir. Bu məsələ tərəfdaş xarici universitetlərin rəhbərləri ilə dəfələrlə müzakirə edilmişdir. Məsələnin həlli maliyyə təminatı tələb edir.

- 2023/2024-cü tədris ilinə bakalavriat səviyyəsi üzrə qəbul proqnozunda universitetə Azərbaycan dilində 30 ixtisas üzrə, rus dilində 11 ixtisas üzrə, ingilis dilində isə 26 ixtisas üzrə qəbul planlaşdırılmışdır. Abituriyentlər hazırlıq kursunun olmadığını və tədrisi, ilk semestrdən başlayaraq, ingilis dilində alacaqlarını bilirlər. Qəbul zamanı ingilis dilinə görə toplanan balın minimal həddinə məhdudiyyət qoyulur. Nümunə üçün göstərə bilərik ki, 2022/2023-cü tədris ilində “Kompüter elmləri” ixtisasına ingilis dilində qəbul olmuş abituriyentlərin minimal balı 624,7, maksimal balı isə 679,5 olmuş, “Kompüter mühəndisliyi” ixtisasına – uyğun olaraq 613,4 və 676,5 bal, “İnformasiya texnologiyaları” ixtisasına – 634,9 və 673,3 bal, “İnformasiya təhlükəsizliyi” ixtisasına – 638,9 və 672,8 bal olmuşdur. “Neft-qaz mühəndisliyi” ixtisasına – 560,5 və 654,7 bal, “Kimya mühəndisliyi” ixtisasına – 543,2 və 644,0 bal olmuşdur.

- Müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün universitetdə diferensial əmək haqqı sistemi tətbiq edilir. Universitetin Elmi Şurasının 27.12.2017-ci il tarixli qərarı ilə “Professor-müəllimheyətinə veriləcək əlavə maaşların hesablanması üçün Təlimat” təsdiq edilmişdir. Bundan başqa, ingilis dilində tədris aparan müəllimlərin illik tədris yükü 500 saat həcmində planlaşdırılır və tədris olunan saatlara görə əmək haqqı 1,5 əmsalla verilir. Hazırda təhsilalanların təlim nəticələrinin qiymətləndirilməsində Elmi Şuranın qərarı ilə təsdiq edilmiş “2021/2022-ci tədris ilinin payız semestrində təhsilalanların cari qiymətləndirilməsi cədvəli”ndən istifadə edilir. Göründüyü kimi davamiyyətə görə təhsilalanlara bal verilmir, çünki dərsə gəlmək onların vəzifə borcudur. 2016/2017-ci tədris ilindən etibarən elektron universitet fəaliyyət göstərir. Hər bir semestr başlamazdan öncə bütün müəllimlər tərəfindən tədris dilində aktiv və passiv sillabuslar, fənnin məzmunu, mühazirələrin konspekti, müəllimin təqdimatı və fənni ən azı 70% əhatə edən dərslik və ya dərs vəsaiti elektron sistemə yüklənir.

Tədris planlarında nəzərdə tutulmuş istehsalat təcrübələri ilə yanaşı müxtəlif müəssisələrdə (Azərenerji, Azərişıq, ATEF, Binəqədi Oil və s.) tələbələr üçün ilboyu

təcrübələr və yay tətili müddətində ödənişli təcrübələr təşkil olunur.

| Göstəricilər | Ballar | | | |
|---|---|---|---|---|
| | Mühazirə, mühazirə və məşğələ | Mühazirə, məşğələ və laboratoriya | Mühazirə, məşğələ, laboratoriya və k.l. (k.i.) | Mühazirə, məşğələ və k.l. (k.i.) |
| Semestr ərzində aktivliyə görə (semestrin sonunda, 1 dəfə) | 10 | 10 | 5 | 10 |
| Təqdimat | 20 | 10 | 10 | 10 |
| Laboratoriya | - | 10 | 10 | - |
| Kurs layihəsi (kurs işi) | - | - | 10 (min. 5) | 10 (min. 5) |
| Aralıq imtahan | 20 | 20 | 15 | 20 |

**Elm sahəsində:**

- Fakültələrin nəzdində fəaliyyət göstərən kafedralar və elmi-tədqiqat laboratoriyalarının yerinə yetirdiyi elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi və onların əlaqələndirilməsi fakültə elmi-texniki şuralarında müzakirə edilməklə həyata keçirilir. Elmi-tədqiqat işlərinin nəticələri dərc olunan dərslik, dərs vəsaiti və digər elmi-metodik ədəbiyyatda əksini tapır.

- Aparılan məqsədyönlü işlər nəticəsində universitet 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elm Fondu, beynəlxalq və regional qrant layihələrinin iştirakçısıdır. Bunlara misal olaraq, “İki qat rezin matrisalı kipləndiricili yeni model siyirtmələrin işlənməsi”, “Yeni azometin əsaslı virus əleyhinə agentlərin dizaynı, Gaussian/Maestro proqramları ilə molekulyar səviyyədə tədqiqi və in vitro öyrənilməsi” (Elm Fondu), “İnsan-Kompüter İnterfeysləri” sahəsində “Təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi” (ARETN), "rEsilient and seLf-healed EleCTRical pOwer Nanogrid", CAMPAİNG” (Avropa İttifaqının Horizon 2020 Proqramı) və s. layihələrini göstərmək olar.

- Univerisitetdə elmi-tədqiqat prosesinin keyiyyətinə nəzarət kafedra və elmi-tədqiqat laboratoriyalarında işlərin gedişinin nəticəsinin il boyu elmi seminarlarlarda müzakirə olunması qaydasında həyata keçirilir.

- Universitetdə fəaliyyət göstərən kafedraların və elmi-tədqiqat laboratoriyalarının elmi araşdırmalar sahəsində birgə fəaliyyəti kafedra əməkdaşlarının elmi-tədqiqat laboratoriyalarında yerinə yetirilən işlərin icrasına cəlb olunması ilə həyata keçirilir.

- Univerisitetin Elmi Şurasının 23.12.2015-ci il tarixli qərarı ilə (protokol №5) ADNSU-da elmi işçilər və professor-müəllim heyəti üzrə elmi adlara və elmi vəzifələrə iddiaçıların qiymətləndirilməsi üçün bal sistemini özündə ehtiva edən “ADNSU-da elmi işçilərin

dərəcəsinin artırılması və təyinatı üzrə təlimat” təsdiq edilmişdir.

- Univerisitetdə professor-müəllim heyəti üçün elmi məqalələrin impakt faktorlu beynəlxalq jurnallarda nəşrinə əlverişli şəraitin təmin edilməsi məqsədilə stimullaşdırma sistemi tətbiq edilmiş və nüfuzlu beynəlxalq elmi jurnalların təsis edilməsi məqsədilə hər bir fakültənin elmi jurnalı, bundan əlavə HPC Mərkəzinin Azerbaijan Journal of High Performance Computing jurnalı, “Ümumi və tətbiqi riyaziyyat” kafedrasının isə Baku Mathematical Journalı təsis edilərək nəşr olunurlar.

- Startap komandalarına universitet daxilində hər bir şərait yaradılmış, onlara Startap məktəbi, İnkubasiya Mərkəzi və Akselerasiya Mərkəzində fəaliyyət göstərmələrinə lazımi imkanlar təşkil edilmişdir. Sabah.Lab tərəfindən 2 layihə icra olunur.

26 – 29 may 2022-ci il tarixlərində Bakıda keçirilən “Teknofest 2022” – Aerokosmik və Texnologiya Festivalında ADNSU-nun 30 layihəsi finalda təqdim edildi. Universitetinin 3 komandası 1-ci yer və 3 komandası 2 yeri qazandı.

Universitetin bir startapı TakeOff Baku yarışında iştirak edən 276 startapdan 10 ən yaxşı startapa daxil olmuşdur.

Smart Karabakh Hackathonunda 1-ci yerə layiq görülmüş komandanın bir üzvü ADNSU-nun doktorantıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi” tərəfindən həyata keçirilən “Gələcək üçün bacarıqlar” layihəsi çərçivəsində “Mentorluq üzrə ixtisaslaşma proqramı”na ADNSU-nun 10 müəllimi mentor olaraq cəlb edilmişdir. Layihənin ikinci komponenti olan “Tusi” inkubasiya mərhələsində universitetin 50 tələbəsi iştirak etmişdir.

Take Off Baku startap yarışında seçilən ADNSU startapı 15 – 19 avqust 2022-ci il tarixlərində İstanbul şəhərində keçirilən İstanbul Bootkampında iştirak etmiş, HealWith layihəsinin nümayəndəsi 5 gün ərzində Türkyənin startap ekosistemi ilə yaxından tanış olmuş, startapı inkişaf etdirmək istiqamətində 6 təlimdə iştirak etmişdir. Bundan əlavə olaraq İstanbul şəhərində fəaliyyət göstərən İnkubasiya və Akselerasiya mərkəzlərinə səfər edilərək onların qaydaları ilə tanışlıq aparılmışdır.

2022-ci ildə mərkəzin startapları bir çox beynəlxalq yarışların qalibi olmuşdur. ADNSU-nun startapları Kiyevdə Ukrayna Milli Texniki Universitetinin təşkil etdiyi ənənəvi “Sikorski Çellenc 2022” (Sikorsky Challenge) startap festivalında təqdim olunmuşdur. “Sikorski Çellenc 2022” festivalına təqdim olunmuş 4 layihədən üçünün fərqli bölmələr üzrə təqdimatları keçirilmişdir. Mərkəzin bir startapı ən maraqlı biznes plan nominasiyası üzrə mükafatlandırılmışdır.

Universitetin “Eazi START” startap və innovasiya mərkəzinin 3 layihəsi Kazan Dövlət Energetika Universiteti ilə birlikdə Rusiyada startaplara dəstək qrantına təqdim edilmiş və 1 startapı qalib olaraq qrant almışdır.

ADNSU-nun tələbələri 25.09.2022-ci il tarixində Dünya Robot Olimpiadasında birinci yerə layiq görülüb və Almaniyanın Dortmund şəhərində Azərbaycanı təmsil edərək olimpiadada 3-cü yerə layiq görülmüşdür.

5 – 7 dekabr 2022-ci il tarixlərində universitetin “Secure Energy” Hackatonu keçirilmiş və həmin Hackatonda seçilmiş 8 komanda 40 saat ərzində yarışda uğurla iştirak etmişdir. Qeyd edək ki, sözügedən Hackathon Azərbaycan və Avropada enerji provayderlərinin kibertəhlükəsizliyi, smart texnologiyaların tətbiqi ilə enerji şəbəkələrinin idarə olunmasının təkmilləşdirilməsi istiqamətində problemlərin həllinə yönəlmişdi. İştirakçı komandalara həllərin hazırlanmasında Avropa və Azərbaycandan olan mentorlar dəstək göstərirdilər.

Universitetin 30-dan çox tələbəsi hal-hazırda Sabah.Lab-da sahibkarlıq istiqamətində treninq keçirlər və burada 2 layihə ilə iştirak edirlər.

5 – 9 dekabr 2022-ci il tarixlərində AR Elm və Təhsil Nazirliyinin keçirdiyi SAF 2022 STEM hackatonunun finalında ADNSU-nun 4 komandası iştirak etmişdir.

**Təhsil sahəsində:**

- ADNSU-da *lms.adnsu.az* elektron universitet fəaliyyət göstərir.

- Universitetdə ən müasir təhsil texnologiyalarına əsaslanan təhsil modeli tətbiq edilir.

- Əcnəbilərin universitetdə təhsil almaları geniş təşviq edilir.

- Tədris planları, proqramları hər tədris ilindən öncə işəgötürənlərin təklifləri əsasında daim yenilənir.

- Təhsilalanları semestr ərzində daim aktiv olmağa motivə edən təkmilləşdirilmiş qiymətləndirilmə sistemi tətbiq edilir.

- Hər tədris ili üçün kafedraların fəaliyyətinin bütün sahələrini əhatə edən yol xəritələri hazırlanır və tədris ilinin sonunda icra vəziyyəti rektorluğun iştirakı ilə ciddi müzakirə olunur.

- Kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə humanitar və peşə hazırlığı fənlərinin proqramları təkmilləşdirilərək ARETN-nin qrifi ilə, seçmə fənlərin proqramları isə universitetin Elmi Şurasının qrifi ilə nəşr edilmişdir.

- Müasir tələblərə cavab verən dərsliklər, dərs vəsaitləri və tədris materialları universitetin öz mətbəəsində nəfis şəkildə nəşr olunur.

- Tyutorlar fakültə dekanlarının rəhbərliyi altında işləyir və tədris prosesinin idarə olunmasında fəal rol oynayırlar.

- Tədris aparılan hər bir fənn üzrə aktiv və passiv sillabuslar, fənnin məzmunu,

mühazirələrin konspekti, müəllimin təqdimatı və fənni ən azı 70% əhatə edən dərslik və ya dərs vəsaiti tədris dilində *lms.adnsu.az* elektron sistemə yüklənir.

- Təhsilalanlar tərəfindən fənn seçimi aparılsa da müəllim seçimi aparılmır.

- Tədrisi ingilis dilində təşkil edilən ixtisasların sayı ildən-ilə artır. Tələbə-müəllim mobilliyini dünyada baş verən koronovirus pandemiyası səbəbindən geniş təmin etmək mümkün olmamışdır.

**Tərbiyə işləri sahəsində:**

Tərbiyə işləri sahəsində qeyd olunmuş tövsiyələr universitetin hər bir əməkdaşının gündəlik fəaliyyətinin tərkib hissəsini təşkil edir.

**Sosial məişət sahəsində:**

- Kafedraların tədris-köməkçi heyəti laborantlar və laboratoriya müdiriindən ibarət olmaqla formalaşdırılmışdır. Professor-müəllim heyəti isə müəllim – dosent – professor, aparıcı müəllim – tədqiqatçı dosent – tədqiqatçı professor kimi formalaşdırılmış, hər bir vəzifəyə qoyulan tələblər, maaş səviyyəsi, daha yüksək vəzifəyə keçid şərtləri Elmi Şurada təsdiq edilmişdir.

- Yataqxanada yaşayan təhsilalanların şəraitinin yaxşılaşdırılması istiqamətində universitet daxili imkanları hesabına müəyyən işlər görsə də, əsaslı təmir işlərinin aparılması üçün böyük maliyyə imkanlarına ehtiyac vardır.

- 2022-ci ildə tədris-köməkçi heyətin, elmi işçilərin və “Xarici dillər” kafedrasının müəllimlərinin attestasiyası keçirilmiş, tutduğu vəzifəyə uyğun gəlməyənlər attestasiya olunmayaraq, işdən azad olunmuşlar. Universitetdə turniket sisteminin tətbiq edilməsi əmək intizamını möhkəmləndirmişdir.

- ADNSU-da bütün ixtisaslar üzrə hazırlanan kadrların yüksək keyfiyyətinin təmin edilməsi onlara yalnız nəzəri və təcrübi biliklərin verilməsi ilə məhdudlaşmır. Təhsilalanlara əmək bazarında iş tapmalarına kömək məqsədi ilə onlara bir sıra səriştələr aşılanır və ən azı 3 – 4 beynəlxalq səviyyəli sertifikatla məzun olmaları üçün universitet tərəfindən müvafiq şərait yaradılır. Bunlara misal olaraq, “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənninin yekun imtahanının British Counsil-in İELTS və ya Aptis sertifikatlarına uyğunlaşdırılmasını, “İnformatika” fənninin yekun imtahanı nəticəsində Microsoft-un sertifikatının alınmasını, Texniki və texnoloji ixtisaslar üzrə təhsil alanlara SƏTƏMM üzrə TCS Mərkəzinin I səviyyəli - “Peşə sağlamlığı və əməyin təhlükəsizliyi üzrə bacarıq” sertifikatının və II səviyyəli – “İOSH təhlükəsiz idarəetmə” sertifikatının verilməsini, Layihə menecmenti üzrə AzPMA şirkətinin müxtəlif səviyyəli sertifikatlarının, İT üzrə İsrail-Azərbaycan və Alqoritmika sertifikatlarının verilməsini, eləcə də bəzi ixtisaslar üzrə

Azərbaycanda fəaliyyət göstərən xarci şirkətlər tərəfindən sertifikatların verilməsi məsələlərinin razılaşdırılmasını göstərmək olar.

- İnteraktiv təlim metodları tam istifadə edilir və bunun sayəsində pandemiya dövründə dərslərin onlayn qaydada dərs cədvəllərinə ciddi əməl etməklə təşkil edilməsində heç bir çətinlik hiss olunmadı.

- Təhsilalanları fərdi və kiçik qruplar şəkildə müxtəlif müəssisələrdə ilboyu təcrübələr təşkil edilir, yay tətil günlərində isə onlar tam ştatlı işçi kimi yay təcrübələrinə cəlb edilərək əmək haqqı və sertifikat alırlar.

- Təhsil sahəsi xidmət sahəsinə aid olduğu üçün, distant təhsili təşkil etməklə ölkəyə əlavə valyuta ehtiyatları gətirmək mümkündür, lakin təəssüf ki, bu məsələ ilə bağlı ARETN-nə etdiyimiz bir neçə müraciət cavabsız qalmış və ölkəmizdə distant təhsilin əsasnaməsi belə təsdiq edilməmişdir.

## II. Təhsil müəssisəsinin özünütəhlili

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

ADNSU-nun Özünütəhlil Hesabatı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-176 nömrəli, 28.10.2022 tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya uyğun olaraq hazırlanmışdır. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. ADNSU-nun Özünütəhlil Hesabatı rektorun 01-I/28 nömrəli, 23.11.2022-ci il tarixli əmri ilə yaradılan Təşkilat Komissiyası tərəfindən hazırlanmışdır. Təşkilat Komissiyasının müvafiq istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. STRATEJİ İNKİŞAF

#### 1.1. Universitetin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

ADNSU-nun əsas missiyası əmək bazarında rəqabət qabiliyyətli, səriştəli, öz peşəsini dərindən bilən, bazar iqtisadiyyatı şəraitində ixtisası üzrə dünya standartları səviyyəsində səmərəli fəaliyyət göstərməyə, peşə hazırlığı səviyyəsini daim artırmağa qadir olan yüksək ixtisaslı mütəxəssislər hazırlamaq, 4.0 Sənaye İnqilabının tələblərinə uyğunlaşdırılmış elmi istiqamətlərin milli iqtisadiyyatın inkişafına yönəldilməsi, dünya elm məkanına inteqrasiyanı təmin etməklə beynəlxalq elm, təhsil və istehsalat mərkəzləri ilə əlaqələrin qurulması və müştərək elmi-tədqiqatların aparılmasıdır.

“Tədqiqat uiversiteti” statusuna yüksəlməyi qarşısına məqsəd qoyan, ADNSU ən müasir təlim texnologiyalarını tətbiq edən, təhsilin müxtəlif səviyyələrində təhsilalanlara keyfiyyətli təhsil vermək və 4.0 Sənaye İnqilabı çağırışlarına uyğun elmi-tədqiqat işləri aparmaq üçün kifayət dərəcədə elmi-pedaqoji kadr potensiala və maddi-texniki bazaya malikdir.

Universitetin Elmi Şurasının 25.11.2018-ci il tarixli iclasının 4 nömrəli protokolu ilə 2016 – 2020-ci illər üçün inkişaf strategiyası və Elmi Şuranın 31.03.2021-ci il tarixli iclasının 7 nömrəli protokolu ilə 2021 – 2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası təsdiq edilmişdir. ADNSU-nun 2021 – 2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyası “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 24.10.2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”na,

“Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf Konsepsiyasına, 2019 – 2023-cü illər üçün Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə dövlət proqramına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Elm və Təhsil Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır. Həm 2016 – 2020-ci illər, həm də 2021 – 2030-cu illər üçün tərtib edilmiş inkişaf strategiyalarında işəgötürən təşkilatların nümayəndələri ilə keçirilmiş çoxsaylı görüşlərdə aparılmış müzakirələrin nəticələri, o cümlədən də əmək bazarının tələbləri öz əksini tapmışdır.

2021 – 2030-cu illər üzrə inkişaf strategiyasında ADNSU-nun inkişafı prioritetlərinə idarəetmə sisteminin təkmilləşdirilməsi, elmi-pedaqoji kadr heyətinin müasirləşdirilməsi, tədrisin müasir dövrün tələblərinə uyğunlaşdırılması və beynəlmiləlləşdirilməsi, təhsilin stimullaşdırılması, məzunların karyera imkanları, elmi fəaliyyət, beynəlxalq əlaqələr, maliyyə imkanlarının genişləndirilməsi və diversifikasiyası, maddi-texniki bazanın müasirləşdirilməsi və tərbiyə işləri kimi fəaliyyət istiqamətləri öz əksini tapmışdır.

2021 – 2030-cu illər üçün ADNSU-nun inkişaf strategiyası üzrə fəaliyyət planında hər bir fəaliyyət istiqaməti üzrə nəticə indikatorları, məsul icraçılar və icra müddətləri göstərilmişdir.

Universitetin hədəfləri sırasında nəzdində innovativ istehsalat sahələrinin yaradılması və “Times High Education” üzrə 7–10%-lik yerə yüksəlmə xüsusi yer tutur. Uzunmüddətli inkişaf strategiyasında rektorun təqdimatı əsasında ARETN tərəfindən formalaşdırılacaq və tərkibinə biznes sferasının nümayəndələrinin də daxil olacağı Himayədarlar Şurası tərəfindən universitetin inkişafı ilə bağlı strateji qərarların verilməsi və rektorluq institutu üzərində nəzarətin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Strateji hədəflərə çatmaq üçün ADNSU qlobal səriştələrin mənimsənilməsi məqsədilə bütün təhsil səviyyələrində təhsil standartlarına uyğun keyfiyyətli tədrisi təmin etmək, yüksək texnologiyalı sənayeni dəstəkləyən tədqiqatların nəticələrinin tədrisə töhfəsini təşviq etmək, davamlı olaraq innovasiyaları və sahibkarlığı dəstəkləyərək, iqtisadiyyata və cəmiyyətə töhfə vermək, 4.0 Sənaye İnqilabının çağırışlarına cavab verən Dayanıqlı və İnklüziv Universitet qurmaq kimi əsas missiyaları qarşıya qoymuş və strateji istiqamətlər müəyyən etmişdir.

ADNSU-nun 2021-2030-cu illər üzrə inkişaf strategiyası əsasında hazırlanmış 2023-cü il üçün prioritet istiqamətlər üzrə fəaliyyət planında qarşıya qoyulmuş məqsədlər və həmin məqsədlər istiqamətində görüləcək tədbirlər əks olunmuşdur. Fəaliyyət planında hər bir

görüləcək tədbirə münasibətdə nəticə indikatoru müəyyən edilmişdir ki, qeyd olunan indikatorlar fəaliyyətin nəticəsini qiymətləndirməyə imkan verir. Fəaliyyət Planındakı tədbirlərin icrası üçün tələb olunan maliyyə resursları nəzərdə tutulmuş, onların icrası üçün tələb olunan insan resurslarını isə aidiyyəti struktur bölmələr və rəhbər şəxslər təşkil edir.

ADNSU-nun strateji inkişaf planı hazırlanarkən maraqlı tərəflərin iştirakı təmin edilmişdir. Əvvəlcə mövcud bazar və ADNSU-nun bazardakı rəqibləri təhlil edilmiş, daha sonra mövcud əmək bazarında işəgötürənlərin tələbləri öyrənilmiş və bu tələblərə cavab verən mütəxəssis hazırlığının təmin edilməsi üçün əsas strateji məqsədlər müəyyən edilmişdir. Universitetin inkişaf strategiyasına nail olmaq üçün bir çox müəssisələrlə əməkdaşlıq əlaqələri genişləndirmiş, tələbələrin istehsalat və gündəlik təcrübələrinin, ixtisas fənlərinin tədrisinin həmin müəssisələrdə təşkil edilməsi istiqamətində mühüm işlər görmüşdür. Əsas strateji istiqamətlər müəyyən edilərkən abituriyentlərin seçimi və təhsilalanların gözləntiləri analiz edilmişdir.

2021 – 2030-cu illər üçün İnkişaf Strategiyasına uyğun hazırlanmış fəaliyyət planı isə Elmi Şuranın 31.03.2021-ci il tarixli iclasında (Protokol №7) təsdiq edilmişdir.

### 1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi

2016 – 2020-ci illər üzrə inkişaf strategiyasının icra edilməsi üçün görüləcək tədbirlər və məsul icraçılar Elmi Şuranın 25.11.2015-ci il tarixli iclasında (Protokol №4) təsdiq edilmiş fəaliyyət planında əks olunmuşdur. Bu dövr üçün inkişaf strategiyası əsasən icra olunsa da, 2020-ci ildə dünyada COVİD-19 pandemiyasının başlanması ilə əlaqədar bütün ali təhsil müəssisələrində olduğu kimi ADNSU-nun da fəaliyyəti müəyyən müddət dayandığından, tədbirlərin icrasını tam aparmaq mümkün olmamışdır. Bu səbəbdən, post-pandemiya dövrü üçün mühəndislik hazırlığında yeni meyllər və çağırışlar nəzərə alınmaqla əvvəlki inkişaf strategiyasında icra olunmamış məsələlər 2021 – 2030-cu illər üçün tərtib edilmiş inkişaf strategiyasında nəzərə alınmışdır. Bu strategiya əsasında 2022-ci il üçün hazırlanmış Fəaliyyət Planının icrası universitetin Elmi Şurasının 28.12.2022-ci il tarixli iclasında təsdiq olunmuş və ARETN-nə təqdim olunmuşdur. Eyni zamanda həmin Elmi Şurada 2023-cü il üçün Fəaliyyət Planı müzakirə edilərək, təsdiq olunmuşdur. Fəaliyyət Planı ümumən universitetin bütün struktur bölmələrinə aid tədbirləri ehtiva edir və korporativ elektron poçt vasitəsilə həmin bölmələrə təqdim olunmuşdur. Fakültələrin də 2023-cü il üçün illik fəaliyyət planları hazırlanmışdır.

2022-ci il üçün Fəaliyyət Planındakı tədbirlərin icrası aidiyyəti üzrə müvafiq prorektorlar tərəfindən, fakültələrin fəaliyyət planları isə fakültə dekanları tərəfindən monitorinq olunmuş

və elmi şuralarda müzakirə olunmuşdur.

2022-ci il üzrə Fəaliyyət Planının illik icrasının monitorinqi və fakültə elmi şuralarının monitorinqi barədə qərarlar ADNSU-nun Elmi Şurasının 28.12.2022-ci il tarixli iclasında müzakirə edilmiş, Elmi Şura tərəfindən qəbul edilmiş qərar bütün struktur bölmələrə korporativ e-mail vasitəsilə çatdırılmışdır.

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. Keyfiyyət təminatı siyasəti

ADNSU-nun Keyfiyyət təminatı siyasətinin məqsədi Azərbaycan Respublikasının təhsil üzrə siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla, tədrisin yüksək səviyyədə təşkili ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, yüksək ixtisaslı kadr və mütəxəssislərin hazırlanmasından ibarətdir.

Keyfiyyət təminatı siyasəti universitetin strateji inkişafının hədəflərinə uyğun olmaqla, universitetdə keyfiyyətin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Keyfiyyət təminatı siyasəti universitetdə həyata keçirilən fəaliyyətlərin Boloniya təhsil prosesinin müddəalarına, “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikasının Qanunlarına, “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə, “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar”a, dövlətin bu sahədəki müvafiq qanunvericilik sənədlərinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına əsaslanır və Elmi Şuranın 28.12.2022-ci il tarixli iclasının qərarı ilə (protokol №6) təsdiq olunmuşdur.

Keyfiyyət təminatı siyasəti hazırlanarkən əvvəlki illərdə əməkdaş və tələbələr arasında aparılmış sorğuların nəticələri, universitet rektorunun təhsilanlarla açıq mikrofon günlərində keçirilmiş görüşlərinin nəticələri nəzərə alınmışdır. Yekun sənəd Elmi Şurada müzakirə edilərək, qəbul olunmuşdur.

Keyfiyyət təminatı siyasəti sənədi universitetin bütün struktur bölmələri və rəhbər şəxsləri üçün əsas meyardır. Hər bir struktur bölmə qəbul olunmuş keyfiyyət təminatı siyasətinə uyğun olaraq, sənəddə göstərilən keyfiyyət təminatı müddəalarının davamlı və dayanıqlı olması üçün görüləcək işləri müəyyənləşdirməlidir. Keyfiyyət təminatı siyasəti hazırlanarkən onun anlaşılan olmasına da diqqət verilmişdir.

ADNSU-da maraqlı tərəflərin tətbiq edilən keyfiyyət mexanizmindən məlumatlı olması keyfiyyət təminatı sisteminin əsas məqsədlərindən biridir. Universitet rəhbərliyi və keyfiyyət təminatına məsul şəxslər bütün maraqlı tərəflərin (universitetin inzibati, akademik heyəti, təhsilalanlar, valideynlər və işəgötürənlər və s.) universitetin inkişaf strategiyasından,

Keyfiyyət siyasətindən, Daxili Keyfiyyət mexanizmindən xəbərdar olmasında maraqlıdırlar.

ADNSU-da Elm-Təhsil Analitik Mərkəzin nəzdində mərkəzləşdirilmiş "Daxili keyfiyyət təminatı" sektorunun yeni qurulması səbəbindən hər hansı böyük bir tədbir baş tutmamışdır, lakin ilkin mərhələdə yuxarıda göstərilən sənədlərlə bütün struktur bölmələr tanış edilmiş, həmin sənədlər əlçətanlıq üçün universitetin saytına yerləşdirilmiş və hal-hazırda "Daxili keyfiyyət təminatı" sektorunun fəaliyyət planında keyfiyyət mədəniyyətinin izlənilməsi və inkişafı istiqamətində maraqlı tərflərin məlumatlandırılması və prosesdə iştirakı üçün tədbirlər planlaşdırılmışdır.

Keyfiyyət təminatı siyasəti hazırlanarkən onun ölkəmizin təhsil strategiyası və cəmiyyətin inkişaf perspektivlərinə, təhsilanların rəy və gözləntilərinə, həmçinin universitetin Elmi Şurasının 27.10.2021-ci il tarixli iclasında (protokol № 2) qəbul edilmiş "Daxili keyfiyyət təminatı barədə bəyannamə"yə uyğun olması nəzərə alınmışdır. Buna görə də sənədin məzmunun əhatəllik səviyyəsinə xüsusi diqqət yetirilmiş və siyasət sənədində aşağıdakı bölmələr öz əksini tapmışdır:

- Kommunikasiya və idarəetmədə keyfiyyət – Bütün struktur bölmələr öz fəaliyyətlərini universitetin strateji inkişaf planına, missiyasına və məqsədinə nail olmaq üçün tələb olunan fəaliyyətlərə uyğun olaraq planlaşdırır və həyata keçirir, universitetin SİP-də qeyd etdiyi missiyasına və istiqamətlərə uyğun olaraq, həyata keçirilən tədbirlərin səmərəliliyi hesabatlar və monitorinq məlumatları əsasında qiymətləndirilir və zərurət olduğu zaman ona uyğun müvafiq qərarlar verildiyi göstərilir.

- Keyfiyyətli təhsil təminatı – Bu hissədə keyfiyyətli təhsilin təmininin universitetin strateji inkişaf planının tərkib hissəsi olduğu və universitetin keyfiyyət təminatı siyasətinin əsas məqsədinin peşəkar fəaliyyət sahələrinin müasirliyi və inkişafını qabaqcıl nailiyyətlər səviyyəsində təmin edə bilən, ölkədə və xaricdə rəqabətədavamlı məzunların hazırlanması olduğu qeyd edilir.

- Resursların idarə edilməsi – Universitetin öz missiyasına uyğun olaraq, yerinə yetirməli olduğu xidmətlərin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də bu təhsil xidmətlərinin göstərilməsi zamanı istifadə olunan resursların (auditoriyalar, avadanlıqlar və materiallar) keyfiyyətidir. Bu amil unversitet əməkdaşlarının və təhsilalanların hərtərəfli təhlükəsizliyi ilə sıx bağlıdır. Bunu təmin etmək üçün universitet lazımi planları hazırlayır və həyata keçirir. Bu planlara Fövqəladə Hallar Planı, Yanğın təhlükəsizliyi və evakuasiya planı, Təmir və monitorinq planı və s. aiddir.

- Təhsil və tədqiqatlara dəstək olan bilik resurslarının idarə edilməsi – Təhsilalanların lazım olan bilik və bacarıqları əldə etmələri üçün universitet tərəfindən zəruri olan resursların

adekvatlığını və tədris proqramlarına uyğunluğunu təmin etməsini əks etdirir. Zəruri hallarda təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi zamanı keyfiyyətin yaxşılaşdırılması və inkişafının əsas prinsiplərinin, daxili və xarici maraqlı tərəflərin gözləntiləri və rəylərinin nəzərə alındığı göstərilir.

- Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması – Keyfiyyəti idarə etmə sisteminin idarəetmə yanaşması olduğu və universitetin keyfiyyəti təkmilləşdirmə fəaliyyətinin bütün struktur bölmələrdə və bütün əməkdaşlar tərəfindən həyata keçirilməli olan bir fəaliyyət kimi qəbul edildiyi göstərilir, müvafiq struktur bölmələrin rəhbərliyi altında universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün səylərin göstərilməsi vurğulanır.
- İzləniləcək keyfiyyət indikatorları – Strateji inkişaf planına uyğun olaraq, əsas istiqamətlər üzrə universitetin fəaliyyəti davamlı olaraq izlənilir və monitorinqlər aparılır.
- İctimaiyyətin məlumatlandırlması – Universitetin saytında əsas fəaliyyət sahələri üzrə qərəzsiz və obyektiv məlumatlar dərc edilir və ictimaiyyətin bu məlumatlara əlçatanlığı təmin edilir.
- Sahələr üzrə fəaliyyətləri tənzimləyən siyasətlər – Müxtəlif sahələr üzrə (təhsil, tədqiqat, inkişaf, sosial töhfə, beynəlmiləlləşmə, idarəetmə, informasiya, insan resursları, maliyyə) siyasətlərin hazırlanması əks olunmuşdur.

### 2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici təhsilalanın təlim nəticələridir, bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran əsas vasitə hesab olunur.

Bu kontekstdə 2021/2022-ci tədris ilində universitetin "Daxili Keyfiyyət Komissiyası" yaradılmış və bu komissiyaya müxtəlif kafedralardan əməkdaşlar cəlb olunmuş, həmçinin komissiyanın göstərdiyi fəaliyyətlərə uyğun olaraq, komissiyanın əsasnaməsi, hesabatları hazırlanmış və işçi qrup uğurla öz işini tamamlamışdır. İşçi qrupun fəaliyyətinə tədris olunan fənlərin, buraxılış işləri və magistr dissertasiyalarının məzmununun müasirlik, aktuallıq və istehsalatla uzlaşmasının yoxlanılması, tədrisin aparılması prosesinə nəzarət, imtahan suallarının məzmununun ümumitəhsil standartlarına uyğun olub-olmamasının yoxlanılması daxildir. Həmçinin universitetdə hər il imtahan sessiyalarında tələbələrin biliyinin yenidən qiymətləndirilməsi və imtahan zamanı baş verə biləcək mübahisələrin aradan qaldırılması üçün rektorun əmri ilə apelyasiya komissiyası, imtahan sessiyasının təşkilinə, gedişatına nəzarətin, yarana biləcək münaqişə və şikayətlərin yerində operativ həll edilməsinin, imtahanların qəbulunda obyektivliyin, şəffaflığın, gənclər təşkilatının iştirakının və ictimai

nəzarətin təmini məqsədilə Qərargah, bundan əlavə tədris-tərbiyə prosesinin keyfiyyətini və onun elmi metodiki təminatını yüksəltmək məqsədi ilə Tədris-Metodiki Komissiya, tədris prosesində dərslərin keçirilməsinin keyfiyyətini yoxlamaq məqsədi ilə fakültələr üzrə açıq dərslərə nəzarət komissiyaları (Əvvəlcədən müəyyən olunmuş açıq dərs qrafiklərinə uyğun nəzarət, dərsin təhlili, qiymətləndirilməsi, maraqlı tərəflərin rəy və iradlarının əks olunduğu sənədlər), tədris prosesinin keyfiyyətinin artırılması və tədris yüklərinin normativə uyğun optimallaşdırılması məqsədi ilə komissiya daxili keyfiyyət təminatı mexanizmlərinin fəaliyyətini əks etdirir.

ADNSU-nun daxili keyfiyyət təminatı istiqamətində görülən tədbirlər planı və mexanizminin daha effektiv olması məqsədilə akademik və inzibati heyət, təhsilalanlar, işəgötürənlər və digər maraqlı tərəflərin təklif və perspektivləri nəzərə alınaraq formalaşdırılır. Keyfiyyət təminatı məqsədilə 27.10.2021-ci il tarixində Elm və Təhsil Analitik Mərkəzinin tərkibində Daxili Keyfiyyət Təminatı sektoru yaradılmışdır. Həmin sektor universitet rəhbərliyinin, digər struktur bölmələrin və Keyfiyyət Komissiyasının birlikdə əməkdaşlığı ilə ATM-də keyfiyyətin universitetin vizyon və hədəfləri istiqamətində təmin edilməsi üçün tədbirlər həyata keçirir. Daxili keyfiyyət təminatı siyasətində qeyd olunan istiqamətlər üzrə hər bölməyə uyğun universitet rəhbərliyi nümayəndəsinin koordinasiyası ilə işçi qruplar yaradılmışdır. İlkin mərhələdə daxili keyfiyyət təminatı siyasəti üzrə Elm-Tədris Analitik Mərkəzin digər əməkdaşları ilə birlikdə sektorun görəcəyi işlərin universitetin digər əməkdaşları tərəfindən mənimsənilməsi məqsədi ilə təlim və məlumatlandırıcı seminarlar təşkil olunmuşdur. Akademik və inzibati heyəti əhatə edən seminarların davamlılığı qatılanların və maraqlı tərəflərin müsbət rəylərinə və peşəkar inkişafa dəstəyinə uyğunlaşdırılmışdır. Təlimlər sonrası alınan nəticələr komissiya iclaslarında məruzə edilərək yaxşılaşdırılma tədbirləri təklif edilmişdir.

Tədris prosesinin və təhsil proqramlarının keyfiyyət təminatı üzrə tədris işləri üzrə prorektorun rəhbərliyi ilə fakültə dekanları və kaferda müdirlərinin cəlbi ilə işçi qrup yaradılmışdır. Fəaliyyət istiqamətində tədris keyfiyyətinin artırılması məqsədi ilə  tədbirlər planı hazırlanmışdır. Eyni zamanda tədris olunan fənlərin, buraxılış işləri və magistr dissertasiyalarının məzmununun müasirlik, aktuallıq və istehsalatla uzlaşmasının yoxlanılması, tədrisin aparılması prosesinə nəzarət, imtahan suallarının məzmununun ümumitəhsil standartlarına uyğun olub-olmamasının yoxlanılması, tədris yüklərinin normativə uyğunlaşdırılması kimi məsələlər fəaliyyət istiqamətinə daxil edilmişdir. Bundan əlavə tədris-tərbiyə prosesinin keyfiyyətini və onun elmi metodiki təminatını yüksəltmək məqsədi ilə Akademik Keyfiyyət Komissiyaları, tədris prosesində dərslərin keçirilməsinin

keyfiyyətini yoxlamaq məqsədi ilə fakültələr üzrə İxtisas Keyfiyyət Komissiyalarının yaradılması daxili keyfiyyət təminatı mexanizmlərinin fəaliyyətini əks etdirir. Komissiyalara bütün maraqlı tərəflərin cəlb olunması əsasən təmin olmuşdur.

Təlim resursları və tələbələrə dəstək mexanizmlərinin təşkili üzrə Təlim resurslarının əlçatanlığı və bazanın zənginliyinin artırılması üçün tədbirlərin görülməsi üçün Universitetin “AzİÎ e-Kitab Evi”nin rəhbərliyi ilə işçi qrup yaradılmışdır. Elektron bazadakı məlumatların yetərliyi, tələbələrin bu məlumatlardan tam istifadəsi üçün lazımi təklif və rəylər işçi qrup tərəfindən müəyyənləşdirilərək, Daxili Keyfiyyət Komissiyası iclaslarında məruzə edilmiş və müvafiq departamentlə iş planının həyata keçirilməsi istiqamətində mexanizm qurulmuşdur.

Daxili keyfiyyət təminatı sistemi üzrə yaradılmış komissiyaların fəaliyyət istiqamətləri strateji inkişaf planının hədəflərinə uyğunluq əsasında təmin edilir. Daxili keyfiyyət təminatı sisteminin cari tədris ilində təsdiq edilən fəaliyyət planında hər bir proses üzrə tədbirlərin, struktur bölmələrin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi öz əksini tapmışdır. Eyni zamanda həmin fəaliyyət planında təhsil proqramları, inzibati və akademik heyət, fakültələr, təhsilalanlarla bağlı keyfiyyət təminatı istiqamətində icra olunacaq müxtəlif fəaliyyətlər qeyd olunur.

Daxili Keyfiyyət Təminatı Siyasəti sənədinin müddəaları əsasında daxili keyfiyyət təminatı sisteminin hər kəsə əlçatan və aydın olması məqsədilə keyfiyyət təminatı istiqamətində zəruri sənədlər universitetin veb səhifəsində yerləşdirilmişdir. (http://asoiu.edu.az/new/upload/QS/ADNSU-nun%20Daxili%20%20Keyfiyy%C9%99t%20Komissiyas%C4%B1n%C4%B1n%20%C6%8Fsasnam%C9%99si.pdf ; http://asoiu.edu.az/new/upload/QS/Daxili%20keyfiyy%C9%99t%20t%C9%99minat%C4%B1%20bar%C9%99d%C9%99%20b%C9%99yannam%C9%99.pdf

Bu istiqamətdə universitetin İctimaiyyətlə Əlaqələr və Marketinq Departamenti rəhbərliyində işçi qrup yaradılmış və operativ məlumatlandırma mexanizmi tərtib edilmişdir. Bütün tədbir, konfrans və digər tədbirlər barədə məlumatların mediada işıqlandırılması üzrə vebsayt və digər əlaqəli sosial media hesablarının aktiv istifadəsi, akademik və inzibati heyətin müvəffəqiyyətlərinin cəmiyyətlə paylaşılması, eyni zamanda təhsilalanların yaradılan yeni imkanlar və digər fürsətlər haqqında məlumatlandırılması üçün uyğunlaşdırılmışdır.

Universitetdə məlumat (informasiya) sistemləri üzrə keyfiyyətin təmin olunması istiqamətində Rəqəmsal İnkişaf və İnnovasiyalar Mərkəzinin rəhbərliyi ilə unibook və e-uni sistemlərinin istifadəsi genişləndirilmiş, tələbə-müəllim əlaqələrinin, habelə universitet

əməkdaşlarının korporativ mail üzərindən məlumatlandırılmasında təkmilləşdirmələr aparılmışdır. Bununla yanaşı məlumat lövhələri və univeristet daxilindəki monitorların müntəzəm istifadəsi üzrə qərar qəbul edilmiş və bu tədbirlər planının məhsuldar tətbiqi üçün mexanizm yaradılmışdır.

Daxili keyfiyyət təminatı çərçivəsində müvafiq struktur bölmələr tərəfindən Daxili Keyfiyyət Komissiyasının iclaslarında rəhbərliyə müvafiq hesabatlar verilir. Bundan əlavə ADNSU-nun əvvəlki akkreditasiya üzrə Yekun Hesabatında göstərilən tövsiyə və göstərişlərin nəzərə alındığı ayrı-ayrı tədris illərinə müvafiq Fəaliyyət Planları icra edilmiş, yekun olaraq müvafiq tövsiyə və göstərişlərin icrasına dair hesabatlar Elmi Şurada məruzə edilmişdir.

ADNSU-da maraqlı tərəflərin rəylərinin və gözləntilərinin, məmnunluq səviyyəsinin öyrənilməsi keyfiyyət təminatı sisteminin əsas prioritet istiqamətlərindən biridir. Bu kontekstdə universitetin rəhbərliyi daxili və xarici maraqlı tərəflərlə ünsiyyətdə və qarşılıqlı əlaqədədir. Müəssisənin keyfiyyət təminatı sistemi bütün maraqlı tərəflərin rəylərinin, sorğu və təkliflərinin monitorinqini və qiymətləndirilməsini əhatə edir. Universitet bütün fəaliyyətlərində maraqlı tərəflərin məmnuniyyətini əsas kimi qəbul edərək müvafiq keyfiyyət hədəflərini müəyyən edir və həyata keçirir.

### 2.3. Keyfiyyət təminatı mədəniyyəti

Keyfiyyət təminatı mədəniyyətinin ADNSU-da bütün struktur bölmələrə yayılması universitetin keyfiyyət mədəniyyətinin inkişafı və keyfiyyətin yüksəldilməsi istiqamətində fəaliyyəti ilə təmin edilir. Keyfiyyət təminatına məsul şəxslər maraqlıdırlar ki, bütün maraqlı tərəflər (universitetin akademik və inzibati heyəti, təhsilanlarlar, valideynlər, işəgötürənlər və s.) universitetin strateji inkişaf planı, daxili keyfiyyət təminatı strukturunun əsasnaməsi və keyfiyyət siyasətindən xəbərdar olsunlar və keyfiyyətin yaxşılaşdırılması istiqamətində öz tövhələrini versinlər. ADNSU rəhbərliyi bu missiyada maraqlı olaraq, Elmi Şura iclaslarında hesabat müzakirələrinə yer verməkdə və ehtiyac yarandığı halda digər iclasların keçirilməsində əsas rol oynayır. Alınan qərarlarla bağlı məlumatlandırma müvafiq əlaqəli bölmələrə ADNSU-nun korporativ e-maili və məlumatlandırma lövhələri vasitəsilə çatdırılmışdır. Eyni zamanda həmin sənədlərin universitetin rəsmi veb səhifəsində yerləşdirilməsi təmin olunmuşdur. Hazırda ADNSU-da keyfiyyətin təmin olunmasında məsul bölmə olan ETAM-ın rəhbərlik etdiyi 4 sektor və Keyfiyyət Komissiyası ilə birgə universitetin rəhbərliyi, akademik və inzibati heyəti, ümumilikdə, bütün maraqlı tərəfləri əhatə edən daha səmərəli kommunikasiya şəbəkəsinin qurulmasına fokuslanmışdır. http://etam.asoiu.edu.az/

Keyfiyyət təminatı ilə bağlı görülən maarifləndirici tədbirlər nəticəsində universitetdə keyfiyyətin təkmilləşdirilməsi işi bütün struktur bölmələrdə və bütün əməkdaşlar tərəfindən həyata keçirilməli olan bir fəaliyyət kimi qəbul edilir. Müvafiq struktur bölmələrin rəhbərliyi altında universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün səylər göstərilir. Bu məqsədlə akademik və inzibati heyətin keyfiyyətin idarə edilməsi və keyfiyyətin yüksəldilməsi ilə bağlı məlumatlandırılması üçün daxili keyfiyyət təminatına məsul bölmə və TKTA tərəfindən təlimlərin təşkil edilməsi planlaşdırılmış və həyata keçirilmişdir.
http://asoiu.edu.az/new/single_news/1459

Əməkdaşların keyfiyyətin artırılması fəaliyyətlərində iştirakı dəstəklənir və həvəsləndirilir. Bunun nəticəsidir ki, beynəlxalq arenada əməkdaşların elmi məqalələrinin nəşrində artımlar, eyni zamanda beynəlxalq elmi konfransların təşkili və kollektivin iştirakında artımlar müşahidə edilir. Müvafiq struktur rəhbərlərin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və kooperativ əməkdaşlıq istiqamətində koordinasiya gücləndirilir və dəstəklənir. Bunun üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir.

Universitetin əsas məqsəd və vəzifələrindən olan təlim-tədris və tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün lazım olan akademik və inzibati heyətin, infrastrukturun, avadanlıqların və digər zəruri obyektlərin müəyyən edilməsi üçün universitet rəhbərliyi ilə struktur bölmə rəhbərləri arasında tez-tez görüşlər olur. Universitetin missiyasına, məqsəd və vəzifələrinə uyğun prioritetlər universitet rəhbərliyi və struktur bölmə rəhbərlərinin birgə iştirakı ilə müəyyən edilir.

Keyfiyyət təminatı sahəsində keyfiyyətin müşahidəsi daimi aparılır, maraqlı tərəflər arasında sorğular keçirilir və səmərəli əks-əlaqə nəticəsində maraqlı tərəflərin uyğun ehtiyacları, gözləntiləri nəzərə alınaraq bu kimi tədbirlərin davamlılığı təmin olunur. Müəyyən olunmuş prioritetlərə uyğun fəaliyyət göstərmək və keyfiyyətin yüksəldilməsi üçün lazım olan resurslar universitet rəhbərliyi tərəfindən təmin olunur. Lazım olan resursların təmin olunması və bölüşdürülməsindəki əsas müəyyənedici amil fəaliyyətlərin qiymətləndirilməsinin nəticələridir.

Akademik heyətin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi, təhsil və tədqiqat işləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi, tədrisdə innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadənin stimullaşdırılması məqsədi ilə tədbirlər həyata keçirilmişdir. Keyfiyyətin təmin olunmasında universitet rəhbərliyi bilavasitə maraqlıdır. Bunun nəticəsində müxtəlif xarici ali təhsil müəssisələri ilə iki diplom və əməkdaşlıq müqavilələri bağlanmış, xarici professor-müəllim heyəti ATM-ə cəlb olunmuş, eyni zamanda xarici inkişaf etmiş ali təhsil

müəssisələrinin tədris təcrübələri mənimsəmişdir.
http://asoiu.edu.az/new/single_news/27
http://asoiu.edu.az/new/single_news/29
http://asoiu.edu.az/new/single_news/154
http://asoiu.edu.az/new/single_news/198
http://asoiu.edu.az/new/single_news/241
http://asoiu.edu.az/new/single_news/588
http://asoiu.edu.az/new/single_news/630
http://asoiu.edu.az/new/single_news/768
http://asoiu.edu.az/new/single_news/1375
http://asoiu.edu.az/new/single_news/1376
http://asoiu.edu.az/new/single_news/1814
http://asoiu.edu.az/new/single_news/1816
http://asoiu.edu.az/new/single_news/1822
http://asoiu.edu.az/new/single_news/1843

Keyfiyyətin təmin olunması, universitetin strukturlararası fəaliyyətinin koordinasiyası ETAM və Daxili Keyfiyyət Komissiyasının fəaliyyətinin əsasını təşkil edir.

## 3. TƏLİM VƏ TƏDRİS

### 3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

ADNSU-ya tələbə qəbulu:

- Təhsilin bakalavriat səviyyəsində:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.02.2019-cu il tarixli, 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı" üzrə müvafiq fakültələrdə 30 ixtisas (proqram):

**1. Geoloji-kəşfiyyat fakültəsi:**

- 050506 – Geologiya;
- 050611 – Geologiya və geofizika mühəndisliyi;
- 050624 – Mədən mühəndisliyi.

**2. Qaz-neft mədən fakültəsi:**

- 050617 – İnşaat mühəndisliyi;
- 050614 – Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi;
- 050621 – Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi;
- 050631 – Neft-qaz mühəndisliyi.

**3. Kimya-texnologiya fakültəsi:**

- 050606 – Ekologiya mühəndisliyi;
- 050618 – Kimya mühəndisliyi;
- 050635 – Qida mühəndisliyi.

**4. Neft-mexanika fakültəsi:**

- 050622 – Maşın mühəndisliyi;
- 050623 – Materiallar mühəndisliyi;
- 050628 – Mexanika mühəndisliyi;
- 050638 – Sənaye mühəndisliyi.

**5. Energetika fakültəsi:**

- 050607 – Elektrik və elektronika mühəndisliyi;
- 050608 – Energetika mühəndisliyi;
- 050630 – Mühəndis fizikası.

**6. İnformasiya texnologiyaları və idarəetmə fakültəsi:**

- 050509 – Kompüter elmləri;
- 050604 – Cihaz mühəndisliyi;
- 050615 – İnformasiya təhlükəsizliyi;
- 050616 – İnformasiya texnologiyaları;
- 050620 – Kompüter mühəndisliyi;
- 050629 – Mexatronika və robototexnika mühəndisliyi;
- 050634 – Proseslərin avtomatlaşdırılması mühəndisliyi;
- 050636 – Radiotexnika və telekommunikasiya mühəndisliyi.

**7. İqtisadiyyat və menecment fakültəsi:**

- 050401 – Beynəlxalq ticarət və logistika;
- 050402 – Biznesin idarə edilməsi;
- 050405 – İqtisadiyyat;
- 050407 – Marketinq;
- 050408 – Menecment.

- Təhsilin magistratura səviyyəsində:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2011-ci il tarixli, 95 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı” üzrə müvafiq fakültələrdə 32 ixtisasın (proqramın) aşağıda göstərilən 64 ixtisaslaşmaları üzrə aparılır:

| Sıra №-si | İxtisasın şifri | İxtisaslar üzrə ixtisaslaşmaların adı |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1 | **060405** | **Sənayenin təşkili və idarə edilməsi** |
| | | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi |
| 2 | **060407** | **Menecment** |
| | | Menecment (sahələr üzrə) |
| | | Heyətin idarə edilməsi |
| 3 | **060409** | **Biznesin idarə edilməsi** |
| | | Biznesin təşkili və idarə edilməsi |
| 4 | **060408** | **Marketinq (sahələr üzrə)** |
| | | Marketinq |
| 5 | **060410** | **Dövlət və bələdiyyə idarəetməsi** |
| | | Elektron idarəetmə |
| 6 | **060508** | **Geologiya** |
| | | Sedimentalogiya |
| 7 | **060509** | **Kompüter elmləri** |
| | | İnformatika |
| | | Tətbiqi riyaziyyat |
| | | Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı |
| | | Veilənlərin təhlili (Data analitikası) |
| 8 | **060601** | **Materialşünaslıq mühəndisliyi** |
| | | Materialşünaslıq və materiallar texnologiyası |
| 9 | **060602** | **Geologiya mühəndisliyi** |
| | | Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı |
| | | Neft-qaz-mədən geologiyası |
| 10 | **060603** | **Hidrogeologiya mühəndisliyi** |
| | | Hidrogeologiya |
| 11 | **060604** | **Geofizika mühəndisliyi** |
| | | Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları |
| | | Neft-mədən geofizikası |

| 1 | 2 | 3 |
|---|---|---|
| 12 | **060605** | **Dağ-mədən mühəndisliyi** |
| | | Faydalı qazıntı yataqlarının işlənməsi |
| | | Açıq dağ-mədən işi |
| 13 | **060606** | **Neft-qaz mühəndisliyi** |
| | | Dəniz neft və qaz quyularının qazılması |
| | | Neft və qaz yataqlarının işlənməsi |
| | | Dəniz neft-qaz və qaz-kon-densat yataqlarının işlənməsi |
| | | Neft-qaz quyularının istismarı |
| | | Neft-qaz çıxarmada nanotexnologiya |
| 14 | **060607** | **Neft-qaz qurğuları mühəndisliyi** |
| | | Neftin, qazın nəqli və saxlanılmasının sərvətqoruyucu texnologiyası |
| | | Dəniz neft-qaz qurğularının etibarlılığı və istismar səmərəliliyi |
| | | Dəniz hidrotexniki qurğuların tikintisi |
| 15 | **060608** | **Elektroenergetika mühəndisliyi** |
| | | Elektroenergetika |
| 16 | **060609** | **İstilik energetikası mühəndisliyi** |
| | | İstilik elektrik stansiyaları |
| | | Bərpa olunan enerji mənbələri |
| 17 | **060610** | **Enerji maşınqayırması mühəndisliyi** |
| | | Neft-mədən qurğularının hidravlik sistemləri |
| 18 | **060624** | **Cihazqayırma mühəndisliyi** |
| | | Kompüterli informasiya-ölçmə texnologiyaları |
| 19 | **060625** | **Texnoloji maşın və avadanlıqlar mühəndisliyi** |
| | | Neft-qaz istehsalının maşın və avadanlıqları |
| | | Neft emalı və kimya istehsalının maşın və avadanlıqları |
| 20 | **060626** | **Elektrik mühəndisliyi** |
| | | Yüksək gərginliklər texnikası və fizikası |
| | | Sənaye qurğuları və texnoloji komplekslərin avtomatikası və elektrik intiqalı |
| 21 | **060627** | **Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi** |
| | | Elektronika və avtomatika |
| 22 | **060628** | **Proseslərin avtomatlaşdırılması mühəndisliyi** |
| | | Texnoloji proseslərin və istehsalatın avtomatlaşdırılması |

| 1 | 2 | 3 |
|---|---|---|
| | | Enerji menecmenti |
| 23 | **060629** | **Mexatronika və robototexnika mühəndisliyi** |
| | | Robotlar və robototexniki sistemlər |
| | | Kompüterləşdirilmiş inteqrallaşdırılmış istehsalat |
| | | Süni intellekt (SABAH) |
| 24 | **060630** | **Mexanika mühəndisliyi** |
| | | Neft-mədən avadanlıqlarının və xüsusi qurğuların dinamikası və möhkəmliyi |
| 25 | **060631** | **Kompüter mühəndisliyi** |
| | | Kompüter mühəndisliyi |
| | | Kompüter sistemləri və şəbəkələri |
| 26 | **060632** | **İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** |
| | | İdarəetmədə informasiya sistemləri |
| | | İqtisadi informatika |
| | | İnformasiya mühafizəsi və təhlükəsizliyi |
| 27 | **060641** | **Kimya mühəndisliyi** |
| | | Neft-kimya sintezinin texnologiyası |
| | | Neft emalı texnologiyası |
| | | Polimerlərin və kompozisiya materiallarının emalı texnologiyası |
| | | Polimerlərin kimyəvi texnologiyası |
| | | Qeyri-üzvi maddələrin istehsal texnologiyası |
| | | Kimya texnologiyasının proses və aparatları |
| | | Karbohidrogen qazların emal texnologiyası |
| 28 | **060646** | **Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi** |
| | | Avadanlıqların bərpası və möhkəmliyinin artırılması |
| 29 | **060647** | **Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi** |
| | | Metrologiya və metroloji təminat |
| | | Keyfiyyətə nəzarət, diaqnostik üsul və sistemlər |
| 30 | **060648** | **Biotibbi texnika mühəndisliyi** |
| | | Biotexniki və tibbi aparatlar və sistemlər |
| 31 | **060649** | **Ekologiya mühəndisliyi** |
| | | Ətraf mühit və neft sənayesi |
| | | Neft və neft kimya sahəsində ətraf mühitin mühafizəsi |

| 1 | 2 | 3 |
|---|---|---|
| | | Bərk tullantıların emalı texnologiyası |
| 32 | **060651** | **Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi** |
| | | Fövqəladə hallarda texnoloji proseslərin təhlükəsizliyi |
| 33 | **060409** | **Biznesin idarə edilməsi (MBA Proqramı üzrə)** |
| | | Biznesin təşkili və idarə edilməsi (sənaye sahəsi üzrə) |

Hər növbəti tədris ili üçün universitetin tələbə qəbulu planının proqnoz layihəsi hazırlanarkən yeni ixtisaslar üzrə dünya trendi, işəgötürənlərlə keçirilmiş müzakirələrin nəticəsi, əmək bazarının müxtəlif ixtisaslara olan tələbatı, əvvəlki illərin faktiki qəbulu və Dövlət İmtahan Mərkəzinin “Abituriyent” jurnalının 12-ci nömrəsində çap olunan ötən il üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinə dair elmi-statistik materialları nəzərə alınır.

Təhsilalanların qəbulu universitetin tələbə qəbulu planının proqnoz layihəsi əsasında Nazirlər Kabinetinin təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır.

Akkreditasiya olunan 2017/2018 – 2022/2023-cü tədris illəri üzrə tələbə qəbulunun nəticələri özünətəhlil hesabatına əlavə olunan 3 saylı (ATM-ə təhsilalan qəbulu) Excel cədvəlində təqdim olunur.




Azərbaycan-Fransız Universiteti (UFAZ) 2014-cü il Azərbaycan və Fransa prezidentlərinin birgə təşəbbüsü ilə irəli sürülmüş və Azərbaycan Respublikasında ali təhsil sisteminin təkmilləşdirilməsi və Fransanın nüfuzlu ali təhsil məktəbləri ilə əlaqələrin genişləndirilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına xaricə getmədən öz vətənlərində aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq

imkanının yaradılması məqsədilə, Prezident İlham Əliyevin 2016-cı il tarixli Sərəncam ilə ADNSU-nun nəzdində yaradılmış və Strasburq Universitetinin (Unistra, Fransa) tədris proqramları əsasında müştərək fəaliyyət göstərir. UFAZ-da Geologiya və geofizika mühəndisliyi, Kimya mühəndisliyi və Kompüter elmləri ixtisasları üzrə Strasburq Universiteti, Neft-qaz mühəndisliyi ixtisası üzrə isə Renn-1 Universiteti ilə ikili diplom proqramı üzrə ingilis dilində kadr hazırlığı həyata keçirilir. UFAZ-ın bakalavr və magistratura təhsil səviyyələrinə qəbulun son 6 il üzrə göstəriciləri aşağıdakı qrafikdə göstərilmişdir.

Universitetə transfer olunmuş, subbakalavr təhsili almış və təkrar ali təhsil üzrə qəbul olunmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması fakültə dekanlarının xidməti məruzələri əsasında müvafiq ixtisas üzrə kafedra müdirlərinin rəyi nəzərə alınmaqla universitetdə tədris işləri üzrə prorektorun rəhbərliyi ilə yaradılmış Komissiya tərəfindən tam nəzərə alınır.




Təhsilalanların əvvəlki kvalifikasiyalarının tanınması Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi təhsil proqramlarının tələblərini yerinə yetirmiş tələbələrə verilmiş dövlət nümunəli diplomlarla reallaşdırılmışdır. Təkrar ali təhsil almaq istəyənlərin təhsil sənədləri bu məqsədlə rektorun əmri ilə yaradılmış müsahibə kimissiyası tərəfindən yoxlanılır, keçirilmiş müsahibələrdən sonra onların sənədləri dövlət nümunəli olmalarının təsdiqi üçün ARETN-ə göndərilir. Son 6 il üzrə təkrar ali təhsilə qəbulun dinamikası aşağıdakı qrafikdə göstərilmişdir.

Hesabat dövründə ADNSU-da ümumilikdə 74192 bakalavr və 10451 magistrant təhsil almışdır.




**3.2. Təhsil proqramları**

Akkreditasiya olunan 2017/2018 – 2022/2023-cü tədris illəri üzrə təhsilin bakalavriat və magistratura səviyyələrində kadr hazırlığı ARETN tərəfindən təsdiq edilmiş təhsil proqramları əsasında tərtib olunmuş tədris planları üzrə təşkil olunmuşdur.

Universitetdə həyata keçirilən təhsil proqramları əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın tələblərini nəzərə almaqla yenilənmişdir.

Kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi, tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə, tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu, həmçinin təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsində işəgötürənlərin iştirakı təmin olunmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə təsdiq etdiyi təsnifata uyğun ixtisaslar üzrə təhsil proqramları 2020-ci ildə yenidən işlənilmiş və müvafiq qaydada təsdiq olunmuşdur.

İstifadə olunan təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğun hazırlanmış və təsdiq edilmişdir.

İxtisasların tədris proqramlarının hazırlanması və rəsmiləşdirilməsində ADNSU ilə əməkdaşlıq edən müəssisələrin aparıcı mütəxəssislərinin yaxından iştirak etməsi bu təhsil proqramlarında əmək bazarının tələblərinin nəzərə alınmasını təmin etmişdir.

Ayrı-ayrı ixtisaslar üzrə tərtib edilmiş təhsil proqramlarının tələb olunan təlim nəticələri və məzmun standartlarına uyğunluğunu, eləcə də tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğunu təmin etmək məqsədilə hər növbəti tədris ilindən öncə tədris planlarında ixtisasın seçmə fənləri bölümündəki (60 kredit) ixtisas fənlərinə yenidən baxılır, həmin fənlərin ABŞ, Avropa və Türkiyənin aparıcı universitetlərində tədris olunan fənlərə uyğunluğu təmin olunur.

Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu və həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu tam təmin edilmişdir.

Universitetin müstəqil saytı və Elektron təhsil sistemi (lms) vasitəsi ilə aparılmış sorğuların köməyi ilə təhsil proqramlarının icrası nəticəsində əldə olunan təlim nəticələri dövri mətbuat, sosial media vasitəsilə ictimaiyyətə çatdırılır.

Əlavə təhsil proqramlarına qəbul və tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.09.2010-cu il tarixli, 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na uyğun təşkil edilmişdir.

### 3.3. Tədrisin təşkili

Tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" və 24.06.2010-cu il tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydalarının tələblərinə uyğun hazırlanmış tədris planlarının əsasında həyata keçirilir.

Tədris planları ixtisasların təhsil proqramlarının tələblərini nəzərə almaqla kredit sisteminin tələblərinə tam uyğun hazırlanmışdır.

İxtisasların tədris planlarında göstərilmiş fənlərin tədris illəri və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafikləri mövcuddur.

Tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü aparılmış, peşə hazırlığı və ixtisas fənləri arasında balans saxlanılmışdır. Tədris planında ümumi auditoriya saatlarının (15 – 20) %-i humanitar fənlərin (30 kredit, onlardan 6 kredit seçmə fənlər), (80 – 85) %-i isə peşə hazırlığını təmin edən fənlərin (180 kredit, onlardan 60 kredit seçmə fənlər) tədrisinə ayrılmışdır. Təcrübələr üçün 21, Yekun Dövlət Attestasiyası (YDA) üçün isə 9 kredit nəzərdə tutulmuşdur. Humanitar fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənləri daxildir. Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilmişdir və bir kredit 30 saata bərabər götürülmüşdür. Hər tədris ilində təlim müddəti sentyabrın 15-dən başlanır və ixtisas üzrə tədris planına müvafiq olaraq yekunlaşır.

Əyani təhsil forması üzrə tədris ilinin müddəti 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən 5 həftə imtahan sessiyası) ibarətdir. Qiyabi təhsil forması üzrə isə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" qaydalarının "3.4. Yay semestrinin təşkili" bölməsinin tələblərinə uyğun olaraq hər tədris ilinin sonunda (bir qayda olaraq, iyul-avqust aylarında) 6 həftədən ibarət yay semestri təşkil edilir.

İmtahanların keçirilmə qaydaları və formaları normativ hüquqi aktların tələblərinə uyğun (Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli, 1060 saylı əmri təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi" haqqında Əsasnamə) təşkil olunur. Ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarının təhsilalanlar tərəfindən mənimsənilmə səviyyəsi və keyfiyyəti müvafiq qaydalar əsasında cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir. Təhsilalanların cari, aralıq və dövlət attestasiyası zamanı biliyinin qiymətləndirilməsi AKTTS-nə uyğun olaraq 100 ballı sistemlə həyata keçirilir.

Yekun Dövlət Attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli, 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin tələbləri çərçivəsində həyata keçirilir. Buraxılış işlərinin hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimata uyğun, normativ tələbləri gözləməklə aparılır.

Pandemiya dövrünün tələblərinə uyğun 2021-ci ildə Yekun Dövlət Attestasiyası "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.06.2021-ci il tarixli, 158 №-li Qərarına əsasən Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə (ÜOMG) əsasən keçirilmişdir. ÜOMG-si 80 baldan yüksək olan bəzi tələbələr öz istəkləri ilə buraxılış işlərini hazırlamış və müdafiə etmişlər.

Fənlərin sillabuslarında göstərilən təlim nəticələrinin təmin olunmasına dekanlıqlar və kafedralar tərəfindən nəzarət olunur.

Tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi tam təmin

edilmişdir.

Tələbələrə tədris ili ərzində tədris olunacaq fənləri, onların kreditlərini, tədris aparacaq müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları mövcuddur.

İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növünü, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar üzrə illik işçi tədris planları hazırlanmış və müvafiq qaydada təsdiq olunmuşdur.

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planları hazırlanmış, müvafiq qaydada rəsmiləşdirilmişdir. Dərs yükünün bölünməsində auditoriya və auditoriyadan kənar saatlarının uyğun olaraq 40 / 60 nisbəti gözlənilir.

Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsinə nəzarət olunur. Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyətini yoxlamaq üçün açıq dərslər təşkil olunur, müvafiq qaydada müzakirə olunur və istiqamətverici tədbirlər həyata keçirilir.

Fənlərin daha dərindən mənimsənilməsi üçün məsləhət saatları təşkili edilir və müəllimlərin dərs yüklərində nəzərə alınır. Eyni zamanda təhsilalanlar tədris prosesinin təşkilinə dair tyutor məsləhət xidmətindən də yararlanırlar.

Müəllimin rəhbərliyi altında tələbələrin hər fənn üzrə təqdimat (sərbəst işlər) hazırlaması təşkil edilir. Təqdimat mövzuları fənnin proqramına daxil olan, müəllim tərəfindən tədris olunmayan passiv sillabus əsasında verilir, onların yerinə yetirilməsi üçün lazım olan metodiki mənbələr və materiallar elektron sistemdə yerləşdirilir.

Təcrübələr normativ-hüquqi tələblərə uyğun rəsmiləşdirilir və müvafiq olaraq 14 həftə (21 kredit) ixtisaslar üzrə müvafiq istehsalat müəssisələrində təşkil edilir, təcrübə dövründə tələbələrin buraxılış işlərinin mövzuları üzrə məlumatların əldə olunması və ixtisasın peşə hazırlığı istiqamətində praktiki biliklərin mənimsənilməsi məsələlərinə ciddi əməl olunur. Təcrübə planının yerinə yetirilməsi səviyyəsi, davamiyyət və hesabat nəzərə alınmaqla tələbənin təcrübəsinin nəticəsi sonuncu gün attestasiya olunmuş və nəticələr sistemə yüklənilmişdir. Ümumilikdə, təhsilalanlar 200-dən çox müəssisələrdə təcrübə keçirlər.

Kurs layihəsinin (işi) hazırlanması və müdafiəsi müvafiq kafedralarda komissiya qarşısında təşkil olunur. Tapşırıqlar üzrə mövzular müəyyən edilir, məsləhət saatları təşkil olunur və fənn müəllimlərinin rəyi əsasında tələbələr müdafiəyə təqdim edilirlər. Müdafiə olunmuş işlər qeydiyyata alınır, normativ müddətdə saxlanılması üçün arxivə təhvil verilir.

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi müvafiq dekanlıq və kafedralar tərəfindən izlənilir və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülür.

### 3.4. Tədris metodları və üsulları

Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir. Mühazirələr Microsoft PowerPoint proqram təminatında elektron formada aparılır. ADNSU-da təqdimatların müasir tələblərə cavab verən vahid forması hazırlanmış və 2016/2017-ci tədris ilindən başlayaraq tətbiq olunmuşdur. Bunun üçün dəfələrlə professor-müəlim heyəti və əməkdaşlar üçün təlimlər təşkil edilmişdir.

Mühazirə və məşğələ dərsləri veb-distant auditoriya formatında qurulmuş auditoriyalarda, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərsləri müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərində, tətbiqi məşğələ dərsləri isə xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında tədris olunur.

Fənlərin tədrisi zamanı tələbəyönümlü, problem yönümlü, səriştə əsaslı, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilir. Təhsilalanlara buraxılış işləri üzrə mövzular istehsalat müəssisələrindən verilir. İxtisasın seçmə fənlərinin VI və VII semestrlərdə tədrisi bilavasitə istehsalat müəssisələrində, həmçinin kafedraların kənar müəssisələrdə yaradılmış filiallarında təşkil edilir.

Bütün təhsil formalarında təhsilalanların bilik və peşə hazırlığı səviyyəsinin artırılması, təhsil prosesinin səmərəliyinin yüksəldilməsi məqsədilə tədris prosesində bir sıra metodlardan istifadə olunur. Mühazirə dərsləri əsasən dialoq rejimində aparılır. Praktiki məşğələ dərslərində isə aktiv və interaktiv təlim metodlarının müxtəlif formaları – konkret halların təhlili (“case study”), kiçik qruplarda (komandada) iş, beyin həmləsi, debat, diskussiya, sual-cavab, tənqidi düşüncənin inkişafı və s. kimi üsullardan istifadə edilir. Müəllim tərəfindən aktiv və interaktiv təlim metodları seçilərək mövzunun tədris proqramının və tematik planının məqsəd və vəzifələrinə uyğunluğu; məşğələnin (mövzunun) didaktik məqsədinə uyğunluğu; dinləyicinin intellektual səviyyəsinə və s. uyğunluğu gözlənilir.

Tədris prosesində dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının kimi tədris metodlarına üstünlük verilir.

“Xarici dildə işgüzar və akademik kommunikasiya” fənninin tədrisi British Council-in metodikasına uyğun təşkil edilir və IV semertin yekun imtahanı APTİS imtahanlarına uyğunlaşdırılmış şəkildə keçirilir.

Yeni təlim və tədris metodlarının və interaktiv öyrənmənin tətbiq olunması təşviq edilir və bununla bağlı bir sıra tapşırıqlar verilmişdir.

Tədris metod və üsullarının universitet rəhbərliyi, ETAM, Tədris metodik şöbə, fakültə dekanlıqları tərəfindən dövrü monitorinqi aparılır, ehtiyac olduğu halda təkmilləşdirilmə işləri görülür. Bunun üçün sorğular keçirilir və sorğuların nəticələri təhlil olunur.

### 3.5. Təlim və tədris resursları

Universitetdə tədris ehtiyaclarını tam ödəyən, istifadəçilər üçün rahat, ölçü və qiymətləndirmə imkanlarına malik olan elektron təhsil sistemi (LMS) 2016/2017-cı tədris ilindən istifadə olunur.

Auditoriyalar müasir təlim prosesini aparmaq üçün veb-distant auditoriya formatında qurulmuş və lazımi təşkilati texnika ilə (proyektor, kompüter, kameralar və s) təchiz olunmuşdur. Elektron universitet sistemi tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydiyyata almağa imkan verir. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlər və texniki təminat təhsil proqramlarına uyğundur. Tədrisin təşkili prosesində elektron dərs resurslarından daha çox istifadə olunur.

Tələbələrin informasiya texnologiyaları üzrə hazırlığını təmin etmək, ümumi porifilli və ixtisaslaşdırılmış proqram təminatları ilə (Excel, Word, Power Point, Photoshop, Auto CAD, Solid Works) işləmək, sadə analizləri etmək bacarıqlarını formalaşdırmaq məqsədilə internetə qoşulmuş kompüterlər və 19 kompüter laboratoriyası mövcuddur. Hazırda istifadə olunan 1955 kompüterdən 1834-ü internetə qoşulmuşdur və onların təyinatlarına əsasən quraşdırıldıqları məkanlar aşağıdakı cədvəldə göstərilmişdir:

| Yerləşmə məkanı | Kompüter (PC) və Notebook sayı | İnternet təminatı |
|---|---|---|
| Web auditoriyalar | 143 kompüter | + |
| Kompüter laboratoriyaları | 203 kompüter və 79 notebook | + |
| Fərman Salmanov adına SOCAR-ADNSU Elm-Tədris Mərkəzi (117 №-li auditoriya) | 5 kompüter | + |
| HPC Mərkəzi | 20 kompüter | + |
| Professor-müəllim heyəti, əməkdaşlar və bəzi auditoriyalar | 1505 | 121-i internetə qoşulmayıb |
| **Cəmi** | **1955** | |

Universitetdə 229 mühazirə və məşğələ, 70 tədris laboratoriyaları olmaqla cəmi 259 auditoriya mövcuddur və auditoriya fondunun tələbə sayına uyğunluğu tam təmin edilmişdir. Elmi-tədiqqat laboratoriyalarının sayı 45-dir.

Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun elektron məlumat bazası yaradılmış və xüsusi təyinatlı yeni auditoriyalar yaradılmışdır. Akademik heyətin fəaliyyəti üçün 170 otaq, inzibati heyətin fəaliyyəti üçün 68 otaq mövcuddur.

Kitabxananın (elektron və bilavasitə) universitetin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası aşağıdakı cədvəldə verilmişdir.

| № | Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | Cəmi (2017-2022) |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Tələbələrin və akademik oxucu-istifadəçilərin sayı: | 6336 | 6724 | 5082 | 5501 | 6155 | 5532 | **35330** |
| | Professor-müəllim heyəti | 749 | 582 | 190 | 221 | 282 | 506 | 2530 |
| | Doktorantlar | 6 | 11 | 17 | 26 | 33 | 39 | 132 |
| | magistrantlar | 524 | 472 | 308 | 335 | 420 | 494 | 2553 |
| | bakalavrlar | 5057 | 5659 | 4567 | 4919 | 5420 | 4493 | 30115 |
| 2 | Oxucu davamiyyəti: | | | | | | | |
| | gündüz növbəsi oxucu zallarından istifadə | 120218 | 47783 | 28357 | 4934 | 6111 | 58119 | **265522** |
| | gecə növbəsi oxucu zallarından istifadə | - | - | 381 | 154 | 50 | 589 | **1174** |
| 3 | Kitab verilişi: | | | | | | | |
| | elektron sifariş üzrə | - | - | 3010 | 247 | 318 | 4722 | **8297** |
| | ənənəvi xidmət üzrə | 121454 | 121091 | 22500 | 235 | 250 | 3064 | **268594** |
| 4 | Onlayın oxucu sorğusu | - | - | 15 | 65 | 46 | 45 | **171** |
| 5 | Elektron kataloqa düşən çap məhsullarının sayı | - | 716 | 37213 | 13970 | 9482 | 10888 | **72269** |
| 6 | Elektron sistemə düşmüş elektron daşıyıcıların (kitablar) sayı | - | - | 838 | 820 | 789 | 181 | **2628** |
| 7 | Elektron kataloqa düşmüş elektron vəsaitlər | - | - | 1287 | 1740 | 2458 | 2483 | **7968** |
| 8 | Kənar oxucu müraciəti | 27 | 31 | 36 | - | 38 | 46 | **178** |

Kitabxana fonduna son 6 ildə daxil olan nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) artım dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

| İllər | Dərslik | Elmi | İctimai | Bədii | Cəmi |
|---|---|---|---|---|---|
| 2017 | 440 | 705 | 500 | 605 | **2250** |
| 2018 | 617 | 375 | 69 | 98 | **1159** |
| 2019 | 799 | 906 | 387 | 394 | **2486** |
| 2020 | 761 | 326 | 29 | 20 | **1136** |
| 2021 | 540 | 502 | 30 | 185 | **1257** |
| 2022 | 540 | 473 | 172 | 62 | **1247** |
| 6 il üzrə kitab artımı | 3697 | 3287 | 1187 | 1364 | **9535** |
| 6 il üzrə elektron kitab artımı | 1500 | 800 | 150 | 178 | **2628** |

“e-AzİI Kitab Evi”-nin ümumi fondu barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir.

| İl | Çap şəkilində olan kitablar | Elektron kitablar | Elektron jurnallar | Dərslik və dərs vəsaiti | Monoqrafiya | Bədii kitablar | İctimai-siyasi kitablar |
|---|---|---|---|---|---|---|---|
| 2017 | 656987 | - | - | 353693 | 231545 | 49623 | 22126 |
| 2018 | 603981 | - | - | 350365 | 217067 | 25149 | 11400 |
| 2019 | 604453 | 838 | - | 369694 | 200282 | 23957 | 10520 |
| 2020 | 605346 | 820 | 1611 | 376946 | 200407 | 17013 | 10980 |
| 2021 | 607161 | 789 | 1685 | 378229 | 200820 | 17022 | 11090 |
| 2022 | 608254 | 181 | 2447 | 378938 | 201060 | 17122 | 11134 |

2018-ci ildə 53006 kitabın fondan silinməsi aparılmışdır. Tədris dillərinə uyğun kitab fondu barədə məlumat isə aşağıdakı cədvəldə verilmişdir.

| İl | Azərbaycan | Rus | İngilis və digər dillərdə |
|---|---|---|---|
| 2017 | 76680 | 572998 | 7309 |
| 2018 | 65033 | 531386 | 7562 |
| 2019 | 65208 | 531648 | 7597 |
| 2020 | 65738 | 531945 | 7663 |
| 2021 | 67227 | 532194 | 7740 |
| 2022 | 68213 | 532281 | 7760 |

Universitet üzrə dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası mövcuddur.

| İllər | Alınmış ədəbiyyatın sayı | | | | | |
|---|---|---|---|---|---|---|
| | Universitet tərəfindən pul ilə alınan kitabların sayı | | Oxucular tərəfindən itirilən kitabların əvəzinə qəbul olunmuş kitabların sayı | | Hədiyyə olunmuş ədəbiyyatın sayı | |
| | nüsxə | məbləğ | nüsxə | məbləğ | nüsxə | məbləğ |
| 2017 | 5 | 500 | 27 | 140,90 | 1687 | 11333,46 |
| 2018 | 347 | 5640,44 | - | - | 677 | 3105,37 |
| 2019 | 477 | 13620,30 | - | - | 1198 | 20315,09 |
| 2020 | 31 | 406 | 1 | 8 | 1123 | 12309,58 |
| 2021 | 73 | 8899,90 | - | - | 1103 | 15070,60 |
| 2022 | 19 | 630,80 | - | - | 1014 | 6501,83 |
| **Cəmi** | **952** | **29697,44** | **28** | **148,90** | **6802** | **68635,93** |

ADNSU “Azİİ e-Kitab Evi”ndə istifadə olunan elmi bazalara ayrılan vəsaitin artım dinamikası aşağıdakı cədvəldə verilmişdir.

Universitetin kitabxanası 24/7 rejimində fəaliyyət göstərir və gecə növbəsində kitabxanada məşğul olmaq üçün əvvəlcədən elektron qaydada qeydiyyatdan keçərək, lazımi

kitabları sifariş etmiş təhsilalanlara universitetin hesabına ödənişsiz kompleks yemək verilir.

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| EBSCO nəşriyyat bazası | 2000 AZN | 2000 AZN | 2000 AZN | 2000 AZN | 2000 AZN | 2500 AZN |
| Polpred.com məlumat-axtarış bazası | - | - | 704€ | 550€ | 842€ | - |

Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılmışdır.

Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir. Tələbələr təlim və tədris resurslarını elektron təhsil sistemindən əldə edirlər.

Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının imkanlarından istifadə edillmiş və bu işlər daha da inkişaf etdirilir. Bunun üçün əsasən elektron təhsil sisteminin imkanlarından istifadə olunur. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi daim diqqət mərkəzindədir.

Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları) dəstək planları mövcuddur. Universitetin poliklinikasında təhsialanlara tibbi xidmət, psixoloq tərəfindən isə professor-müəllim heyəti və təhsilalanlara psixoloji məsləhət xidmətləri göstərilir.

### 3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

Bilik və bacarıqların qiymətləndirilməsi "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"yə uyğun aparılır və bununla bağlı prosedur qaydalar işlənilmişdir. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlıdır.

Hər tədris ilinin müvafiq olaraq payız və yaz semestrlərində universitet Elmi Şurası tərəfindən "Cari qiymətləndirmənin keçirilməsi qaydaları" və "Payız (və ya yaz) semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi haqqında" əmr müzakirə olunaraq təsdiq edilir.

Qiymətləndirmə müxtəlif formalarda (yazılı, yazılı-şifahi, "açıq kitab") keçirilir. Qiymətləndirmə prosesində ədalətlilik, obyektivlik, şəffaflıq təmin olunmuşdur və tələbələrə verilmiş qiymətlər əsaslandırılır və tələbələrə elan edilir. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması üçün tələbələrə müstəqillik imkanları verilir.

Təhsilalanların bütün fəaliyyət növləri üzrə qiymətləndirilməsi elektron təhsil sistemində aparılır və yekun qiymətin formalaşması avtomatik olaraq sistem tərəfindən icra olunur.

Zəruri hallarda sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə elektron sistemin üzərindən xüsusi qiymətləndirmə üsullarından istifadə edilir.

Yekun Dövlət Attestasiyasının qiymətləndirilməsi (yekun dövlət imtahanı və / və ya buraxılış işi) sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun təşkil edilir və məsul şəxslər tərəfindən elektron sistemə köçürülür. Bakalavr buraxılış işlərinin və magistrlik dissertasiyalarının tərtibat qaydaları, müdafiəsinin təşkili üzrə metodiki göstərişlər Universitetin Elmi Şurasının 28.04.2016-cı il tarixli iclasında qəbul edilmişdir.

ADNSU-da yekun attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli, 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"nin tələbləri çərçivəsində həyata keçirilir.

ADNSU-nun bakalavriat səviyyəsində 2021-ci ildə Yekun dövlət attestasiyası "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.06.2021-ci il tarixli, 158 №-li Qərarına əsasən Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə əsasən keçirilmişdir.

Universitet və fakültə elmi şuralarında bilik və bacarıqların qiymətləndirilməsi sistemi mütəmadi olaraq müzakirə olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur.

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada həyata keçirilir və tələbələr üçün əlçatanlıq təmin edilmişdir. Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini müvəffəqiyyətlə bitirməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun aparılır.

### 3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

Akademik heyətin işə qəbulu, yüksəlişi və digər vəzifəyə təyinatla bağlı universitetdə qaydalar işlənilmişdir və şəffaf və ictimaiyyət üçün əlçatanlığı təmin edilmişdir. İşə qəbuldan öncə 3 pilləli açıq dərslər (kafedra, dekanat və universitet səviyyələrində) keçirilir və qiymətləndirmə nəticələrinə əsasən qərar qəbul edilir. Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar işlənilmişdir. Universitetin Elmi Şurasının 23.12.2015-ci il tarixli (protokol № 5) iclasında "ADNSU-da elmi işçilər və professor-müəllim heyəti üzrə elmi adlara və elmi vəzifələrə iddiaçıların qiymətləndirilməsi üçün bal sistemi haqqında təlimat" təsdiq edilmişdir. 2018-ci ildən etibarən ADNSU-da

akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqinə başlanılmışdır. Differensial əmək haqqının təyin edilməsi üçün universitetin Elmi Şurasının 05.07.2016-cı il tarixli (protokol № 12) iclasında "Professor-müəllim heyətinə veriləcək əlavə maaşların hesablanması üçün Təlimat" təsdiq edilmişdir. Sonradan bu təlimat ildən-ilə təkmilləşdirilmiş, Elmi Şurasının 25.01.2017-ci il tarixli (protokol № 5) və 30.01.2019-cu il tarixli (protokol № 5) yeni redaksiyalarda təsdiq edilmişdir.

Akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər keçirilmişdir. Pandemiya dövründə əməkdaşların elektron təhsil sistemindən istifadə etməklə onlayn dərsləri Teams platforması üzərindən təşkil olunmuşdur. Bunun üçün interaktiv və aktiv tədris metodları və distant təhsilin təşkilinə dair təlimlər keçirilmiş və müvafiq təlimatlar elektron qaydada əməkdaşlara təqdim edilmişdir.

Universitetin Elmi Şurasının 22.02.2017-ci il tarixli iclasında (protokol № 6) "ADNSU-nun əməkdar professoru" fəxri adının verilməsi barədə Əsasnamə, 29.03.2017-ci il tarixli iclasında isə (protokol № 7) "professor-məsləhətçi" vəzifəsi barədə Əsasnamə qəbul olunmuşdur.

Akademik heyət öz ixtisas sahələrinə uyğun olaraq müxtəlif müəssisələrdə stajkeçmə və digər təlim kurslarına cəlb edilmişlər. Akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında və qrant layihələrində iştirak edirlər.

Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcuddur. Akademik heyətin açıq dərsləri planlaşdırılır və təyin olunmuş meyarlar üzrə onların qiymətləndirilməsi aparılır.

Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf yanaşma mövcuddur. Dərs yükünün bölünməsində professor-müəllim heyətinin dərs yükü normasının təyin edilməsində, həmçinin auditoriya və auditoriyadan kənar saatlarının nisbətinin normativ tələblərə uyğunlaşdırılmasında "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2010-cu il tarixli, 215 nömrəli Qərarına tam əməl olunmuşdur.

Cari tədris ilində ADNSU-da fəaliyyət göstərən 24 kafedrada çalışan professor-müəllim heyətinin ümumi sayı 573 nəfər təşkil edir, o cümlədən 47 nəfəri və ya 8,2 %-i elmlər doktoru və professorlardır. UFAZ-da pedaqoji heyətin 38 nəfəri tam ştatda, 138 nəfər əcnəbi isə saathesabı qaydada işləyir.

Fakültələr üzrə professor-müəlim heyəti və təhsilalanlar sayının nisbəti:

| Fakültə | Təhsilalanların sayı | | | | | Professor-müəllim heyətinin sayı | Müəllim təhsilalan nisbəti |
|---|---|---|---|---|---|---|---|
| | Bakalavr | | Magistr | Doktorant | Cəmi | | |
| | əy. | qiy. | | | | | |
| Geoloji-kəşfiyyat | 760 | 5 | 239 | 31 | 1035 | 46 | 1:22,5 |
| Qaz-neft mədən | 1685 | 76 | 402 | 52 | 2215 | 103 | 1:19,8 |
| Kimya-texnologiya | 1304 | 1 | 397 | 44 | 1746 | 118 | 1:14,5 |
| Neft-mexanika | 1221 | 5 | 186 | 20 | 1432 | 74 | 1:19,4 |
| Energetika | 1145 | 7 | 196 | 18 | 1366 | 89 | 1:15,3 |
| İnformasiya texnologiyaları və idarəetmə | 3698 | 20 | 703 | 85 | 4506 | 241 | 1:18,7 |
| İqtisadiyyat və menecment | 955 | 121 | 176 | 42 | 1294 | 105 | 1:10,5 |
| BA, MBA Proqramları | 832 | - | 207 | - | 1039 | 90 | 1:11,5 |
| "Sabah" qrupları | 505 | - | - | - | 505 | (100) | 1:5 |
| Təkrar ali təhsil | - | 1331 | - | - | 1331 | (166) | 1:8 |
| UFAZ | 574 | - | 101 | - | 675 | 176 | 1:4 |
| Əcnəbilərin hazırlıq kursları | - | - | - | - | 292 | (17) | 1:17,1 |
| **Cəmi** | **12679** | **1566** | **2607** | **292** | **17436** | **1042** | **1:16,5** |

Universitet üzrə professor-müəllim heyətinin təhsilalan sayına nisbəti 17144:1042=1:16,5 təşkil edir.

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 80 faizindən çoxunun əsas iş yeri universitetdir.

Kənardan cəlb edilən professor-müəllim heyətinə tələbat vardır. Xüsusən də müasir ixtisaslar üzrə gənc kadrlara, eləcə də SABAH qruplarında müsabiqə yolu ilə əvəzçiliklə xaricdən müəllimlərin cəlb olunmasına xüsusi önəm verilir.

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş kadrların professor-müəllim heyətinə cəlb edilməsi istiqamətində işlər aparılır. 2022-ci ildə 2 nəfər gənc müəllim kimi "Xarici dillər" kafedrasına işə qəbul olunmuşdur.

### 3.8. Tələbəyönümlü tədris

Tələbələrin tədris prosesində fəal iştirakını təşviq etmək və təhsil alan şəxslərlə müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulması və tələbələrin şikayətlərinə baxılması üçün müvafiq qaydalar (universitetin Elmi Şurasının Etika Komissiyası) yaradılmışdır. Təhsil proqramı və hədəflənən kompetensiyalarla bağlı məlumatlar tələbələrlə paylaşılır və müzakirə olunur. Müəllimlər tələbələrin tədris prosesində

fəal iştirak etməsi üçün tələbələri istiqamətləndirir, aralıq və cari qiymətləndirmə meyarları və metodu öncədən çatdırılır, tələbələr bu barədə məlumatlı olurlar.

Universitetin Elmi Şurasının 28.10.2015-ci il tarixli iclasında (protokol № 3) "ADNSU-nun daxili intizam qaydaları qəbul edilmiş, professor-müəllim heyəti və təhsilalanların nəzərinə çatdırılmışdır.

AKTTS-nə əsasən təhsilalanlar fərdi tədris planının tərtib edilməsində akademik məsləhətçilərin (tyutorların) yaxından köməkliyi ilə bilavasitə iştirak edirlər. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər üzrə tələbələrə tam seçim sərbəstliyi təmin edilir. Akademik məsləhətçilər Bolonya prinsiplərinə uyğun olaraq təhsilverənlərin tələbələr tərəfindən seçilməsi prosesində onların tam sərbəstliyini təmin edirlər. Tyutorlar öz fəaliyyətlərini universitetin Elmi Şurasının 23.02.2022-ci il tarixli iclasında (protokol № 7) qəbul olunmuş "Akademik məsləhətçilərin vəzifə təlimatı" əsasında həyata keçirirlər.

Tələbələr arasında rəy sorğuları tədris prosesinin təşkili, tədrisin keyfiyyəti, elmi-tədqiqat işlərinə tələbələrin marağı və elmi ideya bazası üçün müstəqil təklifləri, tələbələrin sosial məsələləri və istəkləri  istiqamətlərində aparılmışdır və nəticələri təhlil edilmişdir. Uiversitetin rəsmi interet səhifəsi və sosial mediada mütəmadi olaraq paylaşılır.

Universitetdə tələbə və məzunların təklifləri əsasında qərarlar qəbul edilir. Bu təkliflər əsasən əmək bazarına hazırlıq üçün gündəlik təcrübələrin təşkili, müxtəlif layihələrdə iştirak kimi məsələləri əhatə etmişdir.

Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi təmin edilmişdir.

Təhsilalanların şikayət və/və ya təklifləri üçün şərait yaradılmışdır. Bunun üçün tələbələrin rəhbərlik və dekanlarla görüşlərinə şərait yaradılmış, şikayət və təkliflər üçün universitetin binalarında qutular yerləşdirilmiş və anonim sorğular təşkil edilmişdir. Həmçinin elektron təhsil sistemində tələbələrin fənn müəllimlərini qiymətləndirməsi mexanizmi mövcuddur. Bu statistik araşdırmaların nəticələri növbəti tədris ili üçün kafedralarda dərs yüklərinin bölünməsi zamanı nəzərə alınır. Bundan başqa hər semestrdə 2 dəfə rektorun "Açıq mikrofon günü" canlı olaraq akt zalında və universitetin sosial şəbəkəsi üzərindən canlı qoşulmaqla təşkil edilir, hər həftənin II günləri isə rektorun qəbul günləri keçirilir.

Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər cəlb olunmuşlar. Onlar müvafiq ixtisaslar üzrə magistratura səviyyəsində təhsil almış və ya təhsillərini davam etdirirlər. Tyutor xidmətinin səmərəliliyinin artırılması məqsədilə onlar üçün TKTA tərəfindən

2022-ci ilin oktyabr ayında təlimlər keçirilmiş, təlimdə iştirak etməli olan 69 tyutordan 65-i iştirak etmiş və 64 nəfəri sertifikatla təltif edilmişdir.

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiya təşkil olunmuşdur.

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarları tədris prosesində nəzərə alınmışdır. Zəruri hallarda elektron sistemin imkanlarından istifadə olunur. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı müvafiq normativ tələblər çərçivəsində təmin edilmişdir. Bu qrup tələbələrin Təhsil Tələbə Krediti Fondu, Azərbaycan Respublikası Prezidentinin yanında Gənclər Fondu kimi qurumlardan yararlanmaları üçün məsul şəxslər qismində fakültə dekanları təyin edilmişdir. Bundan əlavə universitetin Elmi Şurası tərəfindən çox sayda adlı təqaüdlər təsis edilmişdir.

Təhsilalanların tədris göstəricilərinə görə təqaüd alamaları qüvvədə olan normativ qaydalarla təmin edilir. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.02.2016-cı il tarixli, 38 saylı qərarına əsasən həmin müddətdən universitetdə Təqaüd Komissiyası fəaliyyət göstərir. Təqaüd yerlərinin sayı universitetdə dövlət sifarişi ilə təhsil alan tələbə sayı və hər semestr ARETN tərəfindən müəyyən edilən əlavə təqaüd yerlərinin cəmi miqradında müəyyən edilir. İmtahan sessiyasından sonra fakültə dekanlıqları tələbələrin həmin semestr üçün ÜOMG-ni hesablayaraq, tələbələrə elan edir və dekanlığın qarşısında lövhələrdə paylaşır.

### 3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

ADNSU-da sistemli olaraq ixtisaslar üzrə təhsil proqramlarının məzmunu və mənimsənilmə səviyyəsi təhsilin nəticələrinə görə təhlil olunur, təhsilalanların hansı təhsil proqramlarına üstünlük verməsi izlənilir.

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət olunur. Təlim nəticələrinə dair hesabatlar hazırlanır və təhlil olunur.

Təhsil proqramlarının monitorinqi nəticəsində daha üstün təlim metodlarının seçilməsi, məzmun baxımından bir sıra fənlərin (peşə hazırlığının seçmə fənləri) yenisi ilə əvəz olunması, qiymətləndirmə meyarlarına yenidən baxılması və s. kimi tədbirlər görülmüşdür. İxtisasların təhsil proqramları üzrə təklif olunan seçmə fənlər əmək bazarının tələblərini və informasiya texnologiyalarının müasir imkanlarının tətbiqini nəzərə almaqla ixtisasların peşə hazırlığının əsaslarını təşkil edir və burada əsas məqsəd təlim nəticələrinin əldə olunmasını

təmin etməkdən ibarətdir. Əsasən ABŞ, Almaniya, Türkiyə və digər ölkələrin aparıcı universitetlərinin ali təhsil müəssisələrində tədris olunan fənlərə ətraflı şəkildə baxılmış və bunun əsasında seçmə fənlərin uyğunluğu təmin olunmuşdur.

Bu fənlər, yəni "Ali Təhsil Müəssisələri tərəfindən müəyyən edilən fənlər" (ixtisasın (proqramın) peşə hazırlığının seçmə fənləri) – cəmi 60 kredit, sonuncu dəfə 2022-ci ilin may ayında universitet Elmi Şurası tərəfindən təsdiq edilmişdir.

Təhsil proqramları üzrə hazırlığın illik özünüqiymətləndirmə hesabatları hazırlanır, fakültə, həmçinin universitet və fakültə Elmi Şuralarında müzakirə olunaraq təhlil edilir və müvafiq qaydada qiymətləndirilir.

Universitetdə tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun, 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.02.2019-cu il tarixli, 45 saylı qərarına əsasən təsdiq edilmiş ixtisasların (proqramların) təsnifatına uyğun qaydada hazırlanaraq təsdiq edilmişdir.

### 3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

ADNSU-da 2015/2016-cı tədris ilindən İctimaiyyətlə Əlaqələr və Marketinq Departamenti fəaliyyət göstərir. Məzunların işlə təminatına dəstək məqsədi ilə 2015/2016-cı tədris ilindən hər il İctimaiyyətlə Əlaqələr və Marketinq Departamentinin təşkilatçılığı ilə Məzun-Karyera Sərgisi keçirilir. İldə iki dəfə təşkil olunan bu sərgilərdə tələbə və məzunlarımıza birbaşa şirkət nümayəndələri ilə görüş imkanları yaradılır. Bu ilə qədər universitetdə 13 Məzun-Karyera Sərgisi keçirilib və bu sərgilərdə iştirak edən yüzlərlə şirkət tərəfindən tələbə və məzunlarımıza 4516 vakant iş və təcrübə yeri təklif olunub. Bir çox məzun sərgi vasitəsi ilə işlə təmin olunub.

Sonuncu – XIII Məzun-Karyera Sərgisi 17.12.2022-ci il tarixində təşkil olunub. Bu sərgidə 90 dövlət qurumu və özəl şirkət tərəfindən ADNSU-nun tələbə və məzunlarına 260-dan artqı vakant iş yeri və 280 təcrübə yeri təklif olundu. Sərgidə tələbə və məzunlar tərəfindən şirkət nümayəndələrinə 1400-dən artqı CV təqdim olundu. Hazırda ADNSU 300-dən artıq dövlət və özəl şirkətlə əməkdaşlıq edir.

ADNSU-nun rəsmi saytnda Məzun-Karyera ilə bağlı yaradılmış career.asoiu.edu.az saytı vasitəsi ilə məzunlarla davamlı əlaqə qurulur. Tələbə və məzunlarımız CV məlumatlarını career.reports.edu.az ünvanına göndərməklə universitet üzərindən şirkətlərin təqdim etdikləri vakant yerlərə öz namizədliklərini irəli sürürlər. O cümlədən, şirkət mütəxəssisləri ilə tələbələrin universitetdə mütəmadi olaraq təşkil olunan təlim-görüşləri tələbələrimizin elə tahsil alarkən müəssisələrin iş şəraiti ilə tanış olmasında, onlarla əlaqə

qurulmasında mühüm rol oynayır. 2022/2023-cü tədris ilində Xarici İşlər Nazirliyi, SOCAR, Paşa Bank, ASAN Xidət, Azərbaycan Sahibkarlar Konfederasiyası, İNNAB Karyera Mərkəzi, digər özəl və dövlət müəssisələrinin təcrübəli mütəxəssiləri tərəfindən müxtəlif mövzularda tələbələrə 16 master-klass keçirilib, o cümlədən təlimlər təşkil olunub. 2022-ci ildə ADNSU-nu 3349 tələbə bitirib (bakalavr və magistr səviyyəsində), onların 2531 nəfəri, yəni 75,57 %-i daimi işlə təmin olunub.

## 4. ELMİ TƏDQİQAT

### 4.1. Elmi-tədqiqat strategiyası

ADNSU-nun 2021– 2030 -cu illər üçün qısa, orta və uzunmüddətli İnkişaf Strategiyası Elmi Şuranın 31.03.2021-ci il tarixli iclasında Protokol № 7) təsdiq edilmişdir.

Strategiya ADNSU-nun 2021 – 2030-cu illəri əhatə edən ümumi inkişaf strategiyasının əsas qayəsinə, həmçinin ADNSU-nun missiyasına və hədəflərinə, bu sahədə mövcud qanunvericilik, dövlət proqramları və strateji sənədlərin tələblərinə uyğun hazırlanmışdır. Strategiyada universitetin məqsədlərinə uyğun olaraq tədqiqat universitetinin yaradılması, tədqiqat potensialının artırılması, sahibkar universitet ideyasının reallaşması, universitet-sənaye əməkdaşlığının təmin olunması, texnopark və startap ekosisteminin yaradılması istiqamətində müddəalar yer almış və prioritet olaraq müəyyən edilmişdir.

Strateji hədəf və məqsədlər ADNSU-nun tədqiqat fəaliyyəti, onun idarə olunması mexanizmləri, təşviqi 2030-cu ilədək nəzərdə tutulan strategiyaya uyğundur.

Elmi Şura iclaslarında beynəlxalq təşkilatlar və sənaye müəsisələri ilə görüşlərdə əməkdaşlıq məsələləri geniş müzakirə edilmişdir:

- ADNSU-nun rektoru “Thomson Reuters” agentliyinin MDB ölkələri üzrə nümayəndələri ilə görüşüb: http://asoiu.edu.az/new/single_news/79

- ADNSU-da Tələbələrin 66-cı Elmi-texniki Konfransı işinə başlayıb: http://asoiu.edu.az/new/single_news/332

- ADNSU-da Tələbələrin 66-cı elmi-texniki konfransının yekun iclası keçirilib: http://asoiu.edu.az/new/single_news/341

- ADNSU tələbəsi elmi-praktik konfransda məruzə ilə çıxış edib: http://asoiu.edu.az/new/single_news/330

- ADNSU-nun rektoru “The University Rankings” təşkilatının nümayəndələri ilə görüşüb http://asoiu.edu.az/new/single_news/347

- ADNSU-da “Elmi tədqiqatlarda elektron mikroskopun tətbiqi” mövzusunda elmi seminar keçirilib: http://asoiu.edu.az/new/single_news/404

- ADNSU-da doktorantların seminarı keçirilib: http://asoiu.edu.az/new/single_news/415

- "Elsevier"-in nümayəndəsi ADNSU-da seminar keçib http://asoiu.edu.az/new/single_news/448

- ADNSU-nun rektoru universitetin doktorantları ilə görüşüb: http://asoiu.edu.az/new/single_news/447

- AMEA-nın prezidenti Akif Əlizadəyə ADNSU-nun fəxri professoru adı verilib: http://asoiu.edu.az/new/single_news/492

- ADNSU-nun professorları Rusiya Təbiət Elmləri Akademiyasının medalı ilə təltif olunublar: http://asoiu.edu.az/new/single_news/538

- Braziliyanın Campinas Dövlət Universitetinin qida elmləri üzrə doktoru ADNSU-da seminar keçib: http://asoiu.edu.az/new/single_news/563

- FIBAA-nın rəsmi saytında ADNSU-nun 5 ixtisasının akkreditasiya olunmasına dair məlumat yerləşdirilib: http://asoiu.edu.az/new/single_news/600

- ADNSU-da vahid akademik test mərkəzinin təqdimatı keçirilib: http://asoiu.edu.az/new/single_news/642

- ADNSU ilə AMEA Radiasiya Problemləri İnstitutu arasında əməkdaşlığa dair memorandum imzalanıb: http://asoiu.edu.az/new/single_news/704

- ADNSU-da Tələbələrin 67-ci Elmi-texniki Konfransı işinə başlayıb: http://asoiu.edu.az/new/single_news/727

- ADNSU-da Tələbələrin 67-ci Elmi-texniki Konfransının yekun iclası keçirilib: http://asoiu.edu.az/new/single_news/735

- ADNSU "Web of Science"da universitetlərarası nəşr lideri oldu: http://asoiu.edu.az/new/single_news/726

- ADNSU-da akademik Tofiq Əliyevin 90 illiyinə həsr olunan elmi konfrans keçirilib: http://asoiu.edu.az/new/single_news/749

- ADNSU-da doktorantların növbəti seminarı keçirilib: http://asoiu.edu.az/new/single_news/784

- ADNSU-da Respublika Elm gününə həsr olunan seminar keçirilib: http://asoiu.edu.az/new/single_news/813

- ADNSU-da Elmi-metodik və təlim seminarı keçirilib: http://asoiu.edu.az/new/single_news/834

- "Fərman Salmanov adına SOCAR-ADNSU Elm və Tədris Mərkəzi"nin açılış mərasimi olub: http://asoiu.edu.az/new/single_news/998

- ADNSU-da Tələbələrin 68-ci Elmi-texniki konfransı yekunlaşıb:

http://asoiu.edu.az/new/single_news/1092

- Rektor Mustafa Babanlının kitabı dünyanın ən nüfuzlu elmi nəşriyyatının top onluğunda yer alıb: http://asoiu.edu.az/new/single_news/1113

- ADNSU-da elmi-praktiki seminar keçirilib: http://asoiu.edu.az/new/single_news/1168

- ADNSU-nun 100 illiyinə həsr olunmuş Elmi Konfrans işini başa çatdırıb: http://asoiu.edu.az/new/single_news/1198

- ADNSU-da universitetin 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfrans keçiriləcək: http://asoiu.edu.az/new/single_news/1231

- ADNSU-nun 100 illiyinə həsr olunmuş Beynəlxalq Elmi-Texniki Konfrans keçirilib: http://asoiu.edu.az/new/single_news/1291

- ADNSU-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Elmi Konfransının bağlanış iclası keçirilib: http://asoiu.edu.az/new/single_news/1366

- ADNSU-da III Beynəlxalq Elmi-Praktiki Seminar keçirilib: http://asoiu.edu.az/new/single_news/1368

- ADNSU-nun rektoru Polşa Elmlər Akademiyasının həqiqi üzvü Janusz Kacprzyk ilə görüşüb: http://asoiu.edu.az/new/single_news/1501

- ADNSU-da II Beynəlxalq Elmi Konfrans öz işinə başlayıb: http://asoiu.edu.az/new/single_news/1580

- ADNSU-da II Beynəlxalq Elmi Konfransın yekun seminarı keçirilib: http://asoiu.edu.az/new/single_news/1583

- ADNSU-da Gənc tədqiqatçı və doktorantların elmi konfransı keçirilir: http://asoiu.edu.az/new/single_news/1657

- ADNSU-da Gənc tədqiqatçı və doktorantların elmi konfransı başa çatıb: http://asoiu.edu.az/new/single_news/1663

- ADNSU-nun əsas tərəfdaşlığı ilə beynəlxalq elmi konfrans keçirilir: http://asoiu.edu.az/new/single_news/1835

- ADNSU-da II Beynəlxalq Elmi Konfrans öz işinə başlayıb: http://asoiu.edu.az/new/single_news/1580

- ADNSU-nun əsas tərəfdaşlığı ilə keçirilən beynəlxalq elmi konfrans işini davam etdirir: http://asoiu.edu.az/new/single_news/1838

- ADNSU-nun əsas tərəfdaşlığı ilə keçirilən Beynəlxalq elmi konfrans başa çatıb: http://asoiu.edu.az/new/single_news/1842

- “Şuşa İli”-nə həsr olunmuş Tələbələrin 71-ci Elmi Texniki konfransı başa çatıb:

http://asoiu.edu.az/new/single_news/1913

- ADNSU QS Beynəlxalq Reytinq Agentliyinin onlayn hazırlıq iclasında iştirak edib: http://asoiu.edu.az/new/single_news/1546

- ADNSU tədqiqat və kompüter elmləri sahəsində Azərbaycanda bir nömrədir: SCImago Institutions Rankings http://asoiu.edu.az/new/single_news/1528

- ADNSU mühəndislik sahəsində dünyanın ən yaxşı ali məktəbləri arasında 690-cı yerdədir: http://asoiu.edu.az/new/single_news/1343

- ADNSU-da Azərbaycan ali məktəblərinin Times Higher Education, Elsevier və Scopus ilə əməkdaşlığına həsr olunmuş görüş keçirilib: http://asoiu.edu.az/new/single_news/916

- ADNSU alimlərinin 40 məqaləsi Web of Science və Scopus konfransda uğur qazanıb: http://asoiu.edu.az/new/single_news/1402

- ADNSU-da universitetin 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfrans keçiriləcək: http://asoiu.edu.az/new/single_news/1231

- “Elsevier”-in nümayəndəsi ADNSU-da seminar keçib: http://asoiu.edu.az/new/single_news/448

- ADNSU-da “Open Science platformasının təbliği” layihəsi çərçivəsində seminar keçirilib: http://asoiu.edu.az/new/single_news/1563

- Clarivate Analytics şirkətinin nümayəndəsi ADNSU-da təlim keçib: http://asoiu.edu.az/new/single_news/1051
http://asoiu.edu.az/new/single_news/1945
http://asoiu.edu.az/new/single_news/1751
http://asoiu.edu.az/new/single_news/1702
http://asoiu.edu.az/new/single_news/1659
http://asoiu.edu.az/new/single_news/1612
http://asoiu.edu.az/new/single_news/1579
http://asoiu.edu.az/new/single_news/1802
http://asoiu.edu.az/new/single_news/1831

Strategiyada tədris prosesinin tədqiqatlarla üzvi şəkildə bağlılığı, praktik biliklərin verilməsinin diqqətdə saxlanılması, ASİİN, FİBBA tədqiqatların nəticələrinin tədrisdə nəzərə alınması xüsusi qeyd edilir.

Elmi-innovasiya fəaliyyətini əks etdirən strateji sənədin yerinə yetirilməsi üçün xarici tərəfdaş universitetlərlə daim müzakirələrin aparılması və birgə layihə proqramların yerinə yetirilməsi üçün mühüm müddəalar yer almışdır. Bunun üçün Türkiyə (Atatürk Universiteti,

Bilkend Universiteti, Eskişehir Osmangazi Universiteti), İngiltərə (Birmingem Universiteti), Ukrayna (UMEA-nın Yarımkeçiricilər Fizikası İnstitutu, Vasili Stefanyuk adına Prekarpat Milli Universiteti), Macarıstan (Zeged Universiteti), Hindistan (Jammu Universiteti) və s. ölkələrin universitetləri ilə elmi əməkdaşlıq imkanları mövcuddur və bu istiqamət prioritet hesab edilir. Strategiyada nəzərdə tutulan müddəlar həm akademik heyətin, həm də universitetin tərəfdaşları üçün tam açıqdır və əlçatandır.

Strategiyanın hazırlanması zamanı müvafiq işçi qrup yaradılmış, universitetin müvafiq kafedra, institutlarının fikirləri öyrənilmiş, dəfələrlə elmi şura və işçi iclaslarda müzakirə edilmiş əmək bazarı və sənayenin fikirləri diqqətdə saxlanılmış, universitet-sənaye əməkdaşlığına məxsusi əhəmiyyət verilmiş, tələbələrin maraqları nəzərə alınmış, həmçinin bütün maraqlı tərəflərin iştirakına şərait yaradılmışdır.

Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin (akademik heyət, sənaye nümayəndələri və s.) iştirak səviyyəsi, universitetin məqsədlərinə uyğun olaraq tədqiqat universitetinin yaradılması, tədqiqat potensialının artırılması, sahibkar universitet ideyasının reallaşması, universitet-sənaye əməkdaşlığının təmin olunması, texnopark və startap ekosisteminin yaradılması istiqamətində müddəalarda yer almış və prioritet olaraq müəyyən edilmişdir.

### 4.2. Tədqiqat resursları

Hesabat dövründə ADNSU-da Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən 1 elmi tədqiqat institutu, 2 elmi tədqiqat laboratoriyası, istiqamətlər üzrə sonradan formalaşmış müxtəlif elmi tədqiqat mərkəzləri və konstruktor bürosu fəaliyyət göstərmişdir. Həmin elmi tədqiqat mərkəzlərinin maddi texnoloji resursları tədqiqat məqsədlərinə uyğun olaraq istifadə olunmuşdur.

ADNSU-da professor-müəllim heyətinin sayı 2017/2018-ci tədris ilində 573, 2018/2019-cu tədris ilində 564 nəfər, 2019/2020-ci tədris ilində 571 nəfər, 2020/2021-ci tədris ilində 573 nəfər, 2021/2022-ci tədris ilində 563 nəfər, 2022-2023-cü tədris ilində 570 nəfər olmuşdur. Professor-müəllim heyəti aktiv elmi tədqiqatla işləri ilə məşğul olur.

ADNSU-da hesabat dövründə fəaliyyət göstərən elmi tədqiqat mərkəzləri və elmi tədqiqat laboratoriyalarında çalışan gənc əməkdaşlar və təhsil alan magistrantlar, doktorant və dissertantlar (2017/2018-ci tədris ilində 78 nəfər elmi-tədqiqat laboratoriyasının əməkdaşları (etl), 387 magistr, 73 doktorant 91 dissertant, 2018/2019-cu tədris ilində 73 nəfər etl, 512 magistrant, 94 doktorant 122 dissertant, 2019/2020-ci tədris ilində 72 nəfər etl, 574 magistrant, 105 doktorant 128 dissertant, 2020/2021-ci tədris ilində 68 nəfər etl, 855

magistrant, 131 doktorant 137 dissertant, 2021/2022-ci tədris ilində isə 23 nəfər etl, 1040 magistr, 151 doktorant 103 dissertant) aktiv şəkildə elmi tədqiqat işləri ilə məşğul olmuşlar.

Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının təmin olunması məqsədi ilə ADNSU-nun Əsaslı kitabxanasının bazası əsasında yaradılmş və 27.10.2018-ci ildən 24/7 rejimində fəaliyyət göstərən "AzİÎ e-Kitab Evi"nin imkanlarından istifadə edilir. "AzİÎ e-Kitab Evi" 19.06.2017-ci il tarixdən Azərbaycan Kitabxanalararası Konsorsiumun üzvüdür və "EBSCO" beynəlxalq nəşriyyat bazasına abunə olmuş və həmin bazanın universitet üzrə informasiya təminatçısıdır. 14 xarici universitetin elektron bazaları və arxivləri ADNSU-nun bütün professor-müəllim heyəti və Kitab Evinin oxucuları üçün açıq istifadədə olmuş, "AzİÎ e-Kitab Evi"nin oxucuları üçün "Data Turkey" məlumat bazasının resurslarına giriş imkanları əldə olunmuşdur.

ADNSU-da elmi-tədqiqat işlərini dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan yaradıcı elm kollektivlərinin elmi fəaliyyətini stimullaşdırmaq məqsədi ilə 2018 – 2022-ci illərdə ADNSU-nun professor-müəllım heyətinə veriləcək əlavə maaşların hesablanması üçün təlimat işlənib hazırlanmış və o təlimat universitetin Elmi Şurası tərəfindən təsdiq edilmişdir (27.12.2017-ci il tarixli, 05 №-li protokol). Professor-müəllım heyətinə yaradıcılıq fəaliyyətinə görə veriləcək əlavə maaşların hesablanması universitetin axtarış sistemi olan Elm-Təhsil Analitika Mərkəzi (ETAM) tərəfindən həyata keçirilir.

ADNSU-da 2017 – 2022-ci illər ərzində elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlir əldə edilməmişdir.

Hesabat dövründə ADNSU 580-dan çox müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində elmi əməkdaşlıq əlaqələri yaratmışdır. Yalnız 2022-ci ildə xarici ölkələrin yüzdən çox universiteti ilə əməkdaşlıq əlaqələri qurulmuş və 11 universitetlə memerandum imzalanmışdır: Türkiyə Respublikasının Konya Texniki, Orta Şərq Texniki, İstanbul Cerrahpaşa, Nəcməttin Erbakan (Konya), Gazi və Batman Universitetitetləri, Qazaxıstan Respublikasının Muxtar Əvəzov adına Cənubi Qazaxıstan Dövlət, Rusiya Federasiyasının Udmurt Dövlət, Monteneqro (Monteneqro) Universitetləri və Türkiyə Respublikasının Makvelsan ekektromekanik sanayi ve tic. ltd. şti., NETCAD Yazılım A.Ş.,TOO "İnternational Oil Services Kazakhstan" və s. şirkətilərdir.

"Neft-qaz mühəndisliyi" kafedrası Sankt-Peterburq Mədən Universiteti, Kazan Universiteti, İ.M.Qubkin adına Rusiya Dövlət Neft, Qaz Universiteti Stavanger Universiteti və s. ilə sıx əməkdaşlıq edir. ADNSU-nun 7 magistr tələbəsi Norveç krallığının Stavanger şəhəri tərəfindən onlayn qış məktəbi təşkil olunan kurslarda iştirak edəcəklər.

"Elektronika və Avtomatika" kafedrasının əməkdaşları Xarkov Milli Radioelektronika

Universiteti ilə sıx elmi əlaqə yaratmış, 2021-ci ilə qədər həmin universitetin təşkil etdiyi "MANUFACTURING & MECHATRONIC SYSTEMS" adlı illik Beynəlxalq konfranslarda iştirak etmişlər.

"Cihaz mühəndisliyi" kafedrası Antalya AKEV Universiteti (Türkiyə), Franche Comte Universiteti (Fransa), Qərbi Makedoniya Universiteti (Yunanıstan), Qdansk Universiteti (Polşa), Karabük Universiteti (Türkiyə), Norwegian University of Science and Technology (Norway) və s. kimi universitetlrin əməkdaşları ilə elmi əməkdaşlıq etmiş, birgə konfranslar, forumlar və seminarlar keçirmiş və gələcəkdə bu istiqamətdə əməkdaşlığın davam etdirilməsi planlaşdırılır.

ADNSU-nun əməkadşlıq etdiyi universitetlər sırasına Praktiki Materialların Tədqiqi Mərkəzi, BMEΦ (Belarusiya), Dubna birləşmiş nüvə tədqiqatları mərkəzi (Rusiya Federasiyası), Westlake Universiteti (Çin Xalq Respublikası), 9 Eylül Universiteti (Türkiyə), Polimer araşdırmaları mərkəzi (Almaniya) və s. daxildir.

ADNSU hesabat dövründə Türkiyənin İğdır Universiteti, İsparta Tətbiqi Elmlər Universiteti, Nişastası Üniversitesi, İstanbul Texniki Universiteti, Sakarya Universiti, Mersin Universiteti, Bilkent Universiteti, Eskişehir Texniki Universiteti, Koç Universiteti, Qəbzə Texniki Universiteti, Galatasaray Universiti, Çanakkale Onsekiz Mart Universiti, Selçuk Universiteti, Eskişehir Osmangazi Universiteti, Atatürk Universiteti, Batman Universiteti, Konya Texniki Universiteti, İstanbul Cerrahpaşa Universiteti, Nəcməttin Erbakan Universiteti, Gazi Universiteti, Orta Şərq Texniki Universiteti və s. kimi universitetlərlə ikitərəfli elmi-texniki əməkdaşlıq  qurulmuşdur.

Tədris prosesində innovativ təlim metodların tətbiqi, öyrənmə-öyrətmə metodologiyalarının inkişaf etdirilməsi məqsədilə Türkiyə Karabük Üniversitetinin Mühendislik fakültəsinin professoru Dr. Hacı Mehmet Kayılı "Recent Studies on Biomedical Engineering",  Qebze Texniki Universitetinin elmi işçisi Gözdə Yeşiltaş  "Development to combination of GelMa-Hyaluronic acid-Alginat structure for Bone Tissue" mövzuları üzrə çıxışlar etmişlər. 2022-ci ildə bu müqavilə çərçivəsində həm əyani, həm də onlayn formada ADNSU-nun gənc müəllimlərinə silsilə təlimlər verilmişdir.

ADNSU ilə Türkiyənin "Makvelsan" Şirkəti arasında müqavilə imzalanmışdır. Bağlanmış müqaviləyə əsasən ADNSU-da sənayedə istifadə olunan fontan armaturlarında siyirtmələrin istismar göstəricilərinin yüksəldilməsi məqsədiə işlənmiş və Ümid Babək Beynəlxalq Əməliyyat Şirkətində istehsal şəraitində uğurla sınaqdan çıxarılmış İSO keyfiyyət nişanlı yeni MMS100x65 siyirtməsinin "Makvelsan" şirkəti tərfindən fiziki modelinin istehsalına başlanmışdır.

TUBİTAK, BP, Türk Petrollar, METAK və s. şirkətlərlə görüşlər keçirilmiş, birgə layihələrin həyata keçirilməsi üçüm əməkdaşlıq imkanları müəyyən edilmiş, elmi və maddi-texniki bazanın inkişaf etdirilməsi, magistr və doktoroantura səviyyəsində dövrün tələbinə uyğun dissertasiya mövzularının müəyyən olunması və məzunların işlə təmin edilməsinə yönəldilən səmərəli əlaqələr qurmuşdur.

ADNSU və ATE NAU LTD arasında bağlanmış memarandium əsasında ABŞ-ın CRESTRON şirkətinin texniki dəstəyi ilə Əməkdar elm xadimi, professor İsa Abdullayev adına "Bina avtomatikası və intellektual idarəetmə sistemləri" laboratoriyası yaradılmışdır.
ADNSU və “İxun Lasertechnik GmbH” Şirkətinin təşkilatçılığı, texniki dəstəyi ilə ADNSU-da “Lazer” Mərkəzi yaradılmış, Ilk dəfə olaraq Müstəqil Dövlətlər Birliyi məkanında yaradılmış mərkəz, müxtəlif təyinatlı yeni örtük materialların alınması və aşınmaya məruz qalmış sənaye avadanlıqlarının işçi səthlərinin bərpasına imkan verən və dəyəri yüz min dollarla ölçülən müasir texnoloji avadanlıqlarla təchiz edilmişdir ki, bu da innovativ texnologiyaların tətbiqi sayəsində elmi tədqiqat işlərinin səviyyəsinə müsbət təsir göstərmişdir.

### 4.3. Elmi-tədqiqat fəaliyyəti

ADNSU tərəfindən son 5 il ərzində çoxsaylı konfranslar, elmi seminarlar görüşlər keçirilmişdir. Universitet tərəfindən 2017 – 2022-ci tədris illəri ərzində ümumilikdə 44 olmaqla 11 respublika və 33 beynəlxalq səviyyəli konfranslar keçirilmişdir. Son illərdə keçirilmiş Beynəlxalq səviyyəli konfransların bir qismi haqqında məlumat təqdim edilir:

- 2017-ci il martın 1-də ADNSU-da görkəmli alim İ.Quliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş konfrans;
- 2017-ci il aprelin 19 – 22-də ADNSU-da Avropa Yer Elmləri və Mühəndisləri Assosiasiyasının (EAGE) Azərbaycan bölməsi və Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin birgə təşkilatçılığı ilə Tələbə və Gənc Tədqiqatçıların Beynəlxalq Beynəlxalq Konfransı;
- 2017-ci il 24 – 25 avqust Kanadanın Alberta Universiteti, ABŞ-ın Texas Universiteti, Şimali Kiprin Yaxın Şərq Universiteti ilə birgə Macarıstanın Budapeşt şəhərində SOFT Kompyutinq, sözlə persepsiyalar ilə hesablama və onların sistemli təhlil, qərarqəbuletmə və idarəetmədə tətbiqi üzrə IX Beynəlxalq Konfrans;
- 2017-ci il 10 – 13 sentyabr tarixində ADNSU-da Sakarya Universiteti təşkilatçılığı ilə “Kimya elmləri və texnologiyaları” adlı III Beynəlxalq Ümumtürk konfransı.
- 05 – 11 dekabr 2017-ci il tarixində Tələbələrin 66-cı Elmi-Texniki Konfransı. http://asoiu.edu.az/new/single_news/332

- 19 – 20 aprel 2019-cu ildə Neftçi-Geoloqlar Cəmiyyəti ilə ADNSU-nun birgə təşkil etdiyi “Mükəmməl təhsil neft istehsalında uğurun açarıdır” adlı beynəlmiləl tələbə və gənc tədqiqatçıların beynəlxalq konfransı, Bakı.

- 1 – 2 İyul 2019-cu ildə “Modern İnformasiya, Ölçmə və Nəzarət Sistemlərinin Problemləri və Perspektivləri” mövzusunda I Beynəlxalq  konfrans keçirilib, Bakı.

- 27 – 28 avqust 2019-cu ildə Çexiyada “SOFT KOMPÜTİNQ, sözlə və persepsiyalar ilə hesablama və onların sistemli təhlili, qərar qəbuletmə və idarəetmədə tətbiqi” adlı X Beynəlxalq Konfrans keçirilmişdir.

- Türkiyənin Malatya şəhərində 21 – 22 sentyabr 2019-cu ildə İnönü Universiteti ilə ADNSU-nun birgə təşkilatçılığı ilə “Süni intellekt və məlumatların emalı” adlı beynəlxalq konfrans keçirilib.

- 2019-cu il dekabrın ayinda görkəmli alim Saleh Qocayevin anadan olmasının 120 illiyinə həsr olunmuş Tələbələrin 68-ci Elmi-texniki konfransı  keçirilib.

- Fourteenth International Conference on Applications of Fuzzy Systems, Soft Computing and Artificial Intelligence Tools, ICAFS-2020, august 27 – 28, 2020, Budva, Montenegro.

- 11 th “World conference on intelligent systems for industrial automation”, WCIS-2020 / November 26 – 28, 2020, Tashkent “Actual Problems of Chemical Engineering” International Conference dedicated to 100$^{th}$ Anniversary of Azerbaijan State Oil and Industry University. 24 – 25 december, 2020, Baku, Azerbaijan.

- MİMCS”2020 Second International Scientific-Practical Conference “Modern Information, Measurement and Control Systems: Problems and Perspectives” 7 – 8 december, 2020, Baku.

- International conference on "Reconstruction and recovery in post conflict situations-RRPCS” 25 – 26 february, 2021 Azerbaijan, Baku.

- 11$^{th}$ International Conference on Theory and Application of Soft Computing, Computing with Words and Perceptions ICSCCW 2021, Antalya, Turkey, 23 – 24 august.

- İkinci Beynəlxalq Elmi-Praktiki Konfrans: Müasir İnformasiya, Olçmə və İdarəetməSistemləri: Problemlər və  Perspektivləri, Azərbaycan, Bakı, 07 – 08 dekabr, 2021.

- International Conference on Research in Natural and Engineering Sciences (ICRNES 2021) Konya, Turkey.

- 3$^{rd}$ International Scientific and Practical Internet Conference, Ukraine, august 11 – 12, 2021, Dnipro.

- International Conference on Research in Natural and Engineering Sciences (ICRNES

2021). pp. 246-254. Konya. Turkey Konferansın rəsmi linki: https://www.insackongre.com/congress

- 5th International Iron & Steel Symposium, Turkey, Karabuk University, 2021.

- International Conference On “Reconstruction and recovery in post-conflict situations-rrpcs” 24 – 25 fevral 2021-ci il, Bakı.

- 1st UFAZ-ASOIU-UNISTRA scientific conference, 30 noyabr - 1 dekabr 2021. Bakı, 2021.

- II International Scientific and Technical Conference “Smart Energy Systems 2021” (SES-2021) 21 – 24 september 2021, Kazan, Krasnoselskaya 51, KSPEU.

- 15th International Conference on Applications of Fuzzy Systems, Soft Computing and Artificial Intelligence Tools, ICAFS-2022, Monte-Negro, avqust .

- 12th World Conference “Intelligent Systems for Industrial Automation”, WCIS-2022, Tashkent.

- 3-th International Conference: Modern Information, Measurement and Control Systems: Problems and Perspectives (MIMCS’2022), 06 – 07 november, Antalya, Turkey.

- Azərbaycan, Türkiyə, Fransa və Ukrayna universitetlərinin birgə təşkilatçılığı ilə. 2022. International Conference On “Reconstruction and Recovery in Post Conflict Situations-RRPCS”, february, 2022, Azerbaijan, Baku.

- First International Conference on 4th Industrial Revolution and information technology, may, 2022, Bakı.

- 2nd UFAZ-ASOIU-UNISTRA scientific conference, 2022, Bakı.

- Biltek-vi. Uluslararasi bilim, teknoloji ve sosyal bilimlerde güncel gelişmeler sempozyumu, Baku, 25 – 27 marts.

- “Theor Baku-2022” Beynəlxalq Elmi Konfransı 3 – 5 noyabr 2022–ci il.

- 6th International artificial intelligence & data processing symposium 08 – 09.09.2022, Malatya.

Hesabat dövründə təşkil edilmiş nüfuzlu beynəlxalq elmi konfransların sayı üzrə göstəricilərin dinamikasının müsbət xarakter daşıdığını görmək olar. Digər tərəfdən, həmin dövrdə universitetdə respublika səviyyəli çoxsaylı konfranslar da təşkil olunmuşdur. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və xarici ölkələrdən ümumilikdə 910 tədqiqatçılar iştirak etmişdir.

Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə 1130 gənc tələbə-tədqiqatçı iştirak etmişdir

ADNSU hesabat dövründə elm və təhsil sahəsində 10 yerli və 12 beynəlxalq olmaqla

ümumilikdə 22 qrant layihəsinin işlənilməsinə birbaşa olaraq cəlb olunmuşdur. Bunlardan Elmin İnkişaf Fondu, Horizon 2020 ERASMUS+MAGnUS proqramları və s. çərçivəsində həyata keçirilib. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilmiş, elmi əməkdaşlıq sahələri müəyyən edilmiş və geniş əməkdaşlıq şəbəkəsi qurulmuşdur.

- Karbohidrogen xammalının oksidləşdirici katalitik krekinqi (oksikrekinq). Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondu. 12 ay (01.05.2017 – 30.04.2018).

- Seysmik kəşfiyyat və quyu məlumatlarının kompleks emal və interpretasiyası ilə kollektorların neftlilik-qazlılığının proqnozlaşdırılması. Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondu. 24 ay (01.05.2017 – 30.04.2019).

- Qeyri-trivial topologiyaya malik maqnit aşqarlı yarımkeçiricilərin spin polyarlaşmış elektron strukturu, optik və köçürmə xassələri. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsi (EİF-BGM-4-RFTF-1/2017), 24 ay (2017 – 2019).

- Mikroelektronika üçün tərkibində nadir torpaq elementləri saxlayan tallium–bismut telluridləri əsasında yeni maqnit materialların sintezi, tədqiq və xassələrinin modelləşdirilməsi. 2-ci Azərbaycan-Belarus birgə qrant müsabiqəsi üzrə (EİF-BGM-3-BRFTF-2/2017), 24 ay (2017 – 2019).

- Cənubi Xəzər hövzəsində qaz hidratların yaranma şəraiti. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və AzərbaycannRespublikası Gənclər və İdman Nazirliyinin birgə təşkil edərək keçirdiyi Gənc alim və mütəxəssislərin 4-cü xüsusi – "Mənim ilk qrantım"- qrant müsabiqəsi (EİF/GAM-4-BGM-GİN-2017-3(29), 12 ay.

- "Bioetanoldan neft-kimya sənayesi üçün qiymətli kimyəvi maddələrin alınması". EİF/GAM-4-BGM-GİN-2017-3(29) Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkil edərək keçirdiyi Gənc alim və mütəxəssislərin 4-cü xüsusi – "Mənim ilk qrantım"- qrant müsabiqəsi (EİF/GAM-4-BGM-GİN-2017-3(29), 12 ay.

- "Azərbaycanda neft və qaz yata-qlarının quyu tədqiqatları üzrə vahid məlumat bazasının yaradılması" Avropa Birliyi: qrant EYR@EaP, 2018.

- Yeni sinif nanoquruluşlu, çoxfunksiyalı polimer əsaslı kompozitlərin neftçıxarmada, neftin nəqlində və kavitasiya zonalarının yuyulmasında istifadəsinin elmi əsaslarının işlənməsi və tətbiqi. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan edərək keçirdiyi Elmi-tədqiqat layihələri üzrə əsas qrant müsabiqəsi (EİF-

ETL-2020-2(36)), 12 ay.

- "İki qat rezin matrisalı kipləndiricili yeni model siyirtmələrin işlənməsi". Azrbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondu, 24 ay (2021 – 2022) .

- "İnsan-Kompüter İnterfeysləri" sahəsində "Təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi" Azərbaycan Respublikası Təhsil Nazirliyi "Ali və orta ixtisas təhsilinin 2021/2022-ci illər üzrə İnkişafı " Qrant layihəsi Təhsil Nazirliyi tərəfindən maliyələşdirilir.

- "Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsi" Fundamental və tətbiqi xarakterlielmi-tədqiqat layihələri müsabiqəsi. Qrant layihəsi: № EİF-GAT-6-2021-2(39)-3204) Layihənin adı "Yeni azometin əsaslı virus əleyhinə agentlərin dizaynı, Gaussian/Maestro proqramları ilə molekulyar səviyyədə tədqiqi və in vitro öyrənilməsi"

- 2019 – 2023-ci illəri əhatə edən "ERASMUS+ MAGnUS: Mobil tətbiqlərin hazırlanması və oyunların dizaynı üzrə magistr proqramı" - 598342-EPP-1-2018-1-SE-EPPKA2-CBHE-SP/MAGnUS qrant layihəsi.

- 2021 – 2024-cü illəri əhatə edən və 101021936 saylı Qrant Sazişi çərçivəsində Avropa İttifaqının Horizon 2020 tədqiqat və innovasiya proqramından maliyyəşən ELECTRON "rEsilient and seLf-healed EleCTRical pOwer Nanogrid" - H2020-SU-DS-2020/U-DS04-2018-2020 qrant layihəsi.

- 2021 – 2022-ci illəri əhatə edən Swedish Institute "Academic collaboration in the Baltic Sea region" proqramının 09229/2020 nömrəli CyberEdu qrant layihəsi. ADNSU-nun tərəfdaş olduğu "CAMPAİNG" (Citizens Acting on Mitigation Pathways through Active Implementation of a Goal-setting Network) layihəsinin koordinatoru Avstriyanın "Johannes Kepler" Universitetidir. Avropa İttifaqının Horizon 2020 tədqiqat və innovasiya proqramı Avropa tərəfindən maliyyələşdirilir. İcra müddəti 2021 may – 2024 aprel.

- Taif Universitetinin Tədqiqatlarına Dəstək (Taif, Səudiyyə Ərəbistanı) 2020 – 2022-ci il üçün qrant elmi-tədqiqat layihəsi (№ TURSP-2020/031).

- 2022-ci ili əhatə edən Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurası (TÜBİTAK proqramı 2221) tərəfindən dəstəklənən layihə.

ADNSU beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir.

Avropa Birliyinin HORİZON proqramı beynəlxalq tədqiqatlar üçün geniş imkanları təqdim edir. Eyni zamanda Erasmus+ 2021 – 2027 proqramı üzrə qrantlar ATM-lər üçün təhsilin inkişafı və mübadilə üzrə yeni perspektivlər yaradır. Bu səbəbdən mövcud

beynəlxalq proqramlar və qrantlar haqqında məlumatlar fakültə və kafedralara mütəmadi olaraq çatdırılır, təşviqat işləri aparılır. ADNSU-nun özünün hazırlayıb təqdim edəcəyi layihələrin sayının artırılması və akademik heyətinin layihə yazılmasına cəlb olunması istiqamətində fəaliyyətin daha da inkişaf etdirilməsi üçün işlər görülür.

ADNSU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində uğurlu işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb. Həmin proqramlar çərçivəsində müəyyən ixtisaslarda xarici uinversitetlərin tədris planları və fənləri mənimsənilib. Bu layihələr universitetə beynəlxalq birgə proqramların hazırlanması üzrə təcrübə qazandırmışdır. Eyni zamanda, hazırlanan birgə təhsil proqramları üzrə xarici universitetlərin beynəlxalq əmək bazarına cavab verən təhsil proqramları hazırlanma metodikası və məzmunu ADNSU tərəfindən mənimsənilərək bu prosesdə iştirak edən əməkdaşlara yeni bilik və bacarıqlar qazandırmışdır.

Bakalavr təhsil pilləsi üzrə 26 ixtisas və magistratura səviyyəsi üzrə 24 ixtisaslaşma üzrə ingilis dilində tədris aparılır. Xarici dil səviyyəsi tələbə və müəllimlər arasında qənaətbəxşdir, o cümlədən sertifikatlı müəllim və tələbələrin sayı artıb. Bu da tədrisin keyfiyyətinə və elmi məqalələrin nəşrinə müsbət təsirini göstərir. “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə tədris planlarına əsasən IV semestrdə nəzərdə tutulmuş imtahanlar  British Counsil-in nəzarəti altında APTİS və İELTS imtahanları səviyyəsində keçiriləcəkdir.

Professor-müəllim heyətinin xarici dil biliyi səviyyəsinin aşağı olması beynəlxalq əməkdaşlıqların genişlənməsi və daha çox əməkdaşın beynəlxalq proqramlardan yararlanması istiqamətində maneələr yaradır. Hal-hazırda universitetdə aparılan islahatlar çərçivəsində əməkdaşların xarici dil biliklərinin inkişaf etdirilməsi kafedraların qarşısına qoyulan prioritet məsələrdən biridir. Bu məqsədlə, müxtəlif vaxtlarda ADNSU-da “British Council” tərəfindən Aptis və IELTS imtahanları keçirilmişdir. 14 – 28 may 2022-ci il tarixlərində keçirilən Aptis imtahanları üçün ümumilikdə 1042 tələbə qeydiyyatdan keçmişdir. 28 May 2022-ci il tarixində keçirilən professor-müəllim və işçi heyəti üzrə isə 28 nəfər imtahanda iştirak etmişdir.

18.10.2022-ci il tarixindən 05.02.2023-cü il tarixinədək davam edən Aptis imtahanları üçün 1843 nəfər qeydiyyatdan keçmişdir. Onlardan 37 nəfəri professor-müəllim və işçi heyətidir. 24 – 25 və 29 dekabr 2022-ci il tarixlərində isə Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Təhsilin İnkişafı Fondu və 6 ali təhsil müəssisəsi arasında 28.10.2022-ci il tarixli “Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında” əməkdaşlıq müqaviləsi çərçivəsində “British Council” tərəfindən

ADNSU-da “IELTS” imtahanları təşkil edilmişdir. İmtahanda 90 nəfər iştirak etmiş və nəticə aşağıdakı kimi olmuşdur:

| İELTS | 5,0 | 5,5 | 6,0 | 6,5 | 7,0 | 7,5 | 8,0 | 8,5 |
|---|---|---|---|---|---|---|---|---|
| Tələbə sayı | 1 | 9 | 15 | 21 | 22 | 14 | 6 | 2 |

Avropa Birliyinin HORİZON proqramı beynəlxalq tədqiqatlar üçün geniş imkanları təqdim edir. Eyni zamanda Erasmus+ 2021 – 2027 proqramı üzrə qrantlar ATM-lər üçün təhsilin inkişafı və mübadilə üzrə yeni perspektivlər yaradır. Bu səbəbdən mövcud beynəlxalq proqramlar və qrantlar haqqında məlumatlar fakültə və kafedralara mütəmadi olaraq çatdırılır, təşviqat işləri aparılır. ADNSU-nun özünün hazırlayıb təqdim edəcəyi layihələrin sayının artırılması və akademik heyətinin layihə yazılmasına cəlb olunması istiqamətində fəaliyyətin daha da inkişaf etdirilməsi üçün işlər görülür.

Son 6 il ərzində 22 yerli və 8 beynəlxalq olmaqla, ümumilikdə 30 patent alınmışdır.

ADNSU-nun 25 ölkədən olmaqla, 100-dan çox universitetlə əməkdaşlıq müqaviləsi və memorandumu, Fransanın Starasburq universitetilə İkili diplom, tərəfdaşı olduğu, Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linkopinqs Universitetinin rəhbərliyi ilə icra olunan “Tərəfdaş universitetlərdə mobil tətbiqlərin və oyun dizaynı magistr proqramlarının hazırlanması (MAGnUS)” adlı Erasmus+ KA2 layihəsi çərçivəsində beynəlxalq təşkilatlarla müqavilələri mövcuddur.

Strategiyada tədris prosesinin tədqiqatlarla üzvi şəkildə bağlılığı, praktik biliklərin verilməsinin diqqətdə saxlanılması, ASİİN, FIBA tədqiqatlarının nəticələrinin tədrisdə nəzərə alınması xüsusi qeyd edilir.

Professor-müəllim heyətinin beynəlxalq peşəkar inkişaf proqramlarında iştirakı əksər hallarda universitetin qoşulduğu beynəlxalq qrant layihələri tərəfindən maliyyələşmiş və ADNSU tərəfindən dəstəklənmişdir. Erasmus+ KA2 proqramı çərçivəsində icra edilən layihələr çərçivəsində Avropa təcrübəsinin öyrənilməsi üçün ADNSU-nun tərəfdaşı olduğu, Avropa İttifaqının maliyyələşdirdiyi və İsveçin Linkopinqs Universitetinin rəhbərliyi ilə icra olunan “Tərəfdaş universitetlərdə mobil tətbiqlərin və oyun dizaynı magistr proqramlarının hazırlanması (MAGnUS)” adlı Erasmus+ KA2 layihəsi çərçivəsində ADNSU-da “Təlimçilər üçün təlim” vörkşopu təşkil edilmişdir.

ADNSU-nun tədqiqatçı alimlərinin müxtəlif elmi şəbəkələrə çıxışı bilavasitə yüksək elmi jurnallarda dərc olunma və müxtəlif layihələrdə iştirakı vasitəsilə əldə edilir. Bu eyni zamanda Avropa İttifaqı tərəfindən maliyyələşən layihələr çərçivəsində də aparılır. Ali təhsil layihələrinin yerinə yetirilməsi zamanı da tədqiqat komponenti nəzərə alınır.

Tədqiqat işlərinin nəticələrinin tədris metodiki vasitələrdə istifadəsi qismən nəzərə alınır. Belə ki, dissertasiyanın nəticələrinin tədris prosesində istifadəsi üçün müvafiq strukturların – kafedra, fakültələrin uyğun mütəxəssislərinin tövsiyəsi ilə qərar qəbul edilir. Professor-müəlim heyətinin tədqiqatlarının metodoloji prinsipləri tədris zamanı nəzərə alınır. Tədqiqatçılar tərəfindən 2017 – 2022-ci tədris illərində nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikasına nəzər yetirsək, hətta pandemiya dövründə belə, onun yüksən xətt üzrə dəyişdiyini, müsbət xarakter daşıdığını görərik.

| Tədris illəri | Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası |
|---|---|
| 2016/2017 | 435 |
| 2017/2018 | 651 |
| 2018/2019 | 905 |
| 2019/2020 | 1840 |
| 2020/2021 | 2299 |
| 2021/2022 | 2395 |

ADNSU-da tədqiqat yönümlü fənlərin magistratura səviyyəsində artırılması və dissertasiyaların yerinə yetirilməsini dəstəkləmək məqsədilə tədris planları yenilənmiş və hazırda həmin planlar üzrə tədris aparılır. Dissertasiya mövzularının müəyyən edilməsi konkret sənayedə olan problemlər üzərində qurulur.

Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün ADNSU-da 2022-ci ilin fevral-mart aylarında YUNESKO-nun təşkilatçılığı ilə Qaz-Neft-Mədən Təhsili üzrə Beynəlxalq Kompetensiya Mərkəzi və Sankt-Peterburq Mədən Universiteti distant şəkildə qısamüddətli təhsil proqramlarının keçirilməsi ənənəsini davam etdirilmişdir. Bu universitenin professor-müəllim heyəti neft-qaz mühəndisliyi ixtisası üzrə onlayn təlim keçmiş və ADNSU-nun professor-müəllim heyəti təlimdə iştirak etmişdir.

ADNSU ilə Azərbaycan Layihələrin İdarəedilməsi Assosiasiyasının (AzPMA) əməkdaşlığı çərçivəsində təşkil edilən “Layihələrin idarə olunması” mövzusunda təlimlər 3 istiqamətdə (“Ali təhsil müəssisələrində layihələrin idarəedilməsini sistemləşdirmək və effektivliyi artırmaq”, “Ali təhsil müəssisələrinin tələbələrinin layihə menecmentinə maraqlarını stimullaşdırmaq və onları beynəlxalq bilik və təcrübə mübadiləsi sisteminə inteqrasiya etmək”, “Ali təhsil müəssisələrində layihə menecmenti kursunun müasir tələblərə uyğun olaraq keyfiyyətini artırmaq”) təşkil edilib.

2017 – 2022-ci illər üzrə 1028 nəfər davam edən doktorant və ya dissertant təhsil alır, və hazırda daimi ştatda pedaqoji və elmi-tədqiqat fəaliyyətinə cəlb olunub. Doktorantlardan 80 nəfəri müvafiq kafedralarda fəaliyyət göstərir.

Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti orta hesabla (14 – 22)% ətrafında olmuşdur.

| İllər | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 |
|---|---|---|---|---|---|---|
| Professor-müəllim heyətinin ümumi sayı | 573 | 564 | 571 | 579 | 563 | 571 |
| Elmlər doktoru | 66 | 71 | 64 | 64 | 53 | 47 |
| Professor | 50 | 50 | 47 | 48 | 34 | 31 |
| Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti | 20,2 | 21,5 | 19,4 | 19,3 | 15,5 | 13,7 |

Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti cədvəl şəklində təqdim olunur. Verilmiş məlumatlar analiz olunaraq bu nisbətin hesabat dövrü ilə eyni olması müşahidə olunmuşdur.

| İllər | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2021 | 2022/ 2023 |
|---|---|---|---|---|---|---|
| Professor- müəllim heyətinin ümumi sayı | 573 | 564 | 571 | 579 | 563 | 571 |
| Elmi dərəcəsi olan əməkdaşların sayı | 348 | 321 | 332 | 331 | 306 | 324 |
| Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti | 0,61 | 0,57 | 0,58 | 0,57 | 0,54 | 0,58 |

ADNSU-da fəaliyyət göstərən 5 Dissertasiya Şurasında 14 ixtisas üzrə elmi kadr hazırlığı həyata keçirilir. İxtisasların hamısı ADNSU-nun mütəxəssi hazırlığına tam uyğundur. Eyni zamanda elmi dərəcələrin verilməsi ADNSU-nun elmi-tədqiqat istiqamətlərinə və bu sahədə qarşıya qoyduğu hədəflərə tam uyğundur. Hesabat dövründə D.02.02 Dissertasiya Şurasında 4 ixtisas üzrə, ED.02.03 Dissertasiya Şurasında 3 ixtisas üzrə, ED 2.04 Dissertasiya Şurasında 3 ixtisas, ED 2.33 Dissertasiya Şurasında 2 ixtisas üzrə, FD 2.22 Dissertasiya Şurasında isə 2 ixtisas üzrə müdafiələr təşkil olunmuşdur. ADNSU nəzdində fəaliyyət göstərən Dissertasiya şuralarının və ixtisaslarının hamısı universitetin tədqiqat istiqamətlərinə və profilinə uyğundur.

ADNSU-da elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi məsələsi Elm-Təhsil Analitik Mərkəzi tərəfindən həyata keçirilir. Bu sistem vasitəsilə universitetin hər bir müəlliminin elmi tədqiqat fəaliyyətinin monitorinqini, tərtib edilən siyahı vasitəsilə professor-müəllim heyətinin qiymətləndirilmə prosesi aparılılır. Hazırda universitetdə həmin sistemin imkanlarında geniş istifadə edilir.

### 4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

ADNSU müəllif hüquqlarının qorunması və sistemli təşkili üçün 2015-ci ildən "Plagiat.pl" MMC şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə əməkdaşlıq müqaviləsi bağlayıb və bu günədək əməkdaşlığı davam etdirir. Plagiat.pl MMC təklif etdiyi "Strikeplagiarism" proqram təminatı ilə ADNSU-da yerinə yetirilən elmi işlərin və tədris vəsaitlərinin orjinallığının təmin edilməsi və onların hazırlanmasında elmi plagiat hallarının qarşısının alınması prosedurları müəyyən edilir. Antiplagiat sistemi vasitəsilə yoxlanılan işlər ADNSU-nun öz bazasında olan 20611 elmi iş, Plagiat.pl MMC ilə müqavilə bağlaməş digər müəssisələrin bazasında olan elmi işlər və inretnet üzərindən yoxlanılır. Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması məqsədi ilə elmi plagiat hallarına qarşı mübarizə QAYDALARI hazırlanmış və Elmi Şuranın 01-I/36 nömrəli, 20.10.2015-ci il tarixli əmri ilə təsdiq edilmişdir. Universitetin antiplaqiat sistemi təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini tam əhatə edir. Bakalavr, magistr və dissertasiya işləri müdafiəyə çıxarılmağa 1 ay qalmış yoxlanılır, dərslik, dərs vəsaiti, monoqrafiya və digər elmi əsərlər, həmçinin elmi-metodiki şuraya təqdimatan əvvəl plagiat yoxlanılışı edilir. İllik təqribən 3000 elmi əsərin yoxlanılması prosesi həyata keçirilir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1. İdarəetmə orqanları

ADNSU-nun idarə edilməsi ilə bağlı məsələlər unuversitetin Nizamnaməsinin 4-cü bəndinə əsasən tənzimlənir.

ADNSU-nun nizamnaməsinə əsasən onun ali idarəetmə orqanı Elmi Şuradır. Universitetin Elmi Şurasının yaradılması və fəaliyyəti Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli, 792 nömrəli əmri ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrinin Elmi şurası haqqında Əsasnamə" və ADNSU-nun nizamnaməsi ilə tənzimlənir. Elmi Şuranın tərkibi ali təhsil müəssisəsi tərəfindən Elm və Təhsil Nazirliyinin göstərişinə əsasən yaradılır və təsdiq olunur. ADNSU-da Elmi Şuranın tərkibi 60 nəfərdən ibarətdir. Elmi Şuranın iclasları elmi şura üzvləri və müzakirə olunan məsələlərdən asılı olaraq maraqlı tərəflərin iştirakı ilə keçirilir.

ADNSU-nun nizamnaməsinin 4.6-cı bəndinə əsasən universitetin strateji məsələlər üzrə idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Himayəçilər Şurasıdır. Himayəçilər Şurasının tərkibi ARETN tərəfindən təsdiq edildikdən sonra fəaliyyətə

başlayacaqdır.

Universitetin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad olunan rektor rəhbərlik edir. ADNSU-nun prorektorları rektorun təqdimatı əsasında ARETN tərəfindən təyin edilir.

Hazırda ADNSU-da tədris işləri, elmi işlər, beynəlxalq əlaqələr, tərbiyə işləri, inzibati-təsərrüfat işləti və ümumi işlər üzrə olmaqla 6 prorektor fəaliyyət göstərir.

Universitetin tədris, elm və inzibati bölməsi olan fakültələr eyni sahə və istiqamət daxilindəki bir və ya bir-birinə yaxın olan bir neçə ixtisas üzrə bakalavr və magistr hazırlanmasını həyata keçirir, eləcə də elmi-tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir. Fakültəyə ümumi rəhbərlik, tərkibi və səlahiyyətləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10.11.1997-ci il tarixli, 794 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin fakültə Elmi Şurası haqqında Əsasnamə” ilə tənzimlənən fakültə elmi şurası tərəfindən həyata keçirilir.

Fakültəyə rəhbərlik, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın təsdiq edilməsi barədə 18-1 nömrəli, 20.12.2017-ci il tarixli Qərarının tələbləri gözlənilməklə bu vəzifəyə təyin edilmiş dekan tərəfindən həyata keçirilir.

Universitetin əsas tədris-elm struktur bölməsi olan kafedra bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodiki, elmi-tədqiqat işlərinin yerinə yetirilməsini, elmi-pedaqoji və elmi işçilərin hazırlanmasını və tələbələr arasında tərbiyə işlərini həyata keçirir. Kafedraya Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın təsdiq edilməsi barədə 18-1 nömrəli, 20.12.2017-ci il tarixli Qərarının tələbləri gözlənilməklə bu vəzifəyə təyin edilmiş kafedra müdiri rəhbərlik edir.

Universitetdə elmi-pedaqoji, mühəndis-texniki, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur. Bu vəzifələrə təyin olunma Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın

təsdiq edilməsi barədə 18-1 nömrəli, 20.12.2017-ci il tarixli Qərarı və digər qanunvericilik aktlarının tələbləri gözlənilməklə rektor tərəfindən həyata keçirilir.

ADNSU-nun Elmi Şurasında universitetin Tələbə Gənclər Təşkilatının (TGT) sədri, Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri, Tələbə Elmi Cəmiyyətinin sədri (TEC) təmsil olunur.

ADNSU-da Tələbə Gənclər Təşkilatı Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının 15.02.2005-ci il tarixli "Azərbaycan Respublikasında bütün ali və orta ixtisas təhsil müəssisələrində gənclər və tələbələrlə işin təkmilləşdirilməsi məqsədi ilə Tələbə Gənclər Təşkilatları yaradılması haqqında" Sərəncama əsasən 2005-ci ildə təsis edilmişdir. Təşkilatın əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində tələbələrin və ayrı-ayrılıqda hər bir tələbənin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai, mədəni, sosial, iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir. Hazırda ADNSU-nun bütün tələbələri Tələbə Gənclər Təşkilatının (TGT) üzvüdür.

ADNSU-nun TGT Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGT) əsasnaməsinə uyğun fəaliyyət göstərir. ATGT-nin əsasnaməsinə uyğun olaraq TGT sədri universitet elmi şurasının, fakültə TGT sədri isə fakültə elmi şurasının üzvüdür. TGT-nin sədri tələbələrin seçkisi əsasında təyin olunur. Sədr ADNSU-nun Elmi Şurasının iclaslarında mütəmadi iştirak edərək tələbələrlə bağlı məsələləri diqqətə çatdırır. Universitetin Tələbə Gənclər Təşkilatı öz fəaliyyəti barədə dövri olaraq universitet rəhbərliyi və ATGT rəhbərliyinə hesabat verir.

ADNSU-nun THİK Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar Təşkilatının (ATİAHT) nizamnaməsinə müvafiq funksiyaları yerinə yetirir. THİK-in sədri də Elmi Şuranın iclaslarında iştirak etməklə tələbələri maraqlandıran məsələləri diqqətə çatdırır. Sədr dövri olaraq fəaliyyəti barədə universitet rəhbərliyi və ATİAHT-nin rəhbərliyinə hesabat verir.

Universitetin ali idarəetmə orqanı olan Elmi Şurasının iclasları təsdiq olunmuş iş planına əsasən keçirilir. Növbəti tədris ili üçün Elmi Şuranın iş planı hər tədris ilinin son Elmi Şurasında təsdiq olunur. Tədris ilinin son Elmi Şurasında rektor fəaliyyətinin bütün sahələri üzrə hesabat verir.

Universitetin Elmi Şurasında gündəliyə əsasən nəzərdə tutulan çıxışlar, məsələlərin müzakirə olunması və qərarların verilməsi reqlamenti proseduru mövcuddur. Universitet rəhbərliyinin qərarları, universitetdə keçirilən tədbirlər, xüsusi günlər, elanlar və xəbərlər universitetin veb-saytında və rəsmi sosial şəbəkə hesablarında mütəmadi olaraq paylaşılır. Zəruri sənədlər (əmrlər, daxil olan məktublar, daxili yazışmalar, rəhbərliyin qərarları və s.) operativlik məqsədilə korporativ e-mail vasitəsilə aidiyyəti əməkdaşlara göndərilir.

İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, 2017-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) İctimai Etimad Şurası yaradılıb. Şuranın üzvləri ictimai proseslərdə kifayət qədər aktiv iştirak edən, gənclərin inkişafında rol oynayan və xüsusilə ali təhsil müəssisələri ilə sıx əlaqələri olan, eyni zamanda ictimaiyyət arasında tanın şəxslərdir. Şura üzvləri ümumi qaydalara əsasən səvermə ilə seçilib və aşağadakılardır:

- Aydın Mirzəzadə – Millət vəkili, YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri;
- Hikmət Babaoğlu – Millət vəkili;
- Etibar Əliyev – Millət vəkili, təhsil eksprti;
- İlham Şaban – Neft Araşdırmalar Mərkəzinin rəhbəri;
- Səadət Məmmədova – Azad Azərbaycan Televiziyası (ATV) prezidentinin İnformasiya yayımı üzrə müşaviri;
- Sahib Məmmədov – Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri;
- Zəhra Bədəlbəyli – şairə, aktrisa, pianoçu;
- Aynur Quliyeva Camal qızı – “Gündəlik Teleqraf” MMC-nin direktoru, publika.az və teleqraf.com saytlarının rəhbəri;
- Bəhruz Nəzərov – ADNSU İctimaiyyətlə Əlaqələr və Marketinq Departamentinin direktoru;
- Nərminə Əliyeva – ADNSU-nun elmi katibi;
- Məzahir Babayev – ADNSU Həmkarlar İttifaqı Komitəsinin sədri.

İctimai Etimad Şurasının iclasları və yığıncaqları fəaliyyət planına uyğun olaraq, hər il müntəzəm şəkildə keçirilir. Yarandığı zamandan etibarən Şura üzvləri universitetdə görülən işlərdə, ümumi proseslərdə yaxından iştirak edib. Tələbələrin təklifləri və istəkləri ilə daim maraqlanıb, onlarla görüşlər keçiriblər. Eyni zamanda ADNSU-nun İctimai Etimad Şurası universitetdə hər semestr imtahan prosesini izləyir.

İctimai Etimad Şurasının apardığı müşahidələrin qiymətləndirilmə mexanizmi və dövrü hesabatları barədə məlumat ADNSU-nun rəsmi internet səhifəsində yerləşdirilmişdir:

http://asoiu.edu.az/new/single_news/385

http://asoiu.edu.az/new/single_news/564

http://asoiu.edu.az/new/single_news/392

http://asoiu.edu.az/new/single_news/759

http://asoiu.edu.az/new/single_news/919

http://asoiu.edu.az/new/single_news/1117
http://asoiu.edu.az/new/single_news/1314
http://asoiu.edu.az/new/single_news/1547
http://asoiu.edu.az/new/single_news/1736

İctimai Etimad Şurasının fəaliyyəti tam şəffaf şəkildə təşkil edilmiş, aparılan müşahidələrin nəticələri barədə ADNSU rəhbərliyinə tövsiyə və təkliflər bildirilmiş və fəaliyyətin təkmilləşdirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

Hesabat dövründə elektron sənəd dövriyyəsi tətbiq edilmədiyi üçün daxili sənəd dövriyyəsi kağız daşıyıcıda aparılmışdır. Universitetdə Elektron sənəd dövriyyəsinə keçid 05.01.2023-cü il tarixində tam başa çatmışdır (esd.e-gov.az).

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü struktur bölmələrin əsasnamələrinə və vəzifə təlimatlarına əsasən aparılır.

ADNSU-nun Elmi Şurasının qərarı ilə yaradılan müxtəlif komissiyalar tərəfindən:

- Bütün struktur bölmələri üzrə analizlər həyata keçirilir, analizin nəticəsinə əsasən cari vəziyyət təhlil edilir və təkmilləşdirilmə barədə müvafiq təkliflər hazırlanır;
- Universitet əməkdaşlarının fəaliyyət istiqamətləri üzrə iş təhlilləri aparılır;
- Əməkdaşların xidməti fəaliyyətinin qiymətləndirilməsi məqsədilə vəzifə funksiyaları üzrə ölçü meyarları hazırlanmış və tətbiq edilir;
- Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində işçilərin təlim ehtiyacları müəyyən edilir, nəticəyə əsasən təlim planı barədə təklif hazırlanır;
- Təlim prosesinin monitorinqini həyata keçirir və təlimlərin keyfiyyətinin qiymətləndirilməsi üzrə tədbirləri yerinə yetirir;
- Universitet əməkdaşlarının performans göstəricilərinə əsasən karyera inkişafını təşkil edir.

İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi haqda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən universitetdə nəticəyönlü və şəffaf idarəetmə modelinin, strateji idarəetmənin tətbiqi mexanizmlərinin yaradılması, maraqlı tərəflərin (TGT, THİK, İctimai Etimad Şurası və s.) nümayəndələrinin iştirakı, ADNSU-nun idarə olunmasının davamlı təkmilləşdirilməsini şərtləndirmişdir.

## 5.2. İnsan resurslarının idarə edilməsi

Universitetdə Elmi Şura tərəfindən təsdiq edilmiş "ASDNSU-nun müxtəlif struktur bölmələrinə işçi qəbulunun 2 pilləli sistem əsasında aparılması qaydaları" mövcuddur.

Qaydalar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ aktlarına, “ADNSU-nun Nizamnaməsi”nə və bu sahədə mövcud olan qabaqcıl beynəlxalq və yerli təcrübəyə uyğun olaraq hazırlanmışdır. Bu Qaydalar universitetin strategiyasına əsasən mövcud olan vakant iş yerlərinə potensial namizədlərin müəyyən edilməsi, seçilməsi, yoxlanılması, işə qəbulu və işdən azad edilməsi proseslərini tənzimləyir. Universitetdə işə qəbul və işdən azad olunma proseslərində qanunauyğunluq, bərabərlik, qərəzsizlik, şəffaflıq və aşkarlıq prinsipləri rəhbər tutulur. Universitetin tələbə və məzunlarının, eyni zamanda elan olunmuş müvafiq vəzifələr üzrə müraciət edən namizədlərin tərcümeyi-hallarından (CV) təşkil olunan universitetin CV bazası mövcuddur.

ADNSU-da seçkili vəzifələrin tutulması Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları”na və digər normativ-hüquqi aktlara əsasən keçirilir. Seçkinin nəticələrinə uyğun olaraq, yalnız sənədləşdirmə işləri Kadrlar şöbəsi tərəfindən aparılır.

Strateji inkişaf planının məqsədi fəaliyyətinin bütün sahələrində maksimum nəticələrin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, şöbələrin və əməkdaşların əlaqələndirilməsinin yüksəldilməsi, universitetin idarə edilməsi sisteminin optimallaşdırılmasıdır. Hazırda universitetdə akademik heyət və tədris-köməkçi heyətin rəhbərlik və inzibati heyətə nizbəti 2,4:1 təşkil edir.

Universitetdə 2016/2017-ci tədris ilindən tam elektron universitet sisteminə keçidlə əlaqədar olaraq, İnformasiya Texnologiyaları Departamenti tərəfindən professor-müəllim heyətinin informasiya texnologiyaları sahəsində bilik və peşə bacarıqlarının qiymətləndirilməsi aparılmış, zəif biliyə malik əməkdaşlar üçün sistemli təlimlər təşkil edilmişdir.

British Council-in əməkdaşlarının cəlb olunması ilə “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənnini tədris edən müəllimlərin qiymətləndirilməsi aparılmış, onalrın xarici dil biliklərinin kifayət dərəcədə olmadığı müəyyən olunmuş, buna əsasən onlar üçün xarici dil kursları təşkil edilmişdir. Bundan sonra ADNSU-nun Elmi Şurasının 24.11.2021-ci il tarixində keçirilmiş iclasda universitetdə xarici dilləri tədris edən müəllimlərin attestasiyasının keçirilməsi qərara alınmışdır. Attestasiyanın məqsədi – hər bir xarici dili tədris edən müəllimin fəaliyyətinin qiymətləndirilməsi, tutduğu vəzifəyə uyğunluğunun müəyyən edilməsi, habelə onun vəzifə üzrə gələcək yüksəlişi üçün kifayət qədər hazırlıq səviyyəsinin müəyyən edilməsi məqsədilə onun ixtisas və peşəkarlıq səviyyəsinin müəyyən

edilməsi idi. Attestasiya prosesində hər bir xarici dil tədris edən müəllimin peşəkarlıq səviyyəsi onun biliyinin, peşəkar bacarığının, əmək potensialının müəyyən edilməsi və peşəkar fəaliyyətinin effektivliyinin müəyyən edilməsi yolu ilə qiymətləndirilirdi. 2022-ci ildə keçirilmiş attestasiyanın nəticəsinə əsasən 7 müəllim ilə bağlanmış əmək müqaviləsinə xitam verildi.

Elmi Şuranın 27.10.2021-ci il tarixli iclasında “2022 təqvim ili müddətində elmi və tədris-metodiki işçilərin attestasiyadan keçirilməsi, bəzi vəzifələrin adlarının dəyişdirilməsi barədə” qəbul edilmiş qərara uyğun olaraq, Elmi işlər üzrə prorektorun sədrliyi ilə Attestasiya Komissiyası yaradılmış və 2022-ci ildə əməkdaşların attestasiyası aparılmışdır.

Universitetdə işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sistemi mövcuddur. Mövcud əmək haqqı sisteminə ildə bir dəfədən az olmayaraq yenidən baxılır və dəyişikliklər edilir. ADNSU-da işçilərin kollektiv və fərdi motivasiyası və mükafatlandırılması vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsinə, səmərələşdirici təkliflər verilməsinə, təşəbbüskarlıq göstərilməsinə, işdə yeni forma və metodların tətbiqi, gənc mütəxəssislərə lazımi köməklik göstərilməsinə, rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə, normativ hüquqi aktların layihələrinin hazırlanmasında və qəbul edilməsində fərqlənmələrinə əsasən həyata keçirilir.

Universitetdə heyətin qiymətləndirilməsini ETAM həyata keçirir. Mərkəz universitet əməkdaşlarının fəaliyyət səmərəliliyinə təsir edəcək amillərin müəyyənləşdirilməsi məqsədilə bütün heyət üzrə anket sorğuları aparır, bütün struktur bölmələri üzrə analizlər həyata keçirir, analizin nəticəsinə əsasən cari vəziyyəti təhlil edir və təkmillləşdirilməsi yönündə müvafiq təkliflər hazırlayır. ETAM 2023-cü ildən başlayaraq professor-müəllim heyətinin hər il üçün müxtəlif göstəricilərə əsasən (tədris metod və formaları, şəristə və bacarıqları, xarici dil bilikləri, elmi-pedaqoji fəaliyyəti, yüksək reytinqli beynəlxalq jurnallarda çap olunan məqalələrinin, dərsliklərinin, dərs vəsaitlərinin sayı və s.) reytinq sıralamasını tərtib edəcəkdir. Reytinq sıralamasında ilk 100 yeri tutan professor-müəllim heyətinə əlavə maaşın verilməsi planlaşdırılır.

Universitet əməkdaşlarının fəaliyyət istiqamətləri üzrə iş təhlilləri aparır. Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi məqsədilə vəzifə funksiyaları üzrə ölçü meyarları hazırlayır və tətbiq edir. Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində işçilərin təlim ehtiyacları müəyyən edilir, nəticəyə əsasən təlim planlaması təklifi hazırlanır. Təlim prosesinin monitorinqi həyata keçirilir və təlimlərin keyfiyyətinin qiymətləndirilməsi üzrə tədbirlər yerinə yetirilir. Universitet əməkdaşlarının

preformans göstəricilərinə əsasən karyera yüksəlişi həyata keçirilir.

Əmək və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20.12.2017-ci il tarixli, 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın və digər qanunvericilik aktlarının tələbləri nəzərə alınır.

### 5.3. Maliyyə resurslarının idarə edilməsi

Universitetin maliyyə resursları dövlət sifarişi ilə və ödənişli əsasda təhsil alanların təhsil haqqından, elmi-tədqiqat layihələrindən, qrantlardan və s. formalaşır. Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırılması Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nəzarəti ilə həyata keçirilir və 3 aylıq prioritet xərclərin rezervi saxlanılmaqla, 1, 3, 5 illik smetalar hazırlanaraq təqdim edilir. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətləri müəssisənin SİP-na uyğun olaraq hazırlanır.

ADNSU-nun əlavə maliyyə resursları:

1. ERASMUS - MAGNUS - DEVELOPING MASTER'S PROGRAMMES IN MOBILE APPLICATIONS AND GAME DESIGN AT PARTNER UNIVERSITIES.

Project Reference: 598342-EPP-1-2018-1-SE-EPPKA2-CBHE-JP/MAGnUS.

2. ERASMUS UNILAB – From University to Labour Market in the 21st Century: A step forward in work-based placements. Project Reference 610245-EPP-1-2019-BE-EPPKA2-CBHE-JP.

3. ERASMUS - WORK4CE: Cross-domain competences for healthy and safe work in the 21st century. Project Reference: 619034-EPP-1-2020-1-UA-EPPKA2-CBHE-JP.

4. HORIZON – CAMPAIGNers (Citizens Acting on Mitigation Pathways through Active Implementation of a Goalsetting Network, European Union's Horizon 2020 research and innovation programme, grant agreement No 101003815[1]).

5. "ELECTRON rEsilient and seLf-healed EleCTRical pOwer Nanogrid" Avropa İttifaqının Horizon 2020 elmi tədqiqat layihəsi.

6. CYBEREDU - (Creation of Sustainable Cybersecurity Education Network) – Project of Swedish Institute.

Maliyyə resurslarından istifadə universitetin Nizamnaməsinə uyğundur. Gəlir və xərclərin uçotu müvafiq struktur bölmələri tərəfindən hazırlanmış və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş smetaya uyğun olaraq aparılır.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetası hər ilin sonunda hazırlanır, rəhbərlik tərəfindən təsdiq edilərək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir. Ehtiyac yaranarsa il ərzində dürüstləşdirilmiş büdcə smetası hazırlanaraq təqdim edilir. Büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurları universitetin Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. Maliyyə resurslarından təyinatı üzrə istifadəyə cari nəzarət universitetin müvafiq strukturları tərəfindən həyata keçirilir, eyni zamanda maliyyə resurslarından təyinatı üzrə istifadəsinə dair Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə rüblük hesabatlar təqdim olunur.

ADNSU-da malların satın alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun təşkil edilir. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları "Dövlət satınalmaları haqqında", "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunlarının, Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq aparılır.

Universitetdə maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq hesabat dövründə tərtib olunur və aidiyyəti orqanlara (İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Statistika Komitəsinə, Elm və Təhsil Nazirliyinə və s.) təqdim olunur. Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq hesabat dövründə tərtib olunur və aidiyyəti orqanlara (vergi, statistika, nazirlik və s.) təqdim olunur.

Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilir, lakin dərc olunmur. Universitetdə daxili nəzarət tədbirləri həyata keçirmək üçün dövri olaraq komissiya təşkil olunur. Həmin komissiya tərəfindən maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə nəzarət tədbirləri həyata keçirilir. Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar audit xidmətindən istifadə edilməmişdir.

### 5.4. İnformasiya idarəetmə sistemi

ADNSU-da xidmətlərin göstərilməsi və proseslərin idarə olunması üçün fərqli modullardan ibarət informasiya idarəetmə sistemi mövcuddur. İnformasiya idarəetmə sisteminin əsasını – mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi, tədrisin elektron idarəolunması, kitabxana, universitet rəhbərliyi ilə görüş və əks əlaqə, mühasibatlıq və

təhcizatın idarə olunması, akt zalının bron edilməsi, plagiat proqram təminatı, turniket, mərkəzləşdirilmiş mail, dərs cədvəllərinin tərtib edilməsi, tələbə-məzun bazası və məzun-karyera və digər sistemlər təşkil edir.

ADNSU-da mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi sistemi kimi ASAN xidmətin təqdim etdiyi http://esd.e-gov.az/ portalından istifadə olunur. Bu sistemin istifadəsinə ADNSU-nun Elmi Şurasının qərarı ilə 05.01.2023 tarixindən başlanılmışdır. Sistem bütün struktur bölmələri əhatə edərək universitetin bütün sənəd dövriyyəsini özündə ehtiva edir.

Neyron şirkəti ilə ADNSU arasında bağlanmış 05.01.2017-ci il tarixli müqaviləyə əsasən Unibook brend adı ilə tədrisin elektron idarə olunması sistemi istifadə olunur. Sistemdə Elm və Təhsil Nazirliyinin tədrisin təşkili və idarə olunması qaydalarına əsasən ADNSU-nun tədris prosesi tənzimlənir. İstifadə üçün universitetin rəsmi veb səhifəsində xidmətlər bölümündən http://lms.adnsu.az/ linkindən istifadə olunur.

Başlanğıc mərhələ olaraq universitetin rəqamsal mühitə transformasiyası üçün aşağıda sistemləri qeyd etmək olar:

- Rəsmi veb səhifə – http://asoiu.edu.az/
- Akt zalında yerin rezerv edilməsi – http://aktzali.asoiu.edu.az/
- Əcnəbi tələbələrlə əlaqələrin qurulması üçün – https://isd.az/Default.aspx
- Rektor ilə görüş qeydiyyat sistemi – http://muracietler.asoiu.edu.az/CaptchaC/index/az
- Təkrar ali təhsil və ixtisasartırma – https://smiiyi.adnsu.az/
- Universitetin dəyişilməsi üçün təklifim var sistemi – http://muracietler.asoiu.edu.az/CaptchaC/offer/az
- Tələbələrin onlayn apellyasiya müraciət sistemi sistemi – http://lms.adnsu.az/
- Məzun-karyera sistemi – http://career.asoiu.edu.az/
- Kitabxana səhifəsi – http://asoiu.edu.az/new/library
- Kitabxana xidməti – http://lib.adnsu.az:33080/
- Turniket proqramı – http://192.168.11.50
- HPC mərkəz – https://azjhpc.org/
- Texniki dəstək proqram təminatı – http://destek.asoiu.local
- Tez-tez verilen suallar – http://asoiu.edu.az/new/faq
- Mail sistemi – Microsoft 365 Office platforması
- Mühasibat və təhcizat platforması – SİNAM şirkətinin SERP məhsulu;
- Tələbə Elmi Cəmiyyəti – http://asoiu.edu.az/public/az/page/87-telebe-elmi-cemiyyeti
- Dərs cədvəllərinin tərtib olunması üçün proqram təminatı;

- Plagiat materialların yoxlanılması üçün həm yerli, həm də xarici proqram təminat;

- İmtahan zamanı biletlərin online seçilməsi üçün sistem – http://exam.adnsu.az

Tədrisin keyfiyyətini artırmaq və informasiya resursları ilə əlaqəni daha səmərəli qurmaq üçün 143 auditoriyada veb masalar qurulmuşdur. Həmin veb masalara müəllimlər daxil olaraq elektron tədris sistemindən istifadə edərək məlumatları mərkəzləşdirilmiş şəkildə dərs zamanı təqdim edir. İnformasiya idarəetmə sistemlərinin funksiyalarınını əlçatanlığı təmin etmək üçün universitetin şəbəkə infrastrukturu optimallaşdırılmışdır.

### 5.5. İctimaiyyətlə əlaqələr

ADNSU-nun struktur bölməsi olan "İctimaiyyətlə Əlaqələr və Marketinq Departamenti" universitetin fakültələrinin, struktur bölmələrinin fəaliyyəti ilə bağlı KİV-lə əlaqələrin qurulması və ictimaiyyətin məlumatlandırılması, professor-müəllim heyəti və tələbələrlə kommunikasiyaların qurulması yolu ilə onları universitetdə görülən işlər, qarşıda duran planlarla tanış edilməsi, ADNSU-də əldə olunan yeniliklərin təbliğ olunması yolu ilə potensial tələbələrin, eləcə də təhsil layihələri ilə bağlı vəsaitlərin cəlb olunması məqsədilə marketinq fəaliyyətinin həyata keçirilməsi sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir. Departementin tərkibində həmçinin, İstehsalat təcrübəsi və Məzun-Karyera bölmələri fəaliyyət göstərir.

ADNSU-nun rəsmi veb-saytı fəaliyyət göstərir: (http://asoiu.edu.az)

ADNSU-nun məlumatlandırma fəaliyyətinin monitorinqi veb-sayt və sosial şəbəkələr, və sorğular vasitəsilə aparılır. Veb-saytda yerləşdirilən xəbərlərə baxış və sosial şəbəkələrdə paylaşılan xəbərlərin paylaşılma sayını istənilən dövr üçün əldə etmək mümkündür.

Veb-sayta yerləşdirilən xəbərlərin sayı aşağıdakı cədvəldə qeyd edilmişdir. Bundan əlavə elanlar da paylaşılır və müddəti bitmiş elanlar saytdan götürülür.

| İllər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| asoiu.edu.az saytında paylaşılan məlumatların sayı | 214 | 254 | 321 | 344 | 295 | 265 | 385 |

ADNSU-nun rəsmi veb-saytında həmçinin fakültələrin, kafedraların, eləcə də digər səhifələrin məlumatları daim yenilənir. Bundan əlavə, məzun-karyera bölməsinin saytı da (career.asoiu.edu.az) rəsmi veb-saytın tərkibində fəaliyyət göstərir. ADNSU-nun tələbə, müəllim və əməkdaşlarını, eləcə də ictimaiyyəti məlumatlandırmaq üçün veb-saytla yanaşı sosial şəbəkə səhifələrindən də aktiv istifadə olunur.

Feysbuk https://www.facebook.com/Azii1920.ADNSU - 14368

Teleqram: https://t.me/Azii1920 - 2220

Linkedin:https://www.linkedin.com/company/adnsu-m%C9%99zun-karyera-m%C9%99rk%C9%99zi - 1500

Tvitter: https://twitter.com/ADNSU1 - 600

Youtube: https://www.youtube.com/@azerbaijanstateoilindustry8971 - 780

Universitetin xəbər mətnləri və fotolar hazırlandıqdan sonra veb-saytda və sosial şəbəkələrdə paylaşılır. Bundan əlavə, video-materiallar montaj olunur və universitetin Youtube səhifəsində paylaşılır. Mətbuat nümayəndələrinin mütəmadi olaraq fərqli mövzularda sorğular göndərməsi və bu sorğuların cavablandırılması müvafiq olaraq struktur bölmənin rəhbəriliyi ilə həyata keçirilir.

Auditoriya daha çox tələbələrdən ibarət olduğu üçün mütəmadi olaraq sosial şəbəkə hesablarında sorğular aparılır. Eyni zamanda mətbuat nümayəndələri ilə görüşlər təşkil olunur. Sosial şəbəkəyə yazılan şikayət məzmunlu mesajlar təhlil olunur. Bütün bunlar fəaliyyətin qiymətləndirilməsi üçün yardımçı vasitə hesab olunur.

Bundan əlavə universitetdaxili tədbirlərin və məlumatların çatdırılması elektron poçt sistemi vasitəsilə həyata keçirilir. Tələbələrin birbaşa məlumatlandırılması üçün uyğun bölmə fəaliyyət göstəririr.

## 6. İNFRASTRUKTUR

### 6.1. Tədris infrastrukturu

Son illərdə universitetin 143 auditoriyası veb auditoriya (proyektor, kompüter dəsti, veb kamera, internet bağlantısı) formatında yenidən qurulmuşdur. Əlavə olaraq 142 ədəd müasir kompüter universitetin inzibati və laboratoriya otaqlarına yerləşdirilmişdir. Hal-hazırda 160 auditoriyada yenilənmiş kompüter dəsti və proyektor mövcuddur.

Universitetin Azadlıq pr. 20 (əsas tədris binası), Dilarə Əliyeva küçəsi, 227 (II tədris binası), Nizami küçəsi,183 (III tədris binası) ünvanlarında 3 tədris binası, Mirəli Qaşqay küşəsi, 44 ünvanında “Tələbə yataqxanası”, Ceyhun Hacıbəyli küşəsi, 28 ünvanında “İdman kompleksi”, Daşkəsən rayonunun Kobalt kəndində “Daşkəsən Təcrübə Mərkəzi”, Xaçmaz rayonu, 2-ci Yalama kəndi yaxınlığında yerləşən “Şəfa” İstirahət Bazası fəaliyyət göstərir.

Tədris binalarında tələbələrin təhsil alması, mütəxəssis kimi yetişməsi üçün müasir avadanlıq və qurğularla təchiz olunmuş laboratoriya otaqları, auditoriyalar, kompüter otaqları, kabinetlər mövcuddur, həmçinin bu binalarda müasir tipli yeməkxanalar, kitabxanalar, muzeylər, mərkəzlər fəaliyyət göstərir. Tədris binaları universitetin həyətində

quraşdırılmış qazanxanadan istiliklə təmin edilir.

Tələbə sayının çoxluğunu nəzərə alaraq, 2020-ci ildə universitetin əsas tədris binasının D.Əliyeva küçəsi cinahında, 4 mərtəbəli hissəsində müvafiq dövlət qurumlarından icazələr alındıqdan sonra 1200 $m^2$ sahəsi olan beşinci mərtəbə tikilmiş, müasir tələblərə cavab verən auditoriyalar tələbə və müəllimlərin istifadəsinə verilmişdir. 2019-cu ildə əsas tədris binasının birinci mərtəbəsində 380 $m^2$ sahədə əsaslı təmirdən sonra 2 mərtəbəli, 740 $m^2$ sahəsi olan və 3 oxu zalından ibarət müasir kitabxana (AzİI e-Kitab Evi) istifadəyə verilmişdir.

2018-ci ildə universitetin 2 saylı tədris binasının 7-ci mərtəbəsində 340 $m^2$ sahədə əsaslı təmirdən sonra müasir tələblərə cavab verən tələbə və müəllimlər üçün yeməkxana, 2021-ci ildə 2 saylı tədris binasının 4-cü mərtəbəsində müəllimlər üçün çay fasiləsi otağı, 2017-ci ildə əsas tədris binasının yarımzirzəmisində 266 $m^2$ sahədə əsaslı təmirdən sonra tələbələr üçün yeməkxana, 2020-ci ildə əsas tədris binanın yarımzirzəmi hissəsində 160 $m^2$ sahədə və həyətdə 300 $m^2$ sahədə 6 köşkdən ibarət əsaslı təmirdən sonra müəllimlər üçün yeməkxana istifadəyə verilmişdir.

2020-ci ildə əsas tədris binasının yarımzirzəmisində təmizləmə və əsaslı təmir işlərindən sonra laboratoriya və auditoriyalar qurulmuşdur.

2022-ci ildə universitetin mətbəəsi aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra müasir tələblərə cavab verən formata salınmış və bütün zəruri avadanlıqlarla təchiz olunmuşdur.

Universitetin balansında olan tələbə yataqxanası 9 mərtəbəli, 301 yaşayış otağından ibarətdir və ümumi sahəsi 15000 $m^2$ təşkil edir.

Universitetdə mini futbol, basketbol, ağır atletika və digər idman oyunları zalları olan idman kompleksi və idman klubu fəaliyyət göstərir. İdman kompleksinin ərazisində "Gənclik" mahnı və rəqs ansamblının təlim-məşq bazası da mövcuddur.

ADNSU-da 5 minik və 1 mikroavtobusdan ibarət nəqliyyat xidməti, 260$m^2$ sahədə 2 saylı tələbə poliklinikası fəaliyyət göstərir.

Universitetin binalarında tədrisin səmərəli təşkili üçün müasir tələblərə cavab verən infrastruktur mövcuddur.

AzİI e-Kitab Evi 2018-ci ildən universitetin elektron şəbəkəsinə qoşulmuş, sırf AzİI brendi olan proqram təminatı ilə təmin olunmuşdur. Elektron kitabxana proqramında əsasən aşağıdakı proseslər üzrə xidmətlər həyata keçirilir.

AzİI e-Kitab Evinin əsas səhifəsi vasitəsilə:

- Kataloq, yeni kitablar, kitab siyahısı, dövri mətbuat.

- Axtarış sistemi – kitab siyahısı və dövri mətbuat üzrə.

- Oxucular – növbədə duran oxucular, nxucuda olan kitablar, necikdirilmiş kitablar, norcu ödənilməmiş kitablar, nxucu yerlərinin rezervasiyası (gecə növbəsi).

- Hesabatlar – tələbələrin kitab göstəriciləri, titabların dillər üzrə göstəriciləri, elm sahələri üzrə göstəriciləri, ümumi götürülmüş kitabların sayı.

- İstifadəçilər – oxucular haqqında məlumat.

- Tənzimləmələr - kitab haqqında məlumatlar, kateqoriyalar, cildlər, kitabın yerləşdiyi rəflər və s.

Müasir kitabxana konsepsiyası üzrə aparılan işlər:

- Fonda daxil olan bütün çap məhsullarının (kitabların, jurnalların, avtoreferat və dissertasiyaların və s.) hesabatı və onların elektron kataloqa daxil olunması, elm sahələrinə görə təsnifləşdirilməsi və bölgüsü aparılır (oxu zalı və yaxud evə götürə bilmələri üçün).

- Kitab Evinə qeydiyyata düşən hər bir oxucuya əməkdaşlar tərəfindən istifadəçi adı və şifrə verilir. Verilən istifadəçi adı və şifrə ilə oxucu Kitab Evinin səhifəsinə daxil olmaqla, bütün resurslardan yararlana bilir.

- Oxucular tərəfindən elektron kataloq üzərindən sifariş olunan kitablar seçilir və oxucuların adına qeydiyyata alınır.

- Kitab götürən oxucular kitabları gecikdirərsə, sistem tərəfindən onlara xəbərdarlıq olunur, gecikdirmə zamanı sistem tərəfindən kitabın qiymətinə uyğun cərimə hesablanır.

- Oxucu yerlərin rezervasiyası bölməsində gecə növbəsinin qeydiyyatından keçir və istədiyi kitabı və yaxud jurnalı sifariş edə bilir.

- Oxucular Kitab Evinin veb səhifəsində göstərilən rəsmi e-mail ünvanına, facebook və instagram hesablarına müraciət imkanına malikdirlər.

Kitab Evində universitetin professor-müəllim heyəti tərəfindən təqdim olunmuş və eləcə də internet üzərindən açıq şəkildə istifadədə olan kitabların elektronlaşması prosesini həyata keçirmək və lokal şəkildə tələbələrin istifadəsi etməsi mümkündür.

Universitet xaricində oxucuların kitabxanaya olan təminatlarının ödənilməsi məqsədilə Kitab Evinin 2 nəfər əməkdaşına verilmiş VPN kodlar vasitəsilə sorğuların həyata keçirilməsi mümkündür (onlayn xidmət). Kitab Evinin foyesinə daxil olan oxucu oturaq yer rezervasiyasını həyata keçirir. Yüksək internet və WiFi şəbəkəsi ilə təmin olunmuş kompüterlər vasitəsilə Kitab Evinin abunə olduğu beynəlxalq universitetlərin, nəşriyyatların bazalarına giriş imkanları mövcuddur.

Tarixi və əlamətdar günlərə həsr olunmuş tədbirlər və kitab təqdimatları xüsusi

proqramlar vasitəsilə hazırlanır. İnventarlaşma prosesinin qismən elektronlaşmasına başlanılmışdır.

30.12.2022-ci il tarixində əsas və 2-ci tədris binalarını əlaqələndirən yeraltı keçiddə Azİİ e-Kitab Evinin nəzdində fəaliyyət göstərən "Açıq kitabxana" istifadəyə verildi. 16 blok üzrə 1200-dək kitab oxucuların istifadəsinə verilib. Kitablar əsasən elmi, bədii (bestseller, detektiv), siyasət, fəlsəfə, inkişaf-motivasiya, psixologiya, tarix və s. sahələrə aid olmaqla azərbaycan, türk, ingilis və digər dillərdədir.

Azİİ e-Kitab Evi 19.06.2017-ci il tarixindən Azərbaycan Kitabxanalararası Konsorsiumun üzvüdür, həmin konsorsiumun xətti ilə "EBSCO" beynəlxalq nəşriyyat bazasına abunə olmuşdur və həmin bazanın universitet üzrə informasiya təminatçısıdır. Bazada olan 9000 jurnal, 25000 jurnal məqaləsi və ümümilikdə 225 nəşriyyatdan 8872 adda kitabın, 14 xarici universitetin elektron bazaları və arxivləri ADNSU-nun bütün professor-müəllim heyəti və Kitab Evinin oxucuları üçün açıq istifadədə olmuşdur. Azİİ e-Kitab Evinin Azərbaycan Kitabxanalararası Konsorsiumun xətti ilə abunə olduğu "EBSCO" beynəlxalq nəşriyyat bazasının resurslarından 2022-ci il üçün 7460 nəfər oxucu istifadəsi təmin olunub. (EBSCO.link. http://search.ebscohost.com).

Azİİ e Kitab Evinin istifadə etdiyi elektron bazalardan biri də Rusiya Federasiyasının ən böyük məlumat axtarış bazası olan "POLPRED".com və onun - "Нефть, газ, уголь в РФ и за рубежом" sahəsidir. "POLPRED".com rubrikatorunda 53 sahə, eləcə də Rusiyanın 8 federativ dairəsi üzrə 235 şəhər, 600 mənbə, əraziləri haqqında son 20 ili əhatə edən informasiya yenilikləri və məlumatları əks olunur. Adı çəkilən verilənlər bazasında Rusiya Federasiyasında və xaricdə neftin, qazın çıxarılması, nəqli və saxlanması, kəşfiyyatı və emalı, eləcə də kömürün çıxarılmasına aid məqalələr və digər materiallar verilmişdir. "Polpred.com" bazasından 2022-ci il üçün 9053 nəfər oxucu yararlanmışdır (Polpred.com) (2022-ci ilin 1-ci yarımilliyinə qədər).

Hazırda 2 ay müddətinə EBSCO nəşriyyat bazasının xətti ilə Oksford Universitetinin nəşriyyat bazasına, "Hiperkitab və Turcademy" məlumat axtarış bazalarına 2 aylıq (trail) istifadədədir.

Universitetdə kadr hazırlığı aparılan ixtisaslar üzrə müvafiq avadanlıqlarla təchiz edilmiş 113 laboratoriya mövcuddur. Bundan əlavə 20 nəfərlik 4, 15 nəfərlik 9, 12 nəfərlik 5, 30 nəfərlik 4 və 45 nəfərlik 4 kompüter otaqları yaradılmışdır. Ümumilikdə kompüter laboratoriyaları 307 kompüter və 79 notbukla təmin edilmişdir.

Universitetdə istifadə olunan Microsoft məhsulları üzrə müxtəlif lisenziyalar alınmış, 300 mbps sürətlə fiber optik internet bağlantısı təmin olunmuşdur. Tədris binaları arasında

2018-ci ildən fiber optik xətlərlə təmin olunmuş şəbəkə infrastrukturu mövcuddur. Universitetin həyətyanı sahəsində, kitabxanada tələbələr üçün ödənişsiz Wi-Fi zonalar yaradılmışdır. Universitetin daxili və xaricində 402 ədəd nəzarət kameraları quraşdırılmışdır və onlara nəzarət kameralara nəzarət mərkəzi vasitəsilə həyata keçirilir. Avtomat Telefon Stansiyasında 250 nömrə daxili və 109 nömrə xarici şəbəkəni təmin edən müasir telefoniya xidməti təşkil edilmişdir.

Universitetdə Microsoft 365 sistemi üzərindən korporativ mail sistemi mövcuddur. Bütün tələbə və əməkdaşlar korporativ hesabla təmin olunub. Pandemiya dövründə və hal-hazırda onlayn görüşlər zamanı Microsoft Teams proqramından istifadə olunur. Universitetin auditoriyaları üçün nəzərdə tutulmuş 200 ədəd veb kamera mövcuddur.

Tədrisin elektron idarə olunması məqsədilə 2016-cı ildən LMS (Learning Management System) fəaliyyət göstərir. Bu sistem üzərindən bütün təhsilalanların məlumatları, tədris planları, semestr nəticələri, tədrisin tam idarə olunması təmin olunur. LMS bütün akademik heyət və tələbələr üçün universitet daxilində və xaricində əlçatandır.

Universitetdə bütün İT infrastruktura daxili resurslar hesabına xidmət olunur.

### 6.2. Elmi-tədqiqat infrastrukturu

Elmi-tədqiqat infrastrukturuna aşağıdakı struktur vahidləri aiddir:

- “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi-tədqiqat İnstitutu – Nazirlər kabinetinin 129 nömrəli, 16.03.1992-ci il tarixli əmri, Təhsil Nazirliyinin 285 nömrəli, 03.04.1992-ci il tarixli əmri ilə yaradılmışdır.
- “Nanomateriallar və nanotexnologiyalar” Elmi-tədqiqat laboratoriyası – ADNSU üzrə 104-386 nömrəli, 31.05.2016-cı il tarixli əmr ilə yaradılmışdır. Bu laboratoriyanın nəzdində 04-074 nömrəli, 30.11.2017-ci il tarixli əmr ilə “Kompozisiya materialları sektoru” yaradılmışdır.
- “Sənayedə və iqtisadiyyatda intellektual idarəetmə və qərar qəbuletmə sistemləri” Elmi-tədqiqat laboratoriyası – ADNSU üzrə 104-386 nömrəli, 31.05.2016-cı il tarixli əmr ilə yaradılmışdır.
- Azİİ Data Analitika Mərkəzi – ADNSU üzrə 3-29-50/3-1-318 nömrəli, 08.02.2023-cü il tarixli əmrlə yaradılmışdır.
- Mühəndis-Konstruktor Mərkəzi – ADNSU üzrə 04-767 nömrəli, 31.08.2021-ci il tarixli əmrlə yaradılmışdır.
- Azİİ lazer-İXUN tədris Mərkəzi – ADNSU üzrə 04-1019 nömrəli, 28.11.2017-ci il tarixli əmrlə yaradılmışdır.

- “Eazi START” Startap və İnnovasiya Mərkəzi – ADNSU Elmi Şurasının 26.10.2016-cı il tarixli qərarı ilə (protokol №2) yaradılmışdır.

- Elm və Təhsil Analitik Mərkəz – ADNSU üzrə 04-145 nömrəli, 04.02.2020-ci il tarixli əmrlə yaradılmışdır.

Qeyd olunanlardan əlavə universitetin Elmi Şurasının 25.01.2023-cü il tarixli iclasının qərarı ilə Layihə Menecmenti Ofisinin və Azad Mirzəcanzadə adına Dayanıqlı və Yaşıl Energetika Mərkəzinin yaradılması barədə qərar qəbul edilmişdir.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### 7.1. Beynəlmiləlləşmə siyasəti

Qloballaşan və insan mobilliyinin getdikcə artdığı bir dünyada ATM-lər üçün təhsilalanları qlobal cəmiyyətin çağırışlarına uyğun hazırlamaq ən vacib məsələlərdən biridir. Beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycan ali təhsil sistemində kifayət qədər prioritet sahələrdən birinə çevrilmiş, dünya ali təhsil sisteminə inteqrasiya ali təhsil müəssisələrində bu sahənin genişləndirilməsinə ehtiyac yaratmışdır.

ADNSU-da bu sahədə son 7 ildə bir sıra işlər həyata keçirilmiş, o cümlədən 2021-ci ildə universitetin inkişaf strategiyası təsdiqləndikdən sonra beynəlmilləşmə siyasətini müəyyən edən sənəd də 2021-ci ildə hazırlanıb təsdiqlənmişdir. Bu sənəd ADNSU-nun inkişaf strategiyasında göstərilən 5 hədəfin hər birini dəstəkləyir və aşağıdakı yanaşmaları özündə ehtiva edir:

- ADNSU-nun tədris profilinə uyğun xarici universitetlərlə əlaqələrinin inkişaf etdirilməsi, beynəlxalq məkanda tanıdılması.

- Mütəxəssis hazırlığı aparılan ixtisasların beynəlxalq akkreditasiyasının keçirilməsi (10 ixtisas üzrə).

- Professor-müəllim heyəti və tələbə mübadiləsinin təşkili.

- İkitərəfli və çoxtərəfli əməkdaşlıq əsasında ikili dərəcə və diplomların əldə edilməsinə xidmət edən birgə proqramların təsis edilməsi;

- Beynəlxalq qrant, mübadilə və tədqiqat layihələrində iştirakın təmin edilməsi.

ADNSU-nun 2022-ci il üçün təsdiqlənmiş prioritet istiqamətlər üzrə fəaliyyət planı universitetin beynəlmilləşmə siyasəti ilə tam üst-üstə düşərək bir çox məsələlərə yer vermişdir: akademik heyətin və tələbələrin ingilis dil biliklərinin artırılması, QS regional reytinq siyahısında yer alma və irəliləmə, 26 ixtisas üzrə tam ingilis dilində tədris həyata keçirilməsi, 2 nüfuzlu universitet ilə ikili diplom proqramının həyata keçirilməsi kimi məsələlər öz əksini tapmışdır.

Universitetdə tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təmin etmək, həmçinin, onların mövcud mexanizmlərdən istifadə etmələri üçün təşviqat və təbliğat işləri aparılır. ADNSU Avropa Birliyinin Tempus, Erasmus Mundus, Erasmus+ KA1 Mobillik Proqramı, Erasmus+ KA2 Ali Təhsildə Potensialın Gücləndirilməsi Layihələri, Tvinninq layihəsi, Yerli Qrant Layihələri, Türkiyənin Mevlana Mübadilə Proqramı, Alman Akademik Mübadilə Xidməti (DAAD) kimi beynəlxalq proqramların təqdim etdiyi imkanlardan yararlanır, bu proqramlar çərçivəsində xarici universitetlərlə əməkdaşlıq edir və mübadilə həyata keçirir.

ADNSU-da 2017 – 2022-ci illər ərzində 36 ölkədən olmaqla 141 təhsil müəssisəsi ilə elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi bağlanılmışdır. Həmçinin universitetin 28 Mevlana Mübadilə Proqramı, 7 Erasmus+ Mobillik Proqramı və 2 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur.

ADNSU bir çox ölkədən olan tərəfdaşları ilə əlaqələri möhkəmləndirir və inkişaf etdirir. Dünyanın 100-dən çox aparıcı universiteti ilə əməkdaşlıq etməklə yanaşı, həmçinin, ADNSU Avropa Universitetləri Assossiasiyasına, Avrasiya İpək Yolu Universitetləri Konsorsiumuna, Rusiya-Azərbaycan Universitetləri Assosiasiyasına, Qara Dəniz Hövzəsi Universitetləri Assosiasiyasına, Qafqaz Universitetləri Assosiasiyasına və Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasına üzvdür.

ADNSU-da elmi-tədqiqat potensialının artırılması istiqamətində də bir çox işlər görülmüş, universitet-sənaye işbirliyi çərçivəsində ən yaxşı beynəlxalq təcrübənin öyrənilməsi üçün xarici tərəfdaşlarla əməkdaşlıq qurulmuş və bunun nəticəsində birgə tədqiqat layihələrinin icrasına başlanılmışdır.

Son 7 ildə icra edilmiş fəaliyyətlərin nəticəsi olaraq hal-hazırda ADNSU-nun professor-müəllim heyətinin Türkiyənin Ankara Universiteti, Qazi Universiteti, Orta Şərq Texniki Universiteti, İstanbul Cərrahpaşa Universiteti, Gedik Universiteti, Zonquldaq Bulent Ecevit Universiteti və Karabük Universiteti, Qazaxıstan Respublikasının Muxtar Əvəzov adına Cənubi Qazaxıstan Dövlət Universiteti, Rusiya Federasiyasının Udmurt Dövlət Universiteti, Monteneqro Universitetləri, Əlcəzairin Bumerdes Universiteti, Yunanıstanın Qərbi Makedoniya Universiteti ilə elmi əməkdaşlıq aparılır.

Universitetin əməkdaşlıq etdiyi universitetlər sırasına Xarkov Milli Radioelektronika Universiteti (Ukrayna), Belarus Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, Lançjou Universiteti (Çin Xalq Respublikası), Çin Neft Universiteti də daxildir.

ADNSU aşağıdakı universitetlərlə qeyd olunmuş ixtisaslar üzrə ikili diplom proqramı müqavilələri imzalamışdır:

Strasburq Universiteti (Fransa):

- Kompüter elmləri – Bakalavriat və magistratura səviyyələrində;
- Kimya mühəndisliyi – Bakalavriat və magistratura səviyyələrində;
- Geologiya və geofizika mühəndisliyi – Bakalavriat və magistratura səviyyələrində.

Renn-1 Univeürsiteti (Fransa) :

- Neft-qaz mühəndisliyi – Bakalavriat səviyyəsində.

Warwick Universiteti (İngiltərə) :

- Bərpa olunan enerji mühəndisliyi – Magistratura səviyyəsində (2023-cü ildən planlaşdırılır).

ADNSU-da ötən illər ərzində xarici ölkələr üçün ali təhsilli minlərlə yüksək ixtisaslı kadrlar hazırlanmışdır. Burada Türkiyə tələbələri ilə yanaşı Pakistan, Hindistan, Əfqanıstan, İordaniya, İraq, Suriya, Rusiya, Çin, Banqladeş, İsrail, Sudan, Mərakeş, Fələstin, Əlcəzair, Misir, Türkmənistan, Gürcüstan, Şri-Lanka, Ukrayna, Özbəkistan, Nepal, Monqolustan, Namibiya, Qazaxıstan, Yəmən və s.ölkələrin vətəndaşları təhsil almışlar. Son 5 ildə 300-dək xarici ölkə vətəndaşı universitetin məzunu olmuşdur. Təhsil alan əcnəbi tələbələrin sayının dəyişmə dinamikası aşağıda göstərilmişdir.

| Əcnəbi tələbələrin sayı | | | |
|---|---|---|---|
| Tədris ili | Hazırlıq | Təhsilin 3 pilləsi üzrə | Toplam |
| 2017/2018 | 96 | 234 | 330 |
| 2018/2019 | 85 | 204 | 289 |
| 2019/2020 | 56 | 189 | 245 |
| 2020/2021 | 23 | 179 | 202 |
| 2021/2022 | 26 | 170 | 196 |
| 2022/2023 | 17 | 249 | 266 |

2015-ci ildə 3, 2018-ci ildə 5 və 2022-ci ildə 10 ixtisas beynəlxalq akkreditasiyadan keçmişdir.

2015-ci ildə akkreditasiyadan keçirilmiş ixtisaslar

| № | İxtisasın adı | Akkreditasiya etmiş təşkilat |
|---|---|---|
| 1 | Elektroenergetika mühəndisliyi | ASİİN |
| 2 | Proseslərin avtomatlaşdırılması mühəndisliyi | |
| 3 | Enerji menecmenti | |

2018-ci ildə akkreditasiyadan keçirilmiş ixtisaslar

| № | İxtisasın adı | Akkreditasiya etmiş təşkilat |
|---|---|---|
| 1 | Sənayenin təşkili və idarə olunması | FİBA |
| 2 | İqtisadiyyat | |
| 3 | Kompüter mühəndisliyi | |
| 4 | Biznesin təşkili və idarə edilməsi | |
| 5 | İdarəetmədə informasiya sistemləri | |

2022-ci ildə akkreditasiyadan keçirilmiş ixtisaslar

| № | İxtisasın adı | Akkreditasiya etmiş təşkilat |
|---|---|---|
| 1 | Kimya mühəndisliyi | ASİİN |
| 2 | Kimya mühəndisliyi (magistratura) | |
| 3 | Neft-qaz mühəndisliyi | |
| 4 | Geologiya mühəndisliyi | |
| 5 | Mexatronika və robototexnika mühəndisliyi | |
| 6 | Menecment | FİBA |
| 7 | Menecment (magistratura) | |
| 8 | Marketinq | |
| 9 | Heyətin idarə edilməsi (magistratura) | |
| 10 | Biznesin iqtisadiyyatı | |

2023/2024-cü tədris ilində daha 10 ixtisasın beynəlxalq akkreditasiyadan keçirilməsinə hazırlıq işləri aparılır:

| № | İxtisasın adı | Akkreditasiya etmiş təşkilat |
|---|---|---|
| 1 | Kompüter elmləri | ASİİN |
| 2 | İnformasiya təhlükəsizliyi | |
| 3 | Mexanika mühəndisliyi | |
| 4 | Cihaz mühəndisliyi | |
| 5 | İnformasiya texnologiyaları | |
| 6 | Ekologiya mühəndisliyi | |
| 7 | Süni intellekt (magistratura) | FİBA |
| 8 | Marketinq (magistratura) | |
| 9 | Elektron idarəetmə (magistratura) | |
| 10 | İqtisadi informatika (magistratura) | |

### 7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu

Bu istiqamətdə universitetdə struktur islahatları aparılır, beynəlxalq əlaqələrdən cavabdeh şöbələrin işi təkmilləşdirilir və onlara daha əlverişli şərait yaradılır.

ADNSU-nun beynəlxalq əməkdaşlıqla əlaqəli bütün struktur bölmələri universitetin beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən koordinasiya olunur.

ADNSU-nun beynəlmiləlləşmə siyasəti və bundan irəli gələn işlərin operativ icrası üçün universitetin beynəlxalq əlaqələrinə cavabdeh struktur bölmələrində son 7 il ərzində bir sıra struktur islahatları aparılmış və optimallaşdırılmışdır. Beynəlxalq əməkdaşlıq şöbəsinin strukturu dəyişdirilərək tərkibində Xarici tərəfdaşlar ilə əməkdaşlıq, Beynəlxalq layihər və Analitik ekspertiza olmaqla 3 sektoru özündə birləşdirmişdir.

Mübadilə proqramları üçün tələbə seçimi və tədris planlarının uyğunluğu fakültə dekanları, akademik heyət seçimi isə kafedra müdirləri ilə razılaşdırılır. Həm tələbə, həm də müəllim seçimi tam şəffaf şəkildə icra olunur: elanın yerləşdirilməsi, namizədlərin öz sənədlərini e-poçt ilə göndərmələri, seçimin aparılması və qarşı tərəflə razılaşdırılması ardıcıllıqla həyata keçirilir.

2017 – 2022-ci illər ərzində ADNSU-nun 19 tələbəsi mübadilədə iştirak etmiş və Erasmus, Mevlana və ikitərəfli mübadilə layihələri çərçivəsində 1 semestrlik xarici universitetlərdə təhsil almaq şansı qazanmışlar. Həmçinin 2017 – 2022-ci illlər ərzində ADNSU-nun 14 inzibati və 22 müəllim heyəti müxtəlif Erasmus layihələri çərçivəsində mübadilə proqramları, təlimlər və işçi görüşlərində iştirak etmişdir.

| **Tələbə mübadiləsi** | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
| Gedən tələbələr | 4 | 5 | 5 | 0 | 2 | 3 |
| Gələn tələbələr | 4 | 6 | 0 | 0 | 0 | 0 |

Bir nəfər Almaniya vətəndaşı 2020/2021-ci tədris ilindən etibarən “Materialşünaslıq və emal texnologiyaları” kafedrasında dosent və digər bir Almaniya vətəndaşı isə 2020/2021-ci tədris ilindən etibarən “Xarici dillər” kafedrasında Alman dili müəllimi vəzifəsində çalışır. Bir nəfər Braziliya vətəndaşı 2022/2023-cü tədris ilindən Kimya texnologiya fakültəsində tədqiqatçı-professor olaraq çalışır. İki nəfər Fransa vətəndaşı 2020/2021-ci tədris ilindən etibarən, daha 3 nəfər Fransa vətəndaşı isə 2022/2023-cü tədris ilindən etibarən UFAZ-da müəllim vəzifəsində çalışırlar.

ADNSU-nun yeni hazırlanmış beynəlmiləlləşmə siyasətinin idarəedilməsi universitetin rektoru və beynəlxalq əlaqələr üzrə prorektorun səlahiyyətlərinə daxildir, burada əsas icraçı

struktur isə universitetin Beynəlxalq əlaqələr şöbəsi, fakültə və kafedralarıdır. Siyasətin əsas fəaliyyət göstəriciləri və onlara nəzarət mexanizmi formalaşdırılmış və 2023-cü ildən etibarən illik hesabatlarda öz əksini tapacaqdır.

ADNSU-da beynəlxalq proqramlar vasitəsilə akademik heyətin mübadiləsi dinamikası əsasən artan tempdə irəliləsə də, son iki ildə pandemiya vəziyyəti ilə əlaqədar olaraq say azalmış görünsə də, son tədris ilində Türkiyə universitetləri ilə əməkdaşlıq çərçivəsində bu say artmışdır.

- 2017 – 2022-ci illərdə ADNSU-dan 36 nəfər inzibati və professor-müəllim heyəti beynəlxalq layihələrdə iştirak etmiş, Erasmus+ KA1 və KA2 Ali Təhsil Müəssisələrində Potensialın Gücləndirilməsi Layihələri çərçivəsində xarici universitetlərdə təcrübə keçmişdir.
- 2017/2018-ci tədris ilində ADNSU-dan 11 tələbə və 1 nəfər professor-müəllim heyəti Alman Akademik Mübadilə Xidməti – DAAD layihəsi çərçivəsində “Study visit” layihəsi çərçivəsində alman universitetlərində təcrübə keçmişdir.
- 2017 – 2022-cu illərdə “Post Oil Economy” DAAD yay məktəbi çərçivəsində 63 xarici tələbə ADNSU-nun təşkil etdiyi yay məktəblərində iştirak etmişdir.

2020/2021-ci illərdə dünyada baş verən pandemiya səbəbindən təhsilalanların mübadiləsi həyata keçirilməmişdir.

### 7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

ADNSU-da beynəlmiləlləşmə siyasətinin icrası ilə əlaqədar həyata keçirilən proqramlara beynəlxalq və yerli layihələrdən qazanılan qrantlarla yanaşı, universitetin maliyyəsi hesabına resurslar da ayrılır. Universitetdə xarici ezamiyyələrə ayrılan vəsaitlər ildən-ilə artırılır, beynəlmiləlləşmə prosesinin daha da inkişaf etdirilməsi üçün universitet öz maddi və insan resurlarından optimal şəkildə istifadə edir. Son 6 ildə ezamiyyələrə ayrılan vəsaitlərin miqdarı aşağıdakı cədvəldə göstərilir.

| Tədris ili | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 |
|---|---|---|---|---|---|---|
| Ezamiyyə xərcləri (AZN) | 96267,58 | 76214,42 | 60712,95 | 17292,94 | 24150,34 | 110537,68 |

ADNSU, beynəlmiləlləşmə prosesində ehtiyac duyulan maliyyə resurslarının bir qismini beynəlxalq qrant proqramları çərçivəsində əldə edir və eyni zamanda, bu layihələr çərçivəsində Avropanın ali təhsil məkanının ən yaxşı təcrübəsini öyrənərək universitetin potensialının artırılmasına dəstək olur. ADNSU 2018 – 2022-ci illərdə 5 beynəlxalq qrant layihəsinin işlənilməsinə birbaşa olaraq cəlb olunmuşdur. Bu layihələrin 3-ü Erasmus KA2 proqramı, 2-si Horizon 2020, 1-i isə İsveç İnstitutunun layihəsi çərçivəsində həyata

keçirilmişdir. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilmiş, elmi əməkdaşlıq sahələri müəyyən edilmiş və geniş əməkdaşlıq şəbəkəsi qurulmuşdur.

- 598342-EPP-1-2018-1-SE-EPPKA2-CBHE-JP - MAGnUS “Mobil Tətbiqlər və Oyunların İnkişafı üzrə Magistr proqramı” Erasmus+ layihəsi (2018-2022) – 96000 Avro.

- UNİLAB “21-ci əsrdə universitetdən əmək bazarına: iş əsaslı yerləşdirmələrdə bir addım irəli” adlı Erasmus + layihəsi (2019-2022) – 38000 Avro.

- WORK4CE“XXI əsrdə sağlam və təhlükəsiz iş üçün sahələr arası bacarıqlar” Erasmus+ layih’si (2020-2024) – 92000 Avro.

- CAMPAIGNers “Məqsəd təyinedən şəbəkənin fəal şəkildə tətbiqi yolu ilə təsirlərin azaldılması yolları üzrə fəaliyyət göstərən vətəndaşlar” Avropa İttifaqının Horizon 2020 tədqiqat və innovasiya layihəsi (2022-2024) – 32500 Avro.

- “ELECTRON rEsilient and seLf-healed EleCTRical pOwer Nanogrid” Avropa İttifaqının Horizon 2020 elmi tədqiqat layihəsi (2021 – 2024) – 41250 Avro.

- CyberEDU “Davamlı Kibertəhlükəsizlik Təhsil Şəbəkəsinin yaradılması” İsveç İnstitunun layihəsi – 6503 Avro.

ADNSU beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir. ADNSU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində uğurlu işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb. Bu layihələr nəticəsində beynəlxalq birgə proqramların hazırlanması üzrə təcrübə qazanılmışdır. Digər tərəfdən, görülən bu işlər xarici universitetlərin beynəlxalq əmək bazarına cavab verən kurikulumlarının hazırlanma metodikası və məzmununun ADNSU tərəfindən mənimsənilməsinə və prosesdə iştirak edən əməkdaşların yeni bilik və bacarıqlar əldə etməsinə əlverişli şərait yaradır.

İngilis dilinin tədrisinin akademik səviyyədə inkişafı və beynəlxalq tərəfdaşlığın genişlənməsi və daha çox əməkdaşın beynəlxalq proqramlardan yararlanması məqsədilə professor-müəllim heyətinin xarici dil biliyi səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. Son bir neçə ildə universitetdə aparılan islahatlar çərçivəsində tələbələrin və əməkdaşların xarici dil biliklərinin inkişaf etdirilməsi dekanlıq və kafedraların qarşısına qoyulan prioritet məsələrdən biridir. 22.04.2019-cu ildə ADNSU, British Petroleum Exploration (BP) və “British Council”-ın Azərbaycandakı ofisi arasında üçtərəfli müqavilə imzalanıb. İlkin olaraq universitetin 90 müəlliminə və 200 tələbəsinə “British Council” tərəfindən intensiv ingilis dili təlimi keçirilib və onlar imtahan olunub.

14 – 28 may 2022-ci il tarixlərində keçirilən Aptis imtahanları üçün ümumilikdə 1042 tələbə qeydiyyatdan keçmişdir. 28.05.2022-ci il tarixində keçirilən professor-müəllim və işçi heyəti üzrə isə 28 nəfər imtahanda iştirak etmişdir. 18.10.2022-ci il tarixindən 05.02.2023-cü il tarixinədək davam edən Aptis imtahanları üçün 1843 nəfər qeydiyyatdan keçmişdir. Onlardan 37 nəfəri professor-müəllim və işçi heyətdəndir. 24 – 25 və 29 dekabr 2022-ci il tarixlərində isə Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Təhsilin İnkişafı Fondu və 6 ali təhsil müəssisəsi arasında 28.10.2022-ci il tarixli "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında" əməkdaşlıq müqaviləsi çərçivəsində "British Council" tərəfindən ADNSU-da "IELTS" imtahanları təşkil edilmişdir. İmtahanda 90 tələbə iştirak etmiş və nəticələri kifayət qədər yüksək (səh. 63) olmuşdur.

ADNSU-da mübadilə və qrant proqramları çərçivəsində tələbə və müəllimlərin, o cümlədən inzibati heyətin mübadiləsi, elmi-tədqiqat proqramları çərçivəsində tələbə və əməkdaşların qısamüddətli təcrübə keçmələri, müxtəlif vaxtlarda əcnəbi müəllimlərin tədrisə cəlb olunmaları, ikili diplom proqramları çərçivəsində tələbələrin təhsilinin müəyyən hissəsini xaricdə alma imkanı əldə etmələri ilə əlaqədar beynəlmiləlləşmə siyasətinin icrasına insan resursları cəlb olunur.

Beynəlmiləlləşmə siyasətinin icrası ilə bağlı ehtiyac duyulan maddi və insan resurslarının artırılması məsələlərinin 2023/2024-cü tədris ilindən etibarən dövri olaraq həyata keçirilməsi nəzərdə tutulan siyasətin idarəedilməsinin monitorinqində qeydə alınması və müvafiq islahatların keçirilməsi nəzərdə tutlmuşdur.

### 7.4. Beynəlmiləlləşmə performansı

Beynəlmiləlləşməsi istiqamətində görülən işlərə nəzarət və dəstək vermə funksiyaları universitetin beynəlxalq əlaqələri həyata keçirən strukturlarının üzərinə düşür. Beynəlxalq əməkdaşlıq şöbəsi tərəfindən beynəlxalq əməkdaşlığın qurulması, bakalavr və magistratura səviyyəsində aparıcı ixtisasların beynəlxalq akkreditasiyadan keçməsi, nüfuzlu reytinq cədvəllərində iştirak, tələbə və müəllim mübadiləsinin sayının artırılması, ikili diplom proqramlarının genişləndirilməsi, əcnəbi müəllimlərin tədrisə cəlbi, beynəlxalq qrant layihələri çərçivəsində akademik və inzibati heyətin potensialının artırılması, bütün ixtisaslar üzrə tədris planlarının beynəlxalq tələblərə uyğunlaşdırılması və s. istiqamətlərində işlər ya birbaşa icra olunur, yaxud da müvafiq strukturlara yönəldilərək icra müddəti və nəticələrinə nəzarət edilir.

ADNSU-nun Beynəlxalq əməkdaşlıq şöbəsi beynəlmiləlləşmənin inkişafı üçün müəyyən olunmuş əsas fəaliyyət göstəricilərinin təkmilləşdirilməsinə, nəticəyönümlü

olmasına nəzarət edir və digər struktur bölmələrin bu istiqamətdə fəaliyyətlərinə dəstək verir. Universitetin professor-müəllim heyətinin və tələbələrin ingilis dili səviyyəsini artırılması və növbəti mərhələlərdə xarici tərəfdaşlarla birgə layihələrdə iştirak etmək məqsədi ilə ADNSU, BP Azerbaijan və British Council 2021-ci ildən etibarən ADNSU-da ödənişsiz əsaslarla APTİS və İELTS imtahanlarını təşkil etmişdir.

Bundan əlavə, BP Azerbaijanın dəstəyi ilə ADNSU və Böyük Britaniyanın Warwick Universiteti arasında bərpa olunan və yaşıl enerji sahəsində magistratura təhsil səviyyəsində ikili diplom proqramnın yaradılması istiqamətində addımlar atılmış və 2023/2024-cü tədris ilində tədrisə başlanılması nəzərdə tutulmuşdur.

2017/2018-ci tədris ilindən etibarən hər il (pandemiya müddəti istisna olmaqla) ""Post Oil Economy" mövzusunda beynəlalq yay məktəbləri təşkil olunmuş və ümumilkdə müxtəlif ölkələrdən 63 xarici tələbə ADNSU-nun təşkil etdiyi yay məktəblərində iştirak etmişdir. 2017/2018-ci tədris illərində ADNSU-dan 11 tələbə və 1 nəfər professor-müəllim heyəti Alman Akademik Mübadilə Xidməti – DAAD layihəsi çərçivəsində "Study visit" layihəsi çərçivəsində alman universitetlərdə təcrübə keçmişdir.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 42 | | | | + |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 10 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **52** | | | | **+** |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 11 | | | | + |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 25 | | | + | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 10 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | **+** | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | + |
| 3.2 Təhsil proqramları | 30 | | | | + |
| 3.3 Tədrisin təşkili | 62 | | | | + |
| 3.4 Tədris metodları və üsulları | 23 | | | | + |
| 3.5 Təlim və tədris resursları | 50 | | | | + |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 34 | | | | + |
| 3.7 Professor-müəllim heyəti | 35 | | | | + |
| 3.8 Tələbəyönümlü tədris | 33 | | | | + |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 13 | | | + | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 15 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **307** | | | | **+** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 23 | | | | + |
| 4.2 Tədqiqat resursları | 21 | | | | + |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 55 | | | | + |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **108** | | | | **+** |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 22 | | | + | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 26 | | | + | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 38 | | | + | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 22 | | | | + |
| 5.5 İctimaiyyətlə əlaqələr | 15 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **123** | | | **+** | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 38 | | | + | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 5 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **43** | | | **+** | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 21 | | | + | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 25 | | | + | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 11 | | | | + |
| 7.4 Beynəlmiləlləşmə performansı | 4 | | + | | |
| **İstiqamət üzrə yekun bal** | **61** | | | **+** | |
| **Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **740** | | | | **+** |

**6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər**

**1. Strategiya inkişaf istiqaməti üzrə:**

1.1. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nizamnaməsinin tələblərinə uyğun olaraq idarə edilir, universitetin Strateji inkişaf planı mövcuddur, fəaliyyəti əmək bazarının, cəmiyyətin və milli iqtisadi inkişafın istiqamətləri, dövlət təhsil standartlarının tələblərinə uyğundur.

1.2. Universitetin sonuncu akkreditasiya qiymətləndirilməsi nəticəsində verilmiş tövsiyələr nəzərə alınmış və çatışmazlıqlar aradan qaldırılmışdır.

1.3. Hesabat dövründə ADNSU QS dünya universitetləri reytinq sıralamasında yerini müəyyənləşdirmək üçün müraciət etmişdir və cari il üçün nəticələri gözləyir.

1.4. Son 6 ildə universitetin idarə edilməsinin təkmilləşdirilməsi üçün əsaslı islahatlar aparılmış, yeni zəruri struktur bölmələri yaradılmış və optimallaşdırma həyata keçirilmişdir.

**2. Kefiyyət təminatı istiqaməti üzrə:**

2.1. ADNSU-da Strateji İnkişaf Planına əsaslanan, maraqlı tərəflərin rəy və gözləntiləri nəzərə alınmaqla müxtəlif istiqamətləri – təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini əhatə etməklə hazırlamış Keyfiyyət siyasəti sənədi mövcuddur və həmin sənəd unversitet daxilində bütün struktur bölmələrə göndərilmişdir.

2.2. Unversitetdə daxili keyfiyyət təminatının tənzimlənməsi üzrə məsul struktur Elm-Təhsil Analitik Mərkəzin “Daxili keyfiyyət təminatı sektoru”dur. Bu sektor keyfiyyətin təmin olunması istiqamətində universitetin digərt struktur bölmələri ilə əməkdaşlıq edir.

2.3. Hazırda Strateji İnkişaf Planındakı hədəflərə uyğun olaraq strateji inkişaf planının icrasının, tədrisin, elmi tədqiqat işlərinin və struktur bölmələrin fəaliyyətinin keyfiyyətinin monitorinqi və qiymətləndirməsi üzrə vahid Keyfiyyət Komissiyası yaradılması istiqamətində işlər davam etdirilir.

2.4. ADNSU-nun daxili keyfiyyət təminatı üzrə təsdiq edilmiş fəaliyyət planlarında icraçılar müəyyən edilmişdir.

2.5. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat hazırlanmış və unversitetin Elmi Şurasında təsdiq olunmuşdur.

2.6. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi istiqamətində unversitetdə son vaxtlar sorğular keçirilmiş və bu proses davamlı olaraq aparırılacaqdır. Eyni zananda unversitetdə keyfiyyət mədəniyyətini müasir tələblər

səviyyəsinə uyğulaşdırmaq üçün əlavə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur.

2.7. Daxili Keyfiyyət Təminatı sisteminin cari tədris ilində təsdiq edilən fəaliyyət planında təhsil proqramları, inzibati və akademik heyət, fakültələr, təhsilalanlarla bağlı keyfiyyət təminatı istiqamətində icra olunacaq müxtəlif fəaliyyətlər öz əksini tapmışdır.

2.8. Təlim-tədris və tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün lazım olan akademik və inzibati heyətin, infrastrukturun, avadanlıqların və digər zəruri obyektlərin müəyyən edilməsi üçün universitet rəhbərliyi ilə struktur bölmə rəhbərləri arasında mütəmadi görüşlər keçirilir və universitetin missiyasına, məqsəd və hədəflərinə uyğun prioritetlər müəyyən edilir.

**3. Təlim və Tədrisi istiqaməti üzrə:**

3.1. Hər növbəti tədris ili üçün universitetin tələbə qəbulu planının proqnoz layihəsi hazırlanarkən yeni ixtisaslar üzrə dünya trendi, işəgötürənlərlə keçirilmiş müzakirələrin nəticəsi, əmək bazarının müxtəlif ixtisaslara olan tələbatı, əvvəlki illərin faktiki qəbulu və Dövlət İmtahan Mərkəzinin “Abituriyent” jurnalının 12-ci nömrəsində çap olunan ötən il üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinə dair elmi-statistik materialları nəzərə alınır.

3.2. Ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin, mövcud qanunvericiliyin, əmək bazarının, iqtisadiyyatın tələbləri nəzərə alınmaqla, müvafiq ixtisasların profilləri üzrə aparıcı mütəxəssislərin iştirakı ilə tərtib olunan Təhsil proqramları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.

3.3. Tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” və 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili” Qaydalarının tələblərinə uyğun hazırlanmış tədris planlarının əsasında həyata keçirilir.

3.4. Tədris prosesi tələbəyönümlü, problemyönümlü, səriştə əsaslı, nəzəriyyə və praktiki tətbiq yönümlü aparılmaqla, təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir.

3.5. Tədris prosesi təhsilalanların tədris ehtiyaclarını tam ödəyən, ölçmə və qiymətləndirmə imkanlarına malik olan tədrisin elektron idarəetmə sistemi (lms) vasitəsilə

ən müasir təşkilati texnika ilə (internet şəbəkəsinə qoşulmuş kompüter və proektor) təchiz edilmiş auditoriya və laboratoriyalarda yerinə yetirilir.

3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ədalətli, obyektiv, şəffaf şəraitdə müxtəlif metod və vasitələrdən istifadə etməklə aparılır, tələb olunan bütün kreditləri toplayan şəxslərə müvafiq dövlət sənədləri, təhsil səviyyəsini bitirməyən şəxslərə isə müvafiq akademik arayışlar verilir.

3.7. İT Departamentinuin əməkdaşları tərəfindən akademik heyətə müasir trendlərə cavab verən interaktiv, aktiv və distant tədrisin aparılması ilə əlaqədar təlimlər keçirilmişdir.

3.8. AKTTS-nə əsasən tələbəyönümlü tədrisin təşkili üçün təhsilalanlara fərdi tədris planının tərtib edilməsində akademik məsləhətçilərin (tyutorların) xidmətindən istifadə imkanı, ixtisasın seçmə fənlər blokundan seçim sərbəstliyi təmin edilir, tədrisin təşkili və keyfiyyəti, elmi-tədqiqat işlərində iştirak, sosial məsələlər və s. istiqamətlərdə tələbələrin rəy və təklifləri öyrənilir.

3.9. Təhsil proqramlarının məzmunu və mənsimsənilmə səviyyəsi mütəmadi olaraq təhlil olunur, beynəlxalq akkreditasiyadan keçirilmiş proqramlarda tədris olunan fənlərin ABŞ və Avropanın qabaqcıl universitetlərinin proqramlarındakı fənlərə uyğunluğu təmin olunur, işəgötürənlərin istəkləri əsasında ixtisaslar üzrə seçmə fənlər blokuna dəyişikliklər edilir.

3.10. Magistratura təhsil proqramlarının texnika və texnologiya sahəsindəki müasir trendlərə və əmək bazarının tələblərinə uyğun olaraq, təkmilləşdirilməsinə ehtiyac vardır.

3.11. İctimaiyyətlə Əlaqələr və Marketinq Departamentinin tərkibində fəaliyyət göstərən İstehsalat təcrübəsi və Məzun-Karyera bölmələri işəgötürənlərlə razılaşma əsasında təhsilalanların müxtəlif proqramlar üzrə təcrübələrdə iştirakı təmin edir, universitet – məzun əlaqələrinin yaradılması işini həyata keçirir, tələbə və məzunlara karyera məsləhət xidmətləri göstərir, sayt vasitəsilə tələbə və məzunlara iş yerləri təklifi edir.

**4. Elmi-tədqiqat istiqaməti üzrə:**

4.1. Universitetin elmi-tədqiqat və innovasiya fəaliyyətinin strateji istiqaməti müəyyən edilmişdir. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin (akademik heyət, sənaye nümayəndələri və s.) iştirak səviyyəsi, universitetin məqsədlərinə uyğun olaraq tədqiqat universitetinin yaradılması, tədqiqat potensialının artırılması, sahibkar universitet ideyasının reallaşması, universitet-sənaye əməkdaşlığının təmin olunması, texnopark və startap ekosisteminin yaradılması istiqamətində müddəalarda yer almış və prioritet olaraq müəyyən edilmişdir.

4.2. Elmi-tədqiqat işlərinin aparılması üçün tədqiqat resurslarının formalaşdırılması mexanizmi mövcuddur. ADNSU-da elmi tədqiqat istiqamətləri üzrə kadr potensialı, elmi-tədqiqat strukturları mövcuddur və onlar arasında zəruri inteqrasiya təmin olunmuşdur. Magistrantlar və doktorantlar arasında aparılan təşviqat işləri əsasında elmi işlə məşğul olmaq istəyən gənc tədqiqatçıların seçimi aparılır, elmi-tədqiqat işlərinin davamlılığını təmin etmək üçün stimullaşdırıcı mexanizmlər mövcuddur. ADNSU müxtəlif elmi təşkilatlarla sıx elmi fəaliyyətə üstünlük verir.

4.3. Müxtəlif təyinatlı yerli və xarici elmi-tədqiqat (sahə) institutları və sənaye müəssisələri ilə birgə elmi-tədqiqat işlərinin daha yüksək səviyyədə təşkil olunması məqsədəuyğun hesab olunur.

4.4. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üçün ADNSU-da Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən 1 elmi tədqiqat institutu, 2 elmi tədqiqat laboratoriyası, istiqamətlər üzrə elmi tədqiqat mərkəzləri, konstruktor bürosu və kafedralar formalaşdırılmışdır ki, onlar universitetin strategiyasına uyğun tədqiqat fəaliyyətləri həyata keçirirlər. ADNSU-da tədqiqat fəaliyyəti müxtəlif konfranslar, simpoziumlar, qrant layihələrində iştirak, innovativ fəaliyyət, beynəlxalq şəbəkələrdə və ikitərəfli əlaqələr çərçivəsində əməkdaşlıq yolu ilə həyata keçirilir. Tədqiqat fəaliyyətinin aktivləşdirilməsi üçün magistatura və doktorantura səviyyələrində tədqiqat yönümlü tədrisin aparılması diqqətdə saxlanılır, onların tədqiqat mövzuları bilavasitə sənaye problemlərinin həllinə həsr edilir.

4.5. Universitetdə elmi kadrların hazırlığı üçün 14 ixtisas üzrə 5 Dissertasiya Şurası fəaliyyət göstərir.

4.6. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizmi mövcuddur. “Plagiat.pl” MMC şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə əməkdaşlıq müqaviləsi bağlanıb və bu günədək əməkdaşlığı davam etdirilir. Plagiat.pl MMC təklif etdiyi “Strikeplagiarism” proqram təminatı ilə dissertasiyaların, o cümlədən magistr dissertasiyalarının, bakalavr buraxılış işlərinin antiplagiat proqramı vasitəsilə yoxlanılması həyata keçirilir.

4.7. Uuniversitetdə elmi-tədqiqat işləri üçün çox vacib olan Elektron-kitabxana sistemi qurulmuşdur..

4.8. Elmi-tədqiqat işlərinin aktivləşdirilməsi məqsədilə hesabat dövründə universitetin Elmi Şurasının qərarları İlə HPC Mərkəzi, Elm-Təhsil Analitik Mərkəz, Start-up Məktəbi, Akselerasiya Mərkəzi, Transfer texnologiyaları Mərkəzi, Rəqəmsal İnkişaf və İnnovasiya Mərkəzi, Layihə menecmenti Ofisi, Data Analitika Mərkəzi yaradılmış və tədqiqat işlərinin aparılması üçün lazımi təşkilati işlər görülür.

4.9. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrdən cəlb edilən iştirakçıların sayının artırılması planlaşdırılır.

4.10. Son illər əvəzçiliklə tədqiqatçı-professor qismində universitetə işə qəbul olunmuş Amerika, Avropa və Türkiyənin aparıcı universitetlərində çalışan və Hirş indeksi yüksək olan Azərbaycan kökənli alimlər elmimetrik göstəricilərin yüksəldilməsinə və birgə aparılan elmi-tədqiat işlərinin effektivliyinin artırılmasına töhfə verirlər.

**5. İdarəetmə istiqaməti üzrə**

5.1. İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi onların əsasnamə və vəzifə təlimatları əsasında, eləcə də əvvəlcədən tərtib edilmiş yol xəritəsinin icra vəziyyətinə görə universitetin Elmi Şurası tərəfindən yaradılan müxtəlif komisiyalar tərəfindən həyata keçirir.

5.2. Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində zəruri təlimlərin təşkili barədə təklif hazırlanır. Təlim prosesinin monitorinqi həyata keçirilir. Universitet əməkdaşlarının preformans göstəricilərinə əsasən karyera yüksəlişi həyata keçirilir.

5.3. Universitetin müxtəlif struktur bölmələrinə işə qəbulun iki pilləli sistem əsasında aparılması qaydaları Elmi Şura tərəfindən təsdiq edilmişdir.

5.4. Universitetin maliyyə resursları dövlət sifarişi ilə və ödənişli əsasda təhsil alanların təhsil haqqından, elmi-tədqiqat layihələrindən, qrantlardan və s. formalaşır.

5.5. İnformasiya idarəetmə sisteminin əsasını – mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi, tədrisin elektron idarəolunması, elektron kitabxana, universitet rəhbərliyi ilə görüş və əks əlaqə, mühasibatlıq və təhcizatın idarə olunması, akt zalında yerin rezerv edilməsi, plagiat proqram təminatı, turniket, mərkəzləşdirilmiş mail, dərs cədvəllərinin tərtib edilməsi, tələbə-məzun bazası və məzun-karyera və digər sistemlər təşkil edir.

5.6. Neyron şirkəti ilə ADNSU arasında bağlanmış müqaviləyə əsasən Unibook brend adı ilə tədrisin elektron idarə olunması sistemi istifadə olunur.

5.7. İnformasiya Texnologiyaları Departamentinin əvəzinə Rəqəmsal İnkişaf və İnnovasiya Mərkəzinin yaradılması universitetin rərqmsal mühitə transformasiyasını təmin etməlidir.

5.8. Universitetdaxili tədbirlərin və məlumatların çatdırılması elektron poçt sistemi və monitorlar vasitəsilə həyata keçirilir.

**6. İnfrastruktur istiqaməti üzrə:**

6.1. Universitetin 143 auditoriyasının 300 mbps sürətli fiber optik internet bağlantıya malik veb auditoriya formatında qurulması həm onlayn, həm də ənənəvi rejimdə tədrisi yüksək səviyyədə təşkil etmək imkanı verir.

6.2. III və Iv kurs tələbələri üçün ixtisasın seçmə fənlərinin tədrisinin müxtəlif sənaye müəssisələrində və kafedraların baza filiallarında təşkil edilməsi auditoriya fonduna düşən yükü azaltmaqla yanaşı, bilavasitə istehsal sahələrində prakiki biliklərin əldə olunmasına əlverişli şərait yaradır.

6.3. 24/7 rejimində fəaliyyət göstərən Azii e-Kitab Evinin Azərbaycan Kitabxanalararası Konsorsiumun xətti ilə "EBSCO" beynəlxalq nəşriyyat bazasına abunəliyi istifadəçilərə resurslarından istifadə imkanı yaratmışdır.

6.4. Pandemiya dövründə universitetdə tədris prosesi distant olaraq Microsoft Teams və Zoom platformaları vasitəsilə aparılmışdır.

6.5. Əcnəbi tələbələrin universitetə cəlb edilməsi üçün tələbə yataqxanasının müasir səviyyədə təmir və yenidənqurulmasına ehtiyac vardır.

6.6. Müasir səviyyədə yenidən qurulmuş yeməkxanalar əməkdaş və tələbələrin ehtiyaclarını tam qaşılamaqla yanaşı müxtəlif tədbirlərin keçirilməsi üçün əlverişli məkan rolunu oynayırlar.

6.7. Universitetin tələbə və əməkdaşlarına xidmət göstərən tibb poliklinikasının təmirə və müasir avadanlıqlarla təchiz olunmasına ehtiyac vardır.

**7. Beynəlmiləlləşmə istiqaməti üzrə:**

7.1. ADNSU-nun inkişaf strategiyası əsasında hazırlanmış beynəlmiləlləşmə siyasəti sənədində bütün istiqamətlər universitetin əsas strateji hədəflərinə uyğundur.

7.2. Beynəlmiləlləşmə siyasətinin operativ icrası üçün Beyəlxalq əməkdaşlıq şöbəsinin nəzdində Xarici tərəfdaşlar ilə əməkdaşlıq, Beynəlxalq layihər və Analitik ekspertiza olmaqla 3 sektor yaradılmışdır.

7.3. Müəllim-tələbə mobillyi, əcnəbi professor-müəllim heyətinin cəlb olunması, ikili diplom proqramlarının hazırlanması, beynəlxalq reytinq cədvəllərində iştirak kimi istiqamətlərdə görülmüş işlər barədə 2022/2023-cü tədris ilindən başlayaraq illik hesabatların hazırlanması nəzərdə tutulmuşdur.

7.4. Beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün universitet həm daxili büdcəsi hesabına, həm də beynəlxalq qrantlar vasitəsi ilə lazımı maliyyə resurslarının ayrılmasını

təmin edir. Müqayisə üçün, 2022/2023-cü tədris ilinə ezamiyyə xərcləri 2021/2022-ci tədris ili ilə müqayisədə təxminən 5 dəfə artmışdır.

7.5. BP Azerbaijanın dəstəyi ilə ADNSU və Böyük Britaniyanın Warwick Universiteti arasında bərpa olunan və yaşıl enerji sahəsində magistratura təhsil səviyyəsi üzrə ikili diplom proqramnın yaradılması istiqamətində addımlar atılmış və 2023/2024-cü tədris ilində tədrisə başlanılması nəzərdə tutulmuşdur.

## III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Proqramı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və  təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;

18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.